Bu bir xalq qəzetidi
ƏDALƏT

## Bu şəxslərə yeni şəxsiyyət vəsiqəsi veriləcək



**Azərbaycanda 15 yaşı tamam olmamış şəxslərə yeni şəxsiyyət vəsiqəsi veriləcək.**

Adalet.az-ın məlumatına görə, bu barədə məsələ "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" qanuna təklif olunan dəyişiklikdə əksini tapıb.

Dəyişikliyə əsasən, yeni şəxsiyyət vəsiqəsində vətəndaşın şəkli də əksini tapacaq.

Layihəyə əsasən, 15 yaşı tamam olmamış vətəndaşın əl-barmaq izləri götürülməyəcək, habelə ona verilən şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısına vətəndaşın ailə vəziyyəti, boyu, gözlərinin rəngi, hərbi vəzifəsi, vətəndaşın uşaqlarının soyadı və adı, vətəndaşın istəyi əsasında onun gücləndirilmiş elektron imzası ilə əlaqədar sertifikatlar, akkreditə edilmiş sertifikat xidmətləri mərkəzi tərəfindən verilmiş elektron imza yaratma və elektron imzanı yoxlama məlumatları (imza yaratma məlumatları oxunuş üçün bağlıdır) daxil edilməyəcək.

Qeyd edək ki, dəyişikliklər Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirə edilərək plenar iclasa tövsiyə olunub.

## *Hikmət Hacıyev:* "Münasibətlərimiz Azərbaycan və Rusiyanın tarixi ənənələrinə uyğundur"



**"Rusiya-Azərbaycan Ekspert Şurası iki ölkə arasında əlaqələrin inkişafında xüsusi əhəmiyyətə malikdir. Azərbaycan-Rusiya əlaqələrinin tarixi dərin köklərə əsaslanır. Ölkələrimiz arasında dostluq strateji əməkdaşlıq xarakteri daşıyır. Bu da Cənubi Qafqazda təhlükəsizliyin təminatı üçün çox mühüm əhəmiyyətə malikdir".**

Adalet.az xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi -Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiya-Azərbaycan Ekspert Şurasının noyabrın 19-da Bakıda keçirilən iclasında deyib. Hikmət Hacıyev diqqətə çatdırıb ki, Azərbaycan tarixi torpaqlarını işğaldan azad edərək ərazi bütövlüyün bərpa edib və münaqişəyə son qoyulub. Üçtərəfli bəyanatın əhəmiyyətindən danışan Prezidentin köməkçisi qeyd edib ki, Azərbaycan Zəfəri ilə regionda yeni reallıq yaradıb. O bildirib ki, indiki münasibətlərimiz Azərbaycan və Rusiyanın tarixi ənənələrinə uyğundur. Qarşılıqlı fəal əməkdaşlıq inkişaf edir. Rusiya-Azərbaycan Ekspert Şurasının ikitərəfli münasibətlərin dərinləşməsində böyük rolunu qeyd edən Hikmət Hacıyev Azərbaycan və Rusiya ekspertlərinin əməkdaşlığına üçüncü tərəfin də qoşulacağına inamını ifadə edib.

## Ayımızı, ilimizi, tariximizi bəzəyən Zəfər bayramı

Bax: səh.3

## Putin Rusiya Təhlükəsizlik Şurasının toplantısını keçirdi



**Rusiya Prezidenti Vladimir Putin videokonfrans formatında Təhlükəsizlik Şurasının daimi üzvlərinin əməliyyat müşavirəsini keçirib.**

Adalet.az xəbər verir ki, dövlət saytının yazdığı məlumata görə, Rusiya Prezidenti müxtəlif beynəlxalq təşkilatlardakı fəaliyyətindən danışıb.

O, pandemiyaya qarşı mübarizədə beynəlxalq ictimaiyyətin səy göstərməsinin vacibliyindən bəhs edib. Vladimir Putin ölkəsinin bu istiqamətdə göstərdiyi fəaliyyəti də vurğulayıb.

## *Hulusi Akar:* "Türkiyə bütün imkanları ilə qardaşlarının yanında olmağa davam edəcək"



**"Biz Qafqazın sabitliyinə əhəmiyyət veririk". Adalet.az-ın xəbərinə görə, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar Erciyez Universitetinin yaradılmasının 44-cü ildönümü münasibətilə keçirilən tədbirdə deyib.**

"Can Qardaşımız Azərbaycan "Tək Vətən" hərakatı ilə torpaqlarını işğaldan azad edib.

Türkiyə müharibə vaxtı olduğu kimi, bundan sonra da bütün imkanları ilə qardaşlarının yanında olmağa davam edəcək", - nazir vurğulayıb.

## DİN-dən qazilərin aksiyası ilə bağlı açıqlama



**Dünən 26 nəfər şəxs sosial təminat problemləri ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin önünə toplaşıblar.**

Bu barədə Adalet.az-a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən bildirilib.

"Onlara Nazirliyin əməkdaşları tərəfindən qəbul olunmaları təklif edilmişdir.

Həmin şəxslərdən bir qrupu təklifi qəbul edərək qəbula getmiş, təklifi qəbul etməyənlər isə polis əməkdaşları tərəfindən ərazidən uzaqlaşdırılmışlar. Bu zaman heç bir instident qeydə alınmamış və saxlanılan yoxdur. Eyni zamanda qeyd edək ki, həmin şəxslərin müraciətlərinin aidiyyəti dövlət qurumları tərəfindən araşdırılması onların diqqətinə çatdırılmışdır", - nazirlikdən qeyd olunub.

## İTİNİZİ AYAĞINIZA BAĞLAYIN



**Ermənistan silahlı qüvvələri iriçaplı pulemyotlardan, minalar və qumbaraatanlardan və ağır artilleriyadan istifadə etməklə sərhəddə böyük təxribat törətdilər. 7 əsgərimiz şəhid oldu, yerləri behişt!**

Düşmən tərəf daha ağır itkilərə məruz qaldı - həm ağır texnika itirdilər, həm də iki vacib yüksəkliyi. Sərhəd ordumuzun tam nəzarəti altındadı.

Deməli, Avropa İttifaqı Şurasının sədri Şarl Mişel bizim Möhtərəm Prezidentə zəng elədi, Makronla Putin telefonla danışdı, Paşinyanla Putin telefonla danışdı, Şoyqu Zakir Həsənova telefon açdı, BMT tərəfləri gərginliyi artırmamağa çağırdı və sair və ilaxır. Bundan sonra döyüş bizim üstünlüyümüzlə dayandı.

**İtinizi ayağınıza bağlayın, sonra da bizə xahiş-minnət eləməyin də!**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 99 (5931) 20 noyabr 2021-ci il
Qiyməti 30 qəpik

# Prezident yeni Biləcəri lokomotiv deposunun açılışında iştirak etdi



Bax:səh-2

## Rüstəm Muradov, bəlkə heç getməyəsən?



**Gedirsən, gəlirsən, qalmısan Moskva, İrəvan, Bakı arasında. Hava da soyuq. Bir tərəfdən də pandemiya. Xəstələnərsən. Başına bir iş gələr, bəs onda bu binəva ermənilər nağayracaq?**

İstəyirsən İrəvanda qal, ya da gəl Bakıda qal. Bakı yaxşıdı. İrəvanda qıtlıqdı. Otellər də soyuqdu.

Nə qədər ki, sülh bağlanmayıb, nə qədər ki, ermənilər sizlərə, daha dəqiq desək, Rusiyaya, Fransaya, Amerikaya arxayın olub, həftə səkkiz mən doqquz başı kəsilmiş çolpa kimi atılıb düşəcəksən. Hələ Bakıdan çox meyit daşımalı olacaqsan. Hələ çox əsir daşımalı olacaqsan.Düzdü, deyəsən bu dəfə əsir apara bilmədin, canın sağ olsun. Əsirlərdən narahat olma. Heç getmək də istəmirlər. Yeyib-içib yatırlar da. Bilirlər ki, qayıdan kimi əllərinə bir avtomat verib göndərəcəklər müharibəyə. Bu dəfə bəxtləri gətirib sağ qalıb əsir düşüblər. Ola bilər ki, gələn dəfə bəxtləri gətirmədi. Onda gərək onların meyitlərini aparasan.

Ona görə də bəlkə heç getməyəsən. Sülh bağlanana qədər qalasan buralarda.

**Özün bilərsən e! Dedim, bir məsləhət də mən verim. Məsləhətli don gen olar.**

## MEDİA-nın birinci könüllülük proqramı uğurla yekunlaşdı



**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin birinci könüllülük proqramı uğurla yekunlaşıb.**

Adalet.az xəbər verir ki, 2021-ci ilin sentyabr-noyabr aylarını əhatə edən proqramın məqsədləri gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların təcrübi biliklərini artırmaq, yaradıcı-innovativ potensialını stimullaşdırmaq olub.

Proqram çərçivəsində könüllülər 30-a yaxın fərdi və peşəkar inkişaf təlimlərində, 10-a yaxın yerli və beynəlxalq tədbirlərdə, müxtəlif sosial aksiyalar və layihələrdə, eyni zamanda İTV və Report media subyektlərində təcrübə proqramlarında iştirak edib.

Birinci könüllülük proqramının yekunlaşması ilə bağlı MEDİA könüllüləri ilə görüşən Agentliyin İcraçı direktoru Əhməd İsmayılov proqramın nəticələrini müzakirə edib və məzun könüllülərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Proqramı uğurla başa vuran könüllülər sertifikatlarla təltif olunub.

## İran-Azərbaycan sərhədinin azad edilən hissəsində 38 mina aşkarlandı

**Azərbaycan Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına uyğun olaraq işğaldan azad edilən ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması işləri davam etdirilir.**

Dövlət Sərhəd Xidmətindən (DSX) Adalet.az-a verilən məlumata görə, bu tədbirlər çərçivəsində dövlət sərhədinin işğaldan azad olunmuş sahəsində şəxsi heyətin və hərbi nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsi üzrə Dövlət Sərhəd Xidmətinin mühəndis-istehkam bölmələri tərəfindən mina və partlamamış döyüş sursatlarının axtarışı, aşkarlanması və zərərsizləşdirilməsi fəaliyyətləri, eləcə də sərhəd mühafizə infrastrukturunun bərpası və yenidən qurulması xüsusi əhəmiyyət kəsb edir. Noyabr ayının ötən dövrü ərzində DSX-nin mühəndis-istehkam bölmələri tərəfindən Azərbaycan - İran dövlət sərhədinin işğaldan azad olunmuş sahəsinin 25 hektar məsafəsi mina və partlamamış hərbi sursatlardan təmizlənmiş, nəticədə 38 ədəd PMN-2 markalı piyada əleyhinə mina aşkar olunaraq partlayış üsulu ilə zərərsizləsdirilmişdir.

Göstərilən istiqamətdə dövlət sərhədi boyunca 1230 m məsafədə mühəndis çəpərlərinin quraşdırılması tamamlanmış, 1300 m məsafədə işlər davam etdirilir.

## SLIŞİŞ PUTİN, NE TOLKO ARMYANİ, NO İ TVOİ GENERALI TEBYA NE UVAJAET





**Şuşada bizim əsgərlərə erməni terrorçusu tərəfindən qumbara atıldı, 3 əsgərimiz yaralandı. Özü də sülhməramlıların gözü qarşısında. Əslində bu qumbara bizim əsgərlərə atılmayıb, Rusiyanın prezidenti Putinin imzasına atılıb, lap elə Putinin özünə atılıb. Özü də Putinin generallarının gözü qarşısında.**

Düz bir ildən artıq vaxt keçir üçtərəfli məlum bəyanatın imzalanmasından. Və həmin bəyanatda sülhməramlıların səlahiyyətləri və vəzifələri açıq-aydın göstərilib. Vəzifələrindən biri də Qarabağdakı erməni silahlı qüvvələrinin silahsızlaşdırılmasıdır. Və bundan başqa qaçqınların öz normal yurd-yuvalarına qayıtmasıdı.

Bu bir ildə bir azərbaycanlı qaçqın sülhməramlıların nəzarəti altında olan öz doğma yurd-yuvalarına gedə bilibmi? Ermənistanın həmin bölgədəki silahlı qüvvələri çıxarılıbmı? Təbii ki, yox.

Sülhməramlıların işi-gücü ermənilərin quşunu götürməkdi. Ev tikirlər,kilsə tikirlər, yol çəkirlər, su çəkirlər, "Şöhrət" meydanı düzəldirlər və təbii ki, ermənilər üçün.

Zeynalabdin Tağıyevə deyirlər ki, ermənilər yaman tikirlər.

Tağıyev:

*- Qoy tiksinlər, bizə qalacaq.*

Sonra da deyirlər ki, yaman yeyib-içirlər.

Tağıyev:

*- O da onlara qalacaq.*

İndi sülhməramlılar tiksinlər, fikir verməyin, əvvəl-axır bizə qalacaq.

Yeyib-içməkləri, erməni qızları ilə əylənməkləri də onlara qalacaq.

Bundan başqa, sülhməramlıların nəzarəti altında olan ərazilərdən bizim postlarımız atəşə tutulur.

Nə isə, uzun yazmayaq. Ümumiyyətlə, bu sülhməramlıların qabaqda gedən ağsaqqal generalından soruşmaq lazımdır ki, siz öz vəzifənizi nə vaxt yerinə yetirəcəksiniz? Əks halda, BMT-nin qətnamələrini özümüz yerinə yetirdiyimiz kimi, sizin də vəzifələrinizi məcburuq özümüz həyata keçirək.

## *Axtarışda olan 80 nəfər saxlanılıb*

**Respublikanın daxili işlər orqanları tərəfindən ötən gün ərzində törədilmiş 43 cinayətin üstü "isti izlər"lə açılıb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə, əvvəlki dövrlərdən bağlı qalmış 15 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 94 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 80 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Respublikanın avtomobil yollarında 2 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 2 nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 22, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 46 nəfər saxlanılıb.



## CƏNAB DE BYAZİ, SƏN HƏZRƏT ABBAS, GETMƏ!



**Əvvəla, millimizin baş məşqçisi De Byazini dünyanın futbol ölkələrindən biri (təbii ki, Braziliya və İspaniyadan sonra) Qətərə uduzmadığımıza görə həm təbrik edirik, həm də təşəkkür edirik. Çalış, getmə! Sən Azərbaycan futboluna çox böyük töhfələr verdin.**

Yox, əgər AFFA səni çıxarmaq istəsə, daha doğrusu, müqaviləni uzatmaq istəməsə Foqts kimi şərlə AFFA-nı. Necə ki Foqts AFFA-nı şərləyə-şərləyə 5 il Azərbaycan futbolunun içinə oturdu.

## Azərbaycanda bu şəxslər 1500 manatadək cərimələnəcək



**İşçinin ezamiyyə xərclərini və müavinətlərini ödəməyən vəzifəli şəxslər cərimələnəcək.**

Adalet.az xəbər verir ki, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirə edilən və parlamentin plenar iclasına tövsiyə edilən İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişiklikdə əksini tapıb. Layihəyə əsasən, işçinin ezamiyyə xərclərinin, əmək qanunvericiliyində nəzərdə tutulmuş müavinət və digər ödənişlərin hesablanmasında və ödənilməsində, riyazi hesablamalar nəticəsində yol verilən nöqsanlar istisna olmaqla, qanun pozuntularına yol verilməsinə görə vəzifəli şəxslər 700 manatdan 1500 manatadək məbləğdə cərimə edilir.

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

## DAĞ İSMAYIL ŞUŞADA HEYDƏR ƏLİYEVƏ NƏ DEMİŞDİ?!



***1982-ci ildə Şuşada Vaqifin məqbərəsinin açılışı zamanı Ulu Öndər Heydər Əliyev yüksək vəzifəli dövlət məmurları, yazıçılar, şairlər və Şuşa camaatı ilə birlikdə piyada Cıdır düzünə qalxırdı. Təkcə şuşalıların deyil, bütün qarabağlıların Dağ İsmayıl kimi tanıdığı İsmayıl Əlişovun evi Vaqifin məqbərəsinə çathaçatda, yolun solunda yerləşirdi. Dünyagörmüş Dağ İsmayıl oturmuşdu qapısının ağzında və birdən Heydər Əliyevi və gələnləri gördü. Tez qalxdı ayağa, özünə bir çəki-düzən verdi, yaxınlaşdı Heydər Əliyevə, Heydər Əliyev də ona yaxınlaşdı. Əl verib görüşdülər. Aralarında maraqlı bir səmimi söhbət alındı.***

Bax: səh.2

## GÜNÜN LƏTİFƏSİ

Cavan tərbiyəçi otağa kompyüter gətirir. Çətinliklə əyilib onu yerə qoyub uşaqlardan soruşur:

**- Uşaqlar, deyin görüm, otaqda neçə kompyüter var?**

**- Bir!**

**- Düzdür, - tərbiyəçi çox çətinliklə ikinci sonra isə üçüncü kompyüteri gətirir:**

**- İndi neçə kompyüter oldu?**



Bu vaxt müdirə otağa gəlib soruşur:

**- Nə edirsən?**

**- Uşaqlara üçə qədər saymaq öyrədirəm!**

**- Biz həmişə bunu alma ilə öyrədirik. Elə bil bunu sən də eləyə bilərdin!**

**- Axı kitabda kompyüter yazılıb.**

**- Kitabın növbəti səhifəsində 10-a qədər saymağı avtobuslarla öyrədiblər. Ümidvaram otağa avtobus gətirməyə hazırlaşmırsan?**

# Prezident yeni Biləcəri lokomotiv deposunun açılışında iştirak etdi



**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) yeni Biləcəri lokomotiv deposunun açılışı olub.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

QSC-nin sədri Cavid Qurbanov Prezident İlham Əliyevə yeni Biləcəri lokomotiv deposunda yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, yeni depoda lokomotivlərin texniki baxışı və təmiri işləri aparılacaq. MDB məkanında ilk dəfə Azərbaycanda yaradılan bu cür deponun istifadəyə verilməsi 4-cü sənaye inqilabına keçidlə bağlı atılan addımlardan biridir. Deponun üzərində günəş panelləri quraşdırılıb ki, alınan enerji depoda istifadə olunur.

Burada zəruri infrastruktur yaradılıb, dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıq quraşdırılıb. Deponun tikintisi "Dəyişən cərəyanla işləyən 50 lokomotiv üçün iki deponun - Biləcəri və Gəncə lokomotiv depolarının tikintisi" layihəsi çərçivəsində həyata keçirilib. Yeni depoların nəzərdə tutulduğu dəyişən cərəyanlı 40 yük lokomotivi və ikili elektrik təchizatı sistemində işləyən 10 sərnişin lokomotivi dünyanın aparıcı şirkətlərinə sifariş edilib. 28-i yük və 10-u sərnişin lokomotivi olmaqla 38 müasir "Alstom" lokomotivi artıq Azərbaycana gətirilib. Ümumilikdə, bu deponun istifadəyə verilməsi enerji resurslarının qənaətinə, istismarın asanlaşmasına, qatarların hərəkət sürətinin artırılmasına və nəticə etibarilə yük və sərnişin daşımalarında səmərəlilik göstəricilərinin yaxşılaşdırılmasına, lokomotivlərin gücünün çoxalmasına imkan yaradacaq. Depoda xarici ölkələrdə təlim keçmiş 150-yə yaxın yüksək ixtisaslı işçi çalışacaq.

Dövlətimizin başçısı yeni deponun açılışını edib.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, digər sahələrdə olduğu kimi nəhəng infrastruktur və nəqliyyat layihələrinin icrası istiqamətində də çox böyük işlər görülüb.

Ən önəmlisi odur ki, bütün bu işlər dünyada davam edən pandemiya və iqtisadi-maliyyə çətinlikləri fonunda həyata keçirilir. İcra olunan layihələr arasında Azərbaycanda dəmir yolu nəqliyyatı infrastrukturunun inkişaf etdirilməsi və təkmilləşdirilməsi, dəmir yollarında hərəkətin idarə edilməsi prosesinin müasir səviyyəyə çatdırılması, dəmir yolu nəqliyyat vasitələri parkının müasirləşdirilməsi və bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlər də böyük önəm daşıyır.

Bu işlər Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovuşduğu coğrafi məkan kimi Azərbaycanın regionda rolunu və yerini daha da möhkəmləndirir, iqtisadi və nəqliyyat-logistika potensialını əhəmiyyətli dərəcədə artırır.

Onu da qeyd edək ki, dəmir yolu infrastrukturunun müasirləşdirilməsi baxımından yeni Biləcəri lokomotiv deposu da mühüm rol oynayacaq.

# BMT İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş qətnaməni qəbul etdi

**18 noyabr 2021-ci il tarixində BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində Assambleyanın Üçüncü Komitəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT üzv dövlətləri tərəfindən qəbul edilib.**

Qətnaməyə 126 BMT üzvü dövləti həm-müəllif qismində qoşulub.

Kifayət qədər müfəssəl məzmunda olan qətnamədə digər məsələlərlə yanaşı, COVID-19 pandemiyasına qarşı mübarizə sahəsində həyata keçirilmiş bir sıra əhəmiyyətli qlobal təşəbbüslər, o cümlədən Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 3-4 dekabr 2020-ci il tarixində keçirilmiş BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası alqışlanır.



İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında COVID-19 əleyhinə peyvəndlərin bölgüsündə mövcud olan bərabərsizlikdən ciddi narahatlıq ifadə edilir və bunun Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına əngəl törədən başlıca faktorlardan biri olduğu vurğulanır.

COVID-19-a qarşı mübarizədə çoxtərəfliliyin, eləcə də beynəlxalq həmrəylik və əməkdaşlığın əhəmiyyətinə xüsusi vurğu edilir.

Bu xüsusda, bütün dövlətlər, özəl şirkətlər və digər aktorlar COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi istiqamətində konkret tədbirlər görməyə çağırılır.

Bütün dövlətlər COVID-19 əleyhinə peyvəndlərin ixracı ilə bağlı mövcud olan əsassız maneələri aradan qaldırmağa və peyvəndlərin hazırlanması və səmərəli paylanması sahəsində əməkdaşlığa dəvət olunur.

BMT Baş Katibinə Baş Assambleyanın növbəti sessiyasına hazırkı qətnamənin icrası ilə bağlı hesabat təqdim etməsi tapşırılır.

Sözügedən qətnamənin qəbulu Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizədə qlobal səylərin mərkəzində olmağa davam etdiyinin daha bir göstəricisi olmuşdur.

**Xarici İşlər Nazirliyi fürsətdən istifadə edərək qətnamə layihəsinə dəstək verən və ona həm-müəlliflik edən bütün dövlətlərə öz minnətdarlığını bildirir.**

# İLHAM ƏLİYEV: "AĞDAM ÖZ ŞÖHRƏTİNİ BƏRPA EDƏCƏK!"

**Ağdam rayonu 1930-cu ildə yaradılıb. Sahəsi 1094 kvadrat km olan rayonun relyefi əsasən düzənlik, qismən dağlıqdır.Ağdam rayonu Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində - Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir.**

"Ağdam" sözü qədim türk dilində "kiçik qala" deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. XVIII əsrin birinci yarısında Qarabağlı Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirmək barədə əmr verib. Həmin imarət uzun müddət ətraf kəndlərin sakinləri üçün bir növ oriyentirə çevrilib. Bu mənada "Ağdam" - günəş şüaları ilə nurlanmış işıqlı, ağ ev deməkdir. Rayonun ərazisində XX əsrin 50-ci illərindən başlayaraq aparılan arxeoloji tədqiqat işləri zamanı məlum olmuşdur ki, Ağdamın ərazisi qədim insanların yaşayış məskənlərindən biridir. Arxeoloji tədqiqatlar nəticəsində müəyyən oldu ki, ilk qədim insanlar rayon ərazisində altı-səkkiz min il bundan əvvəl, yəni, Eneolit dövründə (e.ə. IV-VI minilliyi əhatə edir, "misdaş" dövrü adlanır) yaşamış, qədim əkinçilik və maldarlıq mədəniyyətinə bələd olmuşlar. Burdan tapılan taxıl və üzüm dənələri bir daha sübut etmişdir ki, yerli əhali oturaq həyat keçirmiş və yüksək əkinçilik mədəniyyətinə malik olmuşdur. Arxeoloqlar Üzərriktəpədə apardıqları tədqiqatlar nəticəsində tapılan maddi-mədəniyyət qalıqlarına əsaslanaraq qeyd edirlər ki, bura Qafqazda ilk şəhər tipli yaşayış məskəni və Zaqafqaziyada ən zəngin abidələri olan yerlərdən biri olmuşdur.



1988-ci ildən Ermənistanın Azərbaycan Respublikasına başlayan ərazi iddiaları xalqımız tərəfindən sərt müqavimətlə rastlaşdı. Erməni separatçıları qərbdəki himəyadarlarının dəstəyi ilə başladıqları münaqişə sonradan qanlı müharibəyə çevrildi. 5 ilə yaxın davam edən müharibədə erməni terrorçuları rus hərbi birləşmələrinin köməyi ilə torpaqlarımızın işğalına başladı. Ağdam uğrunda son 42 gün davam edən döyüş 1993-cü il 23 iyul tarixində Ağdam ərazisinin 73 faizinin işğalı ilə bitdi. Ərazisi 1094 kvadrat kilometr olan Ağdamın 882 kvadrat kilometri, rayon mərkəzi ilə birgə 90 kəndi işğal olunmuş, işğal nəticəsində 128 min insan məcburi köçkün həyatını yaşamağa məcbur olub. İşğal nəticəsində Ağdam rayonunun 38 kolxozu, 12 sənaye obyekti, 74 məktəbi, 271 mədəniyyət evi, bütün dünyada yeganə olan Çörək muzeyi, 67 idarə və 99 klubu düşmən əlinə keçmişdir. Ağdam uğrunda gedən döyüşlər zamanı 6 mindən artıq insan şəhid olmuş, minlərlə insan yaralanmış, əhali öz doğma ev-eşiyindən qovularaq məcburi köçkün kimi Azərbaycanın 59 rayonunun 875 yaşayış məntəqəsində məskunlaşmışdır.

Ağdamın işğalı ilə bağlı dünya ictimaiyyəti yekdil mövqe ifadə etdi. ATƏT-in Minsk qrupunun 9 ölkəsi adından bu "hücum qətiyyətlə pislənmiş", "işğal olunmuş ərazilərdən qoşunların çıxarılmasına çağırış etmişdir". 1993-cü il 29 iyul tarixində BMT-nin Təhlükəsizlik Şurası 853 saylı qətnaməni qəbul edib. Orada da "işğalçı qüvvələrin Ağdam rayonu və digər işğal edilmiş Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması" tələb edildi. Lakin Ermənistan tərəfi beynəlxalq qanunlara tabe olmaqdan yayındı. Beynəlxalq təşkilatların qəbul etdikləri qətnamələr kaxız üzərində qaldı. ATƏT-in Minsk qrupu isə 28 il Ermənistanın nazı ilə oynayaraq cəhdlə ststus- kvonun saxlanılmasına çalışdı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə ən yüksək tribunalardan beynəlxalq təşkilatlardan nüfuzlu dövlətlərin başçılarına məsələnin

sülh yolu ilə həll edilməsi üçün Ermənistana təsir göstərmələrini təklif etdi və əks halda torpaqlarımızın hərbi yolla azad ediləcəyi barədə xəbərdarlıqlar etdi.

Lakin nüfuzlu Qərb dövlətləri yenə də erməni işğalçılarının mövqelərini müdafiə edərək hər vəhclə məsələnin sülh yolu ilə həllini ləngitməyə çalışdı.

Artıq səbr kasası dolmuşdu. Ermənistan nəinki işğal etdikləri ərazilərdən çəkilməyi, həttda yeni ərazilər barədə sərsəm bəyənatlar verməklə, Qarabağda və digər sərhəd bölgələrində tez-tez təxribatlar törətməkdə davam edirdilər. Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq, Ağdam rayonunda coğrafi adların dəyişdirilməsi, oradakı mülkiyyətin talan edilməsi və ərazilərin yandırılması kimi qeyri-qanuni əməllər törədib.Ümumiyyətlə, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş rayonların azərbaycanlı sakinlərinə qarşı etnik təmizləmənin törədilməsi Ermənistanın əsl niyyətinin hərbi təcavüz və işğal yolu ərazi əldə edilməsi olduğunu qabarıq şəkildə nümayiş etdirirdilər.

Nəhayət erməni qudurlarının növbəti təxribatına cavab olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin əmri ilə Şalı Ordumuz 44 gün ərzində Ermənistan ordusunu məhv etdi və işğal olunmuş torpaqlarımızı azad etməyə nail oldu. Azərbaycan xalqı özü beynəlxalq qanunlarının aliliyini və tarixi ədaləti bərpa et-



di. Vətən müharibəsində əldə etdiyimiz qələbə nəticəsində imzalanmış üçtərəfli bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonunun işğal olunmuş ərazisi Azərbaycana təhvil verildi və bununla da əsaslı şəkildə insan tələfatının qarşısı alındı. Bu, eyni zamanda, onun göstəricisidir ki, Azərbaycan müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazandı. 2020-ci il noyabrın 26-da "Ağdamın azad olunmasına görə" medalı təsis edildi. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamları ilə Ağdamrayonunun işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 5770 hərbi qulluqçusu "Ağdamın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur. İşğaldan azad olunmuş Ağdam erməni vandalizmin şahididir. Azad edilmiş torpaqlarda hər şey dağıdılıb.Ermənistan qəsdən mədəni və dini abidələrimzi vandalizmə məruz qoymuş, təhqir və qarət etmişdir. İşğaldan azad edilmiş Ağdam rayonunu Prezident Administrasiyasının dəvəti ilə ziyarət edən xarici diplomatlar və jurnalistlər Buranı Qafqazın Xirosiması adlandırıblar. İşğaldan azad edilən Ağdam şəhərini ziyarət edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev erməni terrorçuların törətdiyi vəhşiliklərin şahidi olmuş və elə orada da Ağdamın ən müasir tələblərə cavab verən layihə ilə yenidən qurulacağını, əvvəlki şöhrətinin bu rayona qaytarılacağını bəyan etmişdir: "Ağdam və işğaldan azad olunmuş bütün digər şəhərlər hazırlanacaq baş plan əsasında bərpa olunacaq. Ağdam şəhərinin Baş Planı əsasında şəhər planlı şəkildə bərpa olunacaqdır". 2021-ci 28 may tarixində həmin Baş Plan Azərbaycan ictimaiyyətinə təqdim olunmuşdur.

Zəfər Qələbəsindən ötən bir il ərzində Müzəffər Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva elə ilk günlərdə, 2020 ci -ilin 23 noyabrında azad olunmuş Ağdam şəhərinə gəldilər. Prezident İlham Əliyev Ağdam şəhərində Azərbaycan bayrağını qaldırdı. Prezident İlham Əliyev fikri:

"Bu gün tarixi bir gündür. Biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kim də bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır."

2021-ci mayın 28-də Ağdama səfər çərçivəsində dövlət başçısı Bərdə-Ağdam avtomobil yolunun, 125 hektarlıq Ağdam şəhər meşə-parkında ağacların əkilməsi, Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının, Ağdam Sənaye Parkının, Zəfər muzeyinin və açıq hava altında İşğal muzeyinin, 140 illik tarixi olan Ağdam şəhər 1 saylı məktəbin yen ibinasının təməlqoyma və Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimlərində iştirak edib.

Artıq quruculuq - pərpa işlərinə start verilib və işlər sürətlə davam etdirilir. İnanırıq ki, tezliklə Qarabağən digər işğaldan azad edilmiş ərazilərində olduği kimi, yeni qurulacaq yüz minlik Ağdam şəhərində də həyat öz axarına qayıdacaq. "Ağdam öz şöhrətini bərpa edəcək".

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# Ərdoğan prezident seçilməsə - Rusiya siyasətini dəyişəcəkmi?

**2023-cü ildə Türkiyədə keçiriləcək prezident seçkilərində indiki prezident Rəcəb Tayyip Ərdoğanın səhhətindəki probleçlərlə əlaqədar olaraq iştirak etməyəcəyi barədə qardaş ölkənin mıtbuatında çeşid-çeşid məlumatlar dolaşır. Amma hələ ki, siyasi varisini elan etməyən Ərdoğanın seçkidə iştirak etməyəcəyini söyləmək də tezdir. Amma əgər hadisələrin sonunda əgər başqası Türkiyə prezidenti seçilərsə Ərdoğan kimi Qarabağla bağlı qətiyyətli mövqeyə sahib olacaqmı? Bu şəxs Əliyev-Ərdoğan arasındakı isti münasibətlərin davamçısına çevrilcəkmi? Əgər Ərdoğan prezident seçilməzsə, 2024-cü il Rusiyada keçirilən prezident seçkilərinə qədər Putin Azərbaycanla bağlı siyasi-ritorikasını dəyişərmi? Çünki Rusiya prezidenti Putin Azərbaycan-Ermənistan sərhədindəki atışmalardan danışarkən bildirdi ki, iki ölkə arasında mübahisəli məsələlərin tənzimlənməsi üzrə səylərin davamı üçün Rusiya diplomatiyasının rolu artır. Onun sözlərindən belə başa düşmək olar ki, Rusiya özünün sülhməramlı qüvvələrini 4 il sonra Qarabağdan çıxarmayacaq, bunu etməmək üçün Azərbaycan və Ermənistan arasında silahlı insidentər yaradacaq və nəticədə sülhməramlılara olan "ehtiyacı" artırmış olacaq. Əksinə, rus hərbçiləri təkcə Qarabağdakı təmas xəttinə deyil, Ermənistanla Azərbaycan sərhəddinə də nəzarət edəcək.**

Məsələyə münasibət bildirən **AMİP lideri Etibar Məmmədov** Adalet.az-a açıqlamasında bildirdi ki, Türkiyədə kimin hakimiyyətə gəlməsindən asılı olmayaraq Azərbaycanla bağlı dövlət siyasəti dəyişməyəcək: "Hələ o vaxta 2 il qalıb, ona görə də, indidən nəyisə proqnozlaşdırsaq səhv etmiş olarıq. Doğrudur, Türkiyə siyasət kluarlarında Ərdoğanın xəstə olması səbəbindən növbəti müddət üçün nəzərdə tutulan prezident seçkilərində iştirak etməyəcəyini söyləyənlər var, amma özü hələ bu barədə heç nə deməyib. Mən cənab Ərdoğanın bu dəfə seçkilərdə iştirak etməyəcəyinə inanmıram. Belə olsaydı, o siyasi varisini artıq elan edərdi. Həmçinin, onun xəstəliyi barədə yayılan xəbərlər də məncə blefdir, Türkiyənin inkişafını istəməyən xarici düşmənlərin buraxdığı şayiədir. Ərdoğan hər gün bir tədbirdə iştirak edir və gümrah görünür. Hətta əksini düşünsək belə, yenə də narahat olmağa dəyməz. Bəli, Türkiyə-Azərbaycan arasındakı qardaşlıq münasibətləri cənab Ərdoğanın hakimiyyəti dövründə çox möhkəmlənib. İnanmırmıram ki, hər hansı başqa siyasi təşkilatın Türkiyədə hakimiyyətə yiyələnməsindən sonra Azərbaycanla bağlı siyasətində dəyişiklik olsun. Çünki Türkiyə-Azərbaycan arasında hansısa geosiyasi müttəfiqlik yox, bir millət iki dövlət prinsipinə söykənən qardaşlıq münasibəti var. Heç bir hökümətin cürəti çatmaz ki, Azərbaycan əleyhinə hansısa qərarlar qəbul etsin. Türk xalqı buna imkan verməz. Düşünürəm ki, hətta bundan narahat olmağa dəyməz".



Daha sonra Putinin dünənki çıxışına toxunan E.Məmmədov bildirdi ki, Rusiyanın onsuz da Ermənistanda ordusu var.

"Bu ordunu Ermənistanın Azərbaycanla sərhədində yerləşdirməsi mümkündür. Buna da Paşinyanın imkan verəcəyinə inanmıram. Çünki onu hakimiyyət gətirən ABŞ və Fransanın da təzyiqi artırıb, çünki onların qarşısında Rusiyanın Ermənistandakı təsirinin azalması öhdəliyi var. Bu məsələ Ermənistanı narahat edəcək məsələdir, bizə aidiyyatı yoxdur",- deyə AMİP lideri fikrini tamamladı.

**Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədov** isə əksini düşünür. "Adalet.az"-a açıqlamasında partiya sədri qeyd etdi ki, Türkiyədə baş tutacaq növbəti prezindet seçkisində "Cumhur" ittifaqının namizədinin kim olması Azərbaycan üçün də həyati önəm daşıyan əhəmiyyətli məsələdir. "Təbii ki, Türkiyədə son zamanlar iqtisadi vəziyyətin pisləşməsi Ərdoğanın nüfuzuna ciddi zərbə vurub. Üstəlik səhhətində də müəyyən problemlərin olması barədə çoxdandır Türkiyə mətbuatında məlumatlar dolaşır. Bu da gələcək seçkilərdə "Cumhur" İttifaqının şansını azaldır. Ərdoğanın rəqibi "Millət" İtifaqı kimin namizədliyini irəli sürə bilər? Millət İttifaqının qalib gəlməsi Azərbaycan üçün problem yarada bilərmi? Hesab edirəm ki, kimin namizədliyindən asılı olmayaraq, Azərbaycana dost namizəd qalib gələcək. Türkiyənin Azərbaycandakı keçmiş səfiri Cevikgözun bəyanatını əsas gətirib Cümhuriyyət Xalq Partiyasının Azərbaycana pis münasiubət bəslədiyini güman etmək, məncə yanlışdır. Çevikgöz CHP-nin liderlərindən deyil, sıravi millət vəkilidir. Ona görə, hesab edirəm ki, Azərbaycana dost namizəd qalib gələcək. başqa halda onun qalib gəlmək şansı yoxdur.Həm Kılıncdaroğlu, həm Meral Akşener, həm Babacan, həm də Davudoğlu Azərbaycana münasibətdə Ərdoğandan fərqli mövqe sərgiləməyəcək. O artıq başqa məsələdir ki. onun qədər qətiyyətli olarlarmı? Burda qeyd edim ki, Ərdoğan çox qətiyyətli, cəsarətli siyasətçidir. Və onun bu xarakterinin bizə böyük köməyi dəydi. Hesab edirəm ki, Türkiyədəki prezident seçkiləri ola bilsin, vaxtından əvvəl keçirilsin. Bu seçkinin nəticəsi Azərbaycan və Rusiya münasibətlərinə elə bir təsir etməyəcək. Hadisələrin gedişatı onu göstərir ki, Türkiyə-Rusiya münasibətlərində yaxınlaşma var. Əksinə, Rusiya ilə Türkiyə arasında indiyədək baş verən siyasi böhranlar məhz elə Ərfoğanın kəskin xarakteri ilə bağlı olub. Bu gün Ərdoğan tərəfindən Rusiya ilə isti münasibətləri müşahidə ediriksə, bu da gələcəkdə bizə sərf edən hadisələrin olması ehtimalını artırır",- deyə A.Səmədov söylədi.

**İltifat HACIXANOĞLU**

*AQİL ABBAS*

# DAĞ İSMAYIL ŞUŞADA HEYDƏR ƏLİYEVƏ NƏ DEMİŞDİ?!

***1982-ci ildə Şuşada Vaqifin məqbərəsinin açılışı zamanı Ulu Öndər Heydər Əliyev yüksək vəzifəli dövlət məmurları, yazıçılar, şairlər və Şuşa camaatı ilə birlikdə piyada Cıdır düzünə qalxırdı. Təkcə şuşalıların deyil, bütün qarabağlıların Dağ İsmayıl kimi tanıdığı İsmayıl Əlişovun evi Vaqifin məqbərəsinə çathaçatda, yolun solunda yerləşirdi. Dünyagörmüş Dağ İsmayıl oturmuşdu qapısının ağzında və birdən Heydər Əliyevi və gələnləri gördü. Tez qalxdı ayağa, özünə bir çəki-düzən verdi, yaxınlaşdı Heydər Əliyevə, Heydər Əliyev də ona yaxınlaşdı. Əl verib görüşdülər. Aralarında maraqlı bir səmimi söhbət alındı.***

***Dağ İsmayıl "xoş gəlmisiniz"dən sonra birdən qayıtdı:***

***- Yoldaş Əliyev, siz bilirmisiniz ki, sizin babanız Pənah xanın vəziri olub? Sonra Xan ona Zəngəzurda kənd bağışlayıb.***

***Ulu Öndər gülümsədi və Dağ İsmayılı basdı bağrına, dedi:***

***- Bilirəm!***

***Daha sonra Dağ İsmayıl:***

***- Heydər müəllim, başınızın dəstəsi ilə qonağımsınız.***

***Ulu Öndər:***

***- Nə bişirmisiniz?***

***- Arvad yaxşı kələm dolması bişirib.***

***Onu da qeyd edək ki, Dağ İsmayılla Ulu Öndərin əqrəbalıqları olub. Və Heydər Əliyev Dövlət Təhlükəsizlik Komitəsində işləyən zaman Şuşaya gedəndə Dağ İsmayılın bir neçə dəfə qonağı olub. Həmişə də kələm dolması bişiriblərmiş.***

***Heydər Əliyev gülüb zarafatla demişdi:***

***- Bu kələm dolması qalalıları öldürəcək.***

***Bu hadisənin çox şahidləri olub, çoxu da sağdı. Hələ o vaxt televiziya da vermişdi.***

***İndi oxuyuram ki, tarixçi-alim Cəbi Bəhramov mətbuata belə bir açıqlama verib ki, Heydər Əliyevin babaları Pənah xanın sərkərdələri olublar və Şuşa qalasının tikintisində də iştirak ediblər. Və bu indiyə qədər heç yerdə səslənməyib.***

***Hörmətli Cəbi müəllim, bu fikri ilk dəfə yuxarıda qeyd elədiyim kimi, Dağ İsmayıl 39 il bundan əvvəl açıqlamışdı. Və onu da qeyd edim ki, niyə məhz Zəngəzurda kənd bağışlayıb Heydər Əliyevin babalarına? Çünki o zaman Zəngəzur Qarabağ xanlığının ərazisinə daxil idi. Bunu məndən yaxşı bilirsiniz. Və bir məsələni də açıqlayım, mətbuatda getməyib.***

***Möhtərəm Prezident İlham Əliyev may ayında Ağdamda təməlqoyma mərasimində və Ağdamın Baş planını təsdiq etdiyi tədbirdə mən də vardım. Və Möhtərəm Prezidentlə çox səmimi söhbətimiz oldu. Ümumiyyətlə, görürsünüz tədbirlərdə Möhtərəm Prezident həddindən artıq səmimi olur, zarafatlaşır və adamlara şərait yaradır ki, ürək sözlərini deyə bilsinlər. Və həmin tədbirdə elə bir səmimi şərait yarandı ki, mən hətta prezidentin qoluna girdim və 1982-ci ildə Dağ İsmayılın Ulu Öndərə dediyi sözləri, yəni babasının Pənah xanın vəziri olduğunu və Zəngəzura Şuşadan köçdüklərini prezidentə çatdırdım.***

***Möhtərəm Prezidentin üzünə bir təbəssüm qondu və əlini qaldırıb hamıya dedi:***

***- Həsən əmim bunu həmişə deyirdi!***

***Və sonra yenə təkrar elədi:***

***- Həsən əmim bunu həmişə deyirdi!***

***Yəni hörmətli Cəbi müəllim, bu məsələ təzə söhbət deyil. Və mən həmin görüşdə Möhtərəm Prezidentə onu da dedim ki, tarixçilər araşdırsalar sizin nəsil Şah İsmayılın nəslindəndi və Pənah xanla Qarabağa Ərdəbildən gəliblər. Və artıq bu məsələni araşdırmaq təbii ki, siz tarixçilərin işidir.***

***P.S. Axtarıram Dağ İsmayılla Ulu Öndərin bir-birlərini bağırlarına basdığı şəkili də tapıb bu gün olmasa da saytımızın sabahkı sayında dərc edəcəm. Daha doğrusu, o şəkil məndə yoxdu ey, o şəkil Şuşanın canlı ensiklopediyası Vasif Quliyevdədir. O söz verib ki, tapıb verəcək.***

***Dövlət Televiziyası arxivi axtarsa bəlkə Ulu Öndərlə Dağ İsmayılın həmin səmimi söhbətini də tapa bilər. Əgər Heydər Əliyev Siyasi Bürodan istefa verəndən sonra silməyiblərsə.***

# Xeyrəddin Qoca: "Sərhəddəki təxribatların arxasında Rusiya durub"



**Noyabrın 16-da dövlət sərhədində Ermənistanın təxribatları nəticəsində baş verən, Azərbaycan Ordusunun 7 şəhid verməsilə nəticələn döyüş əməliyyatları bir daha göstərdi ki, Ermənistan hər zaman təxribatlara əl atacaq və Rusiya sülhməramlıları da buna göz yumacaqlar.**

Əgər bu döyüşlər Ermənistanla Azərbaycanın sərhədində, Rusiya sülhməramlılarının nəzarət etmədyi ərazidə baş veribsə, general Rüstəm Muradov Bakıya hansı üzlə gəlmişdi? Onun əliboş geri qayıtması da, bir daha sübut etdi ki, Rusiyanın super güc olması Azərbaycanın qətiyyətli addmlar atmaqdan çəkindirmir, lazım gələndə sözünü deyir. Bəlkə də buna görədir ki, rus və erməni mediası neçə gündən bəri bar-bar bağırır ki, Şoyqunun zəngindən sonra Azərbaycan atəşi dayandırıb. Belə çıxır ki, Rusiyanın ürəyi istəyəndə Ermənistan təxribata əl atacaq, sonra da guya Rusiyanın tələbi ilə atəşkəs olacaq? Yəni Rusiya əvvəlcə aranı qarışdırır, sonra da sakitləşdirir. Bununla da Rusiya dünyaya mesaj verir ki, Cənubi Qafqazda əsas söz sahibidir.

Məsələyə münasibət bildirən Azərbaycanın İstanbuldakı keçmiş baş konsulu Xeyrəddin Qoca "Adalet.az"-a aşağıdakıları söylədi: "Təbii ki, aranı qarışdıran Rusiyadır. Əvvəlcə təxribatı yaradır, sonra da giya aranı sakitləşdirir. Paşinyan da baxmayaraq ki, Qərbin köməyi il hakimiyyətə gəlib, Rusiyanın diqtəsilə onun təxrtibatına uyur. Ermənistan rəhbərliyi, yəqin ki, bir il əvvəl Azərbacaynın atəşkəsə razılaşması üçün yalvardıqlarını unudublar. Bu gün özlərini elə göstərirlər ki, Azərbaycana qarşı vuruşmaqdan qorxmurlar. Ermənilərin ordusunu biz 44 günlük Vətən Müharibəsində məhv etmişik. Ona görə də, onlar təbii ki, bundan acıqlıdırlar".

X.Qoca onu da vurğuladı ki, düşmənlərimiz tezliklə Qarabağın Azərbaycan torpağı olduğunu özləri təsdiq edəcəklər. Azərbaycan dövləti onlara bunu qəbul etdirəcək. "Əgər ermənilər Qarabağda əbədi qalmaq istəsəydilər, bu 30 ildə oranı qurub-yaradardılar. Bircə dənə də olsa, daşı- daş üstə qoymayıblar. Onlar həmin torpaqları Azərbaycan igidlərinin geri qaytaracağını bildikləri üçün gül kimi şəhərlərimizi dağıdıb, viran qoyublar. Ona görə də, istər Rusiya, istərsə də Ermənistan rəhbərliyi özlərini artistliyə vurub. Bu təxribatların arxasında yenə deyirəm, Rusiya durub, amma gec-tez yanıldığınl başa düşəcək. Rusiya Azərbaycanı Gürcüstanla, Moldova ilə, Ukrayna ilə bir tutmasın. Azərbaycanın arxasında dünyanın super gücləri sırasına daxil olan Türkiyə kimi qardaş ölkə dayanıb. Özlərinə əziyyət verib, açıb "Şuşa" bəyannaməsini oxusunlar, o zaman həqiqəti anlayacaqlar."

**İLTİFAT**

# Ayımızı, ilimizi, tariximizi bəzəyən Zəfər bayramı



*Xəqani Tağıyev,*
*Sumqayıt Kommersiya Məhkəməsinin sədri,*
*Məhkəmə-Hüquq Şurasının üzvü*

**İlin hər fəsli, hər ayı gözəldir. Amma elə aylar var ki, sevimli və əlamətdar bayramlara təsadüf etdiyi üçün bizə daha əzizdir. Məsələn, mart ayı kimi. Ötən ilə qədər ədiyyə işçiləri üçün noyabr da sevinclə gözlənilən aylardan biri idi. Noyabrda Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü, Konstitusiya Günü və Milli Dirçəliş Günü ilə yanaşı Ədliyyə işçilərinin peşə bayramını da qeyd edirdik. Artıq bu ildən Noyabr bayramların bolluğu və əhəmiyyəti baxımdan təqvimdə və həyatımızda xüsusi bir yer tutmağa başladı. Demək olar ki, 30 il düşmən tapdağı altında olan torpaqlarımız ötən il aparılan Vətən müharibəsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz tərəfindən azad edildi və məhz noyabr ayında qazandığımız möhtəşəm Qələbə ilə Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Bu münasibətlə ölkə başçısının qərarı ilə 8 Noyabr Zəfər Günü elan edilərək, bütün azərbaycanlılar üçün ayımızı, ilimizi, tariximizi bəzəyən müqəddəs bir bayrama çevrildi. Bax, elə buna görə ədliyyə işçiləri bu xoş təsadüfdən qürur hissi duyaraq, artıq öz peşə bayramlarını daha böyük fərəh və iftixarla qeyd edirlər.**

Dünənə qədər biz peşə bayramımızla bağlı çıxışlarda daha çox ədliyyəmizin tarixinə nəzər salır, keçdiyimiz yolu, rastlaşdığımız çətinlikləri, qazandığımız uğurları xatırlayır, müasir dövrdə aparılan islahatlardan, görülən işlərdən söhbət açır, bir növ nədən başlayıb, nələrə nail olduğumuz barədə özümüzə və cəmiyyətə hesabat verirdik. Bəli, daim inkişaf etmək, təkmilləşmək, müasirləşmək, daha inamla irəli addımlamaq üçün keçmişimizi unutmamalıyıq. İndiki və gələcək nəsillər bilməlidir ki, 1918-ci ildə şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılaraq Sovetlər dövründə keşməkeşli bir yol keçmiş Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilərək, ədliyyə işinin təkmilləşdirilməsi, onun gələcək inkişafı üçün əlverişli şərait yaradılması məhz 1969-cu ildə ümummilli liderimiz Heydər Əliyevin respublikamıza rəhbərliyə gəldiyi dövrə təsadüf edir. Xüsusilə, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ulu öndərimiz Heydər Əliyev tərəfindən Ədliyyə Nazirliyinin inkişafı, hüquqi dövlətdə onun layiq olduğu yeri tutması üçün mühüm addımlar atılmış, funksiyaları genişlənmişdir. Eyni zamanda, ədalət mühakiməsi yenidən qurularaq, üçpilləli məhkəmə sistemi yaradılmış, mütərəqqi qanunlar qəbul edilmiş, ölkəmizdə ilk dəfə olaraq hakimlərin seçkisi test və şifahi söhbət yolu ilə keçirilmişdir. Hakim korpusunun tərkibi əsasən təzələnmişdir. Məhkəmə-hüquq islahatları ardıcıl davam etdirilərək, hakimlərin intizam məsuliyyəti gücləndirilmiş, həmçinin onların sosial problemlərinin həlli, iş şəraitinin yaxşılaşdırılması, məhkəmələrin maddi-texniki bazasının müasir tələblərə uyğun möhkəmləndirilməsi üzrə mühüm addımlar atılmışdır. Ulu öndər Heydər Əliyevin dövlət quruculuğu xəttini uğurla davam və inkişaf etdirən hörmətli Prezidentimiz cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Ədliyyə Nazirliyi və bütövlükdə ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, bu mühüm sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə sisteminin müasirləşdirilməsi üzrə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.

Bütün bunlar müstəqil Azərbaycanın ədliyyə və məhkəmə sisteminin təşəkkülü və inkişafı üzrə görülən çoxşaxəli və genişmiqyaslı işlərin qısa və ümumiləşmiş ifadəsidir. Bu sahədəki ən son yeniliklərə bir qədər sonra toxunacağıq. Amma bu gün hamımızın ürəyində, beynində və dilində olan əsas mövzu ilk dəfə Zəfər Bayramının, dövlətimizin erməni faşizmi üzərində möhtəşəm Qələbəsinin qeyd edilməsidir.

Düz bir il əvvəl Azərbaycan xalqı öz müdrik lideri, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi və rəşadətli Ordumuzun, cəsur əsgər və zabitlərimizin misilsiz qəhrəmanlıqları sayəsində elə bir tarixi Qələbə qazanıb ki, bir sıra xalqlar və dövlətlər onun arzusunda və sorağındadırlar.

***Əslində dünya xəritəsinə nəzər salsaq, görərik ki, özünün ayrıca zəfər bayramı olan dövlətlərin sayı elə də çox deyil. Heç uzağa getməyək, postsovet məkanını götürək. 9 may - faşist Almaniyası üzərində Qələbə günü hazırda daha çox Rusiya Federasiyasının dövlət bayramı kimi tanınsa da, keçmiş sovet respublikalarının bir çoxunda, o cümlədən Azərbaycanda da həmin gün bayram kimi qeyd olunur. Səbəbi də aydındır.***

Birinci Qarabağ müharibəsindən sonra ötən ilə qədər bədnam qonşularımız mayın 8-ni, yəni Şuşanı işğal etdikləri günü qələbə bayramı kimi qeyd edirdilər.

Ötən il Azərbaycan ordusu Qarabağı və digər torpaqlarımızı azad etdikdən sonra ermənilərin qondarma qələbə bayramı da artıq mövcud olmayan Dağlıq Qarabağın statusu kimi, Ali Baş Komandanımızın təbirincə desək, tarixin zibilliyinə atıldı.

***Son yüzilliklər ərzində biz torpaqlarımızı itirə-itirə gəlirdik və bu müddət ərzində ilk dəfədir ki, onların bir hissəsini qaytardıq. Özü də tək torpağımızı yox, kimliyimizi, mənliyimizi, şərəfimizi, haqqımızı, gücümüzü və inamımızı qaytardıq. Bu Qələbənin əhəmiyyəti bir də ondadır ki, xalqımızın tarixində, şüurunda və mülli özünüdərk prosesində dönüş nöqtəsi oldu.***

Bu Zəfər müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyev siyasətinin qələbəsidir. Bu Zəfəri qazanmaq üçün biz Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə erməni faşizminə birdəfəlik qalib gəlmək üçün hamılıqla ölkəmizin daxilində və xaricində bütün sahələrdə lazımi işlər görülüb. Bütün bunların və son nəticədə, Ali Baş Komandanımız İlham Əliyevin müdrik idarəçiliyi, sarsılmaz iradəsi və cəsarəti, şəxsi şücaəti, torpaqlarımızın hər qarışı uğrunda hər an qanından, canından keçməyə hazır olan və döyüş meydanlarında bunu sübut edən zabit və əsgərlərimizin misilsiz qəhrəmanlıqları sayəsində son 30 ildə dövlətimizin və xalqımızın qarşısında duran ən əsas məsələni həll etmişik.

***Biz haqlı olaraq fəxr edirik ki, bu tarixi Qələbənin qazanılması işinə bütün Azərbaycan vətəndaşları ilə birlikdə ədliyyə işçiləri də öz töhfələrini vermişlər.***

44 gün davam edən Vətən müharibəsi ərzində bütün xalqımız möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək, yenilməz həmrəylik nümayiş etdirdi, rəşadətli Ordumuzun qələbəsi üçün hər kəs əlindən gələni əsirgəmədi. Ədliyyə işçiləri və hakimlər də vətəndaş fəallığı və orduya dəstəklərini nümayiş etdirdilər. Ədliyyə işçilərindən könüllüi olaraq cəbhəyə yollanan, torpaqlarımızın yağı düşməndən azad edilməsi uğrunda mərdliklə vuruşan, qəhrəmancasına həlak olan, yaralananlar da var. Ədliyyə işçiləri və hakimlər öz əmək haqlarından Silahlı Qüvvələrə Yardım Fonduna, Yaşat Fonduna və Qarabağ Dirçəliş Fonduna dəfələrlə vəsait köçürmüşlər.

İşğaldan azad edilmiş ərazilərin bərpası, geniş quruculuq işlərinin aparılması xeyli vaxt, böyük qüvvə və vəsait tələb edir. Çünki Ermənistan 30 il işğal altında saxladığı torpaqlarımızı tamamilə viran qoymuş, tarixi, mədəni, dini abidələrimizi məhv etmiş, təbii sərvətlərimizi talan etmişdir. Bununla bağlı ədliyyə naziri cənab Fikrət Məmmədov tərəfindən düşmənin işğalçılıq faktları və müharibə cinayətləri ilə bağlı xarici ölkələrin ədliyyə nazirliklərinə və nüfuzlu beynəlxalq təşkilatlara 400-ə yaxın müraciətlər ünvanlanmış, Ermənistanın hərbi cinayətləri bu ilin mart ayında Yaponiyada BMT-yə üzv dövlətlərin və nüfuzlu beynəlxalq təşkilatların yüksək rəsmilərinin iştirakı ilə keçirilmiş BMT-nin Cinayətkarlığın qarşısının alınması və cinayət ədliyyəsi üzrə 14-cü Konqresində və digər beynəlxalq tədbirlərdə ifşa edilmişdir.

Hazırda işğal dövründə ermənilər tərəfindən dağıdılmış torpaqlarımızın bərpa olunması, bir milyondan çox keçmiş məcburi köçkünlərimizin öz dədə-baba yurdlarına qayıtması üçün həmin ərazilərin yenidən həyata qaytarılması ilə bağlı genişmiqyaslı quruculuq işləri aparılır. Həmin ərazilərdə ədliyyə və məhkəmə fəaliyyətinin təşkili məsələləri də tədricən həll olunur. Bu sahədə fəaliyyətin təşkili və ədliyyə orqanlarının işinin əlaqələndirilməsi məqsədilə Qarabağ regional ədliyyə idarəsi yaradılmışdır.

***İşğaldan azad olunmuş ərazilərdə görülən bərpa və quruculuq işləri ilə yanaşı ölkəmizdə bütün sahələrdə, o cümlədən ədliyyə və məhkəmə sistemində də islahatlar, fəaliyyətin müasir tələblər səviyyəsində qurulması üzrə tədbirlər davam etdirilir.***

Prezident İlham Əliyevin 2019-cu ildə imzaladığı Fərman bu sahədə mühüm "yol xəritəsi" olmaqla onun icrası ilə bağlı kompleks qanunvericilik və praktiki tədbirlər görülür. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, cəza siyasətinin humanistləşdirilməsi, cinayətlərin dekriminallaşdırılması, məhkəmə qərarlarının icrası işinin və məhkəmə ekspertizası fəaliyyətinin təkmilləşdirilməsi, digər məsələlərlə bağlı qabaqcıl beynəlxalq təcrübə öyrənilməklə, həmçinin ictimaiyyətin təklifləri və rəyləri nəzərə alınmaqla çoxsaylı normativ aktın layihəsi işlənib hazırlanıb, dövlətimizin başçısının qanunvericilik təşəbbüsü ilə Milli Məclis tərəfindən bir çox yeni qanunlar qəbul edilib. Yeni regional inzibati və kommersiya məhkəmələri təsis edilib, vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün işlək mexanizmlər yaradılıb, məhkəmələrin və hakimlərin təminatı gücləndirilib. Bu sahədə infrastrukturun müasirləşdirilməsi üzrə görülən tədbirlər çərçivəsində yeni məhkəmə bina və komplekslərinin inşası, onların ən müasir İKT qurğuları ilə təchizi xüsusi yer tutur. Sumqayıt Məhkəmə Kompleksinin tikilib istifadəyə verilməsi də bu istiqamətdə icra olunan layihələrdən biridir.

***Kompleks Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə həyata keçirdiyi "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində inşa olunub. Konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən müasir Məhkəmə Kompleksi altı məhkəməni, o cümlədən Sumqayıt apellyasiya, inzibati, kommersiya və ağır cinayətlər, Sumqayıt şəhər, eləcə də müvəqqəti olaraq Qubadlı rayon məhkəmələrini əhatə edir. "Bir qapı" prinsipi ilə fəaliyyət göstərən məhkəmə kompleksində ədalət mühakiməsinin daha səmərəli həyata keçirilməsinə şərait yaradılmış, vətəndaşların müraciət imkanları asanlaşmışdır.***

Məhkəmə zallarında proseslərə "Elektron məhkəmə" informasiya sistemi və digər müasir İKT-lərin tətbiqi ilə daha keyfiyyətli baxılması və şəffaflığın təmin edilməsi üçün "Femida" sistemi quraşdırılıb. Burada 50-dək hakim, ümumilikdə isə 240 işçi fəaliyyət göstərir. Sumqayıt Məhkəmə Kompleksində yaradılmış müasir şərait təxminən 1 milyon 460 min əhaliyə yüksək səviyyədə məhkəmə xidmətləri göstərməyə imkan verir.

Qeyd etmək yerinə düşər ki, son 17 ildə dövlət büdcəsi hesabına və Dünya Bankının iştirakı ilə paytaxtda və bölgələrdə ümumilikdə 35 məhkəmə, bir o qədər də ədliyyə qurumu üçün yeni, müasir bina və komplekslər tikilərək istifadəyə verilib.

***Son illərdə ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması məqsədilə rəqəmsal innovasiyalar geniş tətbiq olunur, məhkəmə infrastrukturunun müasirləşdirilməsi çərçivəsində yüksək texnoloji (hi-tech) məhkəmələr yaradılır. Artıq 10 ildən çoxdur məhkəmələrin vahid internet portalı insanlara xidmət edir, həmçinin "Elektron məhkəmə" informasiya sistemi yaradılaraq fəaliyyət göstərir. Bu sistemin tətbiqi ədalət mühakiməsinin səmərəsini artırır, şəffaflığı və operativliyi təmin edir, proses iştirakçılarına "şəxsi kabinetə" sahib olmaqla tərəf olduqları işlər barədə məlumatları elektron qaydada əldə etmək, prosesdə videokonfrans formatında iştirak etmək imkanı yaradır.***

İnsan hüquqlarının etibarlı müdafiəsinə xüsusi önəm verilən ölkəmizdə 8 Noyabr - Zəfər Günü münasibətilə elan olunan və 17000 nəfərə yaxın şəxsə şamil olunacağı gözlənilən amnistiya aktı son günlərin mühüm hadisələrindən biri olmuşdur. Ulu öndər Heydər Əliyevin humanizm siyasətinə uyğun olaraq ötən müddət ərzində qəbul edilən amnistiya aktları nəticəsində on minlərlə məhkum azadlığa qovuşub.

Eyni zamanda, bu günədək Azərbaycanda 67 əfvetmə haqqında qərar qəbul olunub, bu da 8774 nəfərə şamil edilib. İndiyədək 11 amnistiya aktı qəbul olunub və 117 min 770 şəxsə şamil edilib. Respublika Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qəbul edilmiş sonuncu amnistiya aktı da dövlətimizin humanist siyasətinin növbəti təzahürüdür.

Belə bir gözəl dövrdə, bütün ölkəmizdə bayram əhval-ruhiyyəsinin hökm sürdüyü bir vaxtdə peşə bayramını qeyd etmək bütün ədliyyə işçiləri üçün olduqca xoş və qürurvericidir.

**Bu tarixi Zəfər və peşə bayramımız münasibətilə bütün xalqımızı, ədliyyə işçilərini, hakimləri ürəkdən təbrik edir, gərəkli və şərəfli işlərində onlara uğurlar arzulayıram.**

# Suvenir silahlar təhlükəlidir

## *Bunu şizofreniya xəstəsi əldə edərsə...*

**Bu günlərdə Türkiyədə gənc bir xanımın şizofreniya xəstəsi tərəfindən yapon samuray qılıncı ilə qətlə yetirilməsi Azərbaycanda da böyük rezonans yaratdı. Azərbaycanda bu kimi halların qarşısı necə alınır sualı insanları düşündürməyə başlayıb. Maraqlıdır Azərbaycanda şizofreniya xəstələrinə necə nəzarət olunur. Mağazalarda soyuq silahların suvenir adı altında satılması bu kimi halların ola bilmə ehtimalını artırır. Hazırda Bakıda bir çox yerdə istər ovçu mağazalarında, istərsə də suvenir dükanlarında istənilər ölçüdə soyuq silah almaq mümkündür.**

Azərbaycanda alışı, satışı və istifadəsi qanunla qadağan edilən soyuq silahlar, beşbarmaq, qələm formasında olan gözyaşardıcı qazlar sosial şəbəkədə açıq şəkildə satışa çıxarılır. İnstaqramda "hediyyeler_alemi" səhifəsində Bakixanov qəsəbəsindəki "Aysu" hədiyyələr mağazasında satılan məhsulların arasında yapon "samuray" qılıncı da var. Mağazanın Elvin adlı satıcısı ilə söhbətimizdən aydın oldu ki, bu qılınclar "Sədərək" Ticarət Mərkəzində açıq şəkildə satılır. "Bu qılınclarla əgər hansısa cinayət törədilsə məsuliyyyət kimin boynunda qalacaq?" sualına isə Elvin belə cavab verdi: "Silahları Azərbaycana gətirənin yəqin icazəsi var ki, açıq halda satılır. Biz də "Sədərək" Ticarət Mərkəzindən alıb gətirib satırıq".

Açıq formada satışı həyata keçirilən bu məhsullara maraq da az deyil. Satışa çıxarılan bütün əşyanın şəklinin altındakı şərh və bəyənmə sayları məhsulun alıcılarının olmasından xəbər verir. Hər bir silahın altına onun qiyməti və onun barəsində məlumatlar qeyd edilib. Eyni zamanda bu məhsulların satışının qadağan olunması barədə bəzi istifadəçilər tərəfindən şərhlər yazılıb. Lakin görünən odur ki, silahları satanlar üçün nə bu şərhlər, nə də qadağalar önəm daşıyır. Qanunvericilikdə isə bu şəxslərə qarşı konkret cəza müəyyən edib.

Keçmiş polis rəisi Mahmud Hacıyev in sözlərinə görə, soyuq silah hesab ediləcək bıçaq, beşbarmağı satanlar cinayət məsuliyyətinə cəlb edilməlidir: "Saytlarda satılan bıçaqların soyuq silah olub-olmaması kriminalistik ekspertiza tərəfindən müəyyən edildiyi halda Cinayət Məcəlləsinin tələbinə uyğun olaraq onu satanlar cəzalandırılmalıdır. Çünki Məcəlləyə görə, soyuq silahların alışı, satışı və gəzdirilməsi qanunla qadağandır. Bıçaqların soyuq silah olun-olmadığını müəyyən etmək heç də çətin deyil. Bunun üçün Daxili İşlər və Ədliyyə Nazirliyində bu işlə məşğul olan mütəxəssislər var. Kriminalist bıçağın şəklinə baxan kimi soyuq silah hesab edilib-edilməməsi barədə rəy verə bilər. Beşbarmaq isə qanunla tam qadağan edilmiş soyuq silahdır. Onun satışı, gəzdirilməsi artıq cinayət məsuliyyətidir".



M.Hacıyev bildirib ki, bu silahları satanların şəxsiyyətini müəyyən etmək heç də çətin deyil: "Onlayn mağaza olsa belə, müvafiq qurumlar tərəfindən həmin səhifənin idarəçilərini tapmaq mümkündür. Hətta məxfi əməliyyat belə təşkil edilə bilər. Alıcı kimi onu sifariş verə və alış prosesində onu satanlar istintaqa cəlb edilə bilər. Üstəlik, bu səhifələr media nümayəndələri tərəfindən aşkarlana bilirsə, hüquq-mühafizə orqanlarının müəyyən etməsi heç də çətin deyil".

Qanuna əsasən, soyuq silah - konstruksiyasına, ölçülərinə və materialına görə birbaşa istehsalat və ya təsərrüfat-məişət məqsədləri üçün nəzərdə tutulmayan, xüsusi olaraq insanın əzələ qüvvəsindən istifadə etməklə zərərvurma obyekti ilə bilavasitə təmas zamanı xəsarət yetirmək təyinatına malik olan silahdır.

Cinayət Məcəlləsinin 228.4 maddəsinə görə, qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirməyə görə üç yüz iyirmi saatdan dörd yüz saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması, yaxud bir ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Bu maddədə milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna təşkil edir.

Xidməti və mülki silah haqqında Azərbaycan Respublikasının Qanununun 2-ci Maddəsinin 6-cı bəndinə görə

soyuq silahın təsnifatı belə verilib: soyuq silah - konstruksiyasına, ölçülərinə və materialına görə birbaşa istehsalat və ya təsərrüfat-məişət məqsədləri üçün nəzərdə tutulmayan, xüsusi olaraq insanın əzələ qüvvəsindən istifadə etməklə zərərvurma obyekti ilə bilavasitə təmas zamanı xəsarət yetirmək təyinatına malik olan silahdır.

Suvenir silahların küt olmasını səbəb gətirənlər onun itilənməsinin bəzən mümkünlüyünü yaddan çıxarırlar. Qarşısına insanları öldürməyi məqsəd qoyan şizofrenik xəstəsi bunu rahatlıqla edə bilər.

Psixoterapevt Orxan Fərəclinin sözlərinə görə, Azərbaycanda əhalinin təxminən 1 faizi şizofreniyadan əziyyət çəkir. Ruhi-əsəb dispanserlərində isə yüz min əhaliyə təxminən 50 çarpayı düşür. Bu çox aşağı göstəricidir. Çünki 100 min xəstə üçün 4-5 min çarpayı çox azdır. "Bu o deməkdir ki, bütün şizofreniya xəstələri nazərətdə deyil. Çünki müasir tibbi tələblər bütün şizofreniya xəstələrinə nəzarət etmək imkanı yoxdur". Orxan həkim bildirdi ki, şizofreniya xəstələrinin xəstəxanalarda müalicəsi effekt vermir, onun halını daha da pisləşdirir. Ona görə də, həmin xəstənin daha yaxşı nəzarətdə saxlanılması üçün evdə müalicə olunması məqsədə uyğundur:

"Amma nəzarət çox ciddi olmalıdır. Düşünülənlərin əksinə olaraq şizofreniya xəstələr o qədər də təhlükəli deyil. Dünyada pul müqabilində adam öldürən minlərlə killerlər var ki, heç bir psixi problemi yoxdur. Həbsdəki cinayətkarların sayına diqqət etsək onların 95 faizi psixi durumu yerində olan insanlardır. Sağlam insanın cinayət törətmək ehtimalı şizofreniya xəstəsindən daha çoxdur".

Daha sonra silah məsələsinə də toxunan O.Fərəcli qeyd etdi ki, bu məsələ müvafiq orqanlar tərəfindən ciddi şəkildə tənzimlənsə də, soyuq silahların açıq satışı təhlükəlidir.

"Çünki bu silahlardan sağlam insan da istifadə edib cinayət törədə bilərl. Bildiyimə görə, odlu silah əldə etmək istəyənlərdən mağazalarda, narkoloji və ruhi-əsəb dispanserində olmaması barədə arayış tələb edilir. Amma soyuq silahla bağlı məhdudiyyət yoxdur. Real vəziyyət budur ki, soyuq silah əldə edənlər təəssüf ki, müayinə olunmurlar".

**Sonda qeyd edək ki, hər il orta hesabla ölkə üzrə qeydə alınan 25 minə yaxın cinayətlərin 12-13 mini şəxsiyyət əleyhinə törədilən hadisələrin payına düşür. Bunların da böyük bir qismində soyuq silahdan istifadə edilir. Ekspertlər baş verə biləcək cinayətlərin sayının azaldılması üçün qanunvericiliyə dəyişikliklərlə yanaşı, marifləndirmə işlərini də genişləndirməyi təklif edir.**

**İLTİFAT**

# Hüquqi dövlət quruculuğunda Ədliyyə sisteminin rolu



*Rauf Əsədov,*
*Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Mühafizə Alayının komandiri vəzifəsini icra edən ədliyyə mayoru*

**Ümummilli lider Heydər Əliyevin 2000-ci il 11 noyabr tarixli Sərəncamına əsasən hər il noyabrın 22-si Ədliyyə işçilərinin peşə bayramı kimi qeyd edilir. Artıq bu il ölkəmizdə ədliyyə orqanlarının yaradılmasından 103 il ötür. Artıq bir əsrə bərabər olan ədliyyəmizin tarixini səhifələsək şahidi olarıq ki, həqiqətən də bu gün ki, müasir, güclü maddi-texniki bazaya, təkmilləşdirilmiş infrastruktura malik olan ədliyyə sözün əsl mənasında keşməkeşli, eyni zamanda şərəfli bir yol keçmişdir.**

Respublikamızda Ədliyyə Nazirliyi Azərbaycan Xalq Cümhuriyyətinin təsis edildiyi gün 28 may 1918-ci ildə yaradılmış, ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, 1918-ci il noyabrın 22-də Ədliyyə Nazirliyinin əsasnaməsi təsdiq edilmişdir. Həmin dövrdə nazirlik tərəfindən bir sıra mühüm qanun layihələri, məhkəmə və istintaq fəaliyyəti, amnistiyanın elan edilməsi, vətəndaşlıq barədə, habelə ictimai və dövlət əhəmiyyətli digər layihələr hazırlanaraq parlamentin müzakirəsinə çıxarılmışdır. Həbsxana işinin demokratik norma və prinsiplərə uyğun qurulması məqsədilə 1919-cu ildə penitensiar xidmət Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılaraq Ədliyyə Nazirliyinə verilmişdir.

Müasir Azərbaycan dövlətinin memarı Ulu Öndər Heydər Əliyevin milli inkişaf strategiyasının mühüm istiqamətlərindən biri ölkəmizdə qanunçuluğa və humanizmə əsaslanan səmərəli məhkəmə və ədliyyə sisteminin yaradılması olmuşdur. Bu sahədə aparılan islahatlar Ümummilli Liderin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən yeni dövrün tələblərinə uyğun olaraq daha da təkmilləşdirilmişdir.Ümummilli lider Heydər Əliyevin ölkədə demokratiyanın inkişafı baxımından ən böyük xidmətlərindən biri də məhkəmə orqanlarının müstəqilliyinin təmin edilməsi, hüquq-mühafizə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsidir. Azərbaycanın demokratik dövlət olmasını şərtləndirən əsas meyarlardan biri də xalqın hakimiyyətin əsas mənbəyini təşkil etməsi və idarəçilik mandatının yalnız xalqa malik olmasıdır. Öz fəaliyyətində hüququ rəhbər tutmayan, əsas insan hüquq və azadlıqlarını təmin etməyən, qanunun aliliyinə söykənməyən, ictimai həyatın bütün sahələrini qanunlar əsasında idarə etməyən sistem hüquqi ola bilməz.

Bu mənada, Azərbaycanda hakimiyyətin əsas mənbəyi kimi xalqı və əsas məqsədi kimi onun maraqlarının təmin edilməsini qəbul etməsi, eyni zamanda hüquqi dövlətin mövcudluğunu şərtləndirir. Respublikamızda dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

Ulu öndərin hüquq siyasətini uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə son illər Azərbaycan ədliyyəsinin davamlı inkişafına xidmət edən genişmiqyaslı islahatlar aparılmış, ədliyyə orqanlarının fəaliyyəti genişləndirilmiş, bu sahədə yeni iş metodlarının, qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının və elektron xidmətlərin geniş tətbiqi təmin edilmiş, ən müasir infrastrukturun yaradılması üzrə tədbirlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin daim diqqətdə saxladığı ədliyyə sahəsində mütəmadi islahatlar aparılır. Nəticədə məhkəmə və ədliyyə orqanlarının inkişafının əsas məqsədləri əhalinin hüquqi təsisatlara və hüquqi yardıma tələbatının ödənilməsi, yeni nəsil hakim və hüquqşünasların formalaşdırılması, məhkəmələrin müstəqilliyinin və məhkəmələrə inamın artırılması, məhkəmələrə və ədliyyə orqanlarına müraciət imkanlarının asanlaşdırılması üçün geniş imkanlar açılıb.

Nazirliyin fəaliyyət istiqamətlərindən biri də Penitensiar Xidmət sahəsidir. Hal-hazırda rəhbərlik etdiyim Penitensiar Xidmətin Mühafizə Alayıda yarandığı gündən həmişə mühüm dövlət tapşırıqlarını layiqincə yerinə yetirmiş, Alayın şəxsi heyəti əsl vətənpərvərlik nümunəsi göstərmiş, xidməti vəzifə borclarına vicdanla yanaşmış, tarixin ağır sınaqlarından alnıaçıq-üzüağ çıxaraq, mühüm tarixi vəzifələrinin öhdəsindən ləyaqətlə gələ bilmişlər. Hal-hazırda Mühafizə Alayı olaraq işğaldan azad olunmuş ərazilərdə xalqımızın tarixi, mədəni-mənəvi irsinin qorunması və yenidən dirçəldilməsi, habelə bu gün bizdən tələb olunan dövlət tapşırığının və vəzifəmizin öhdəsindən layiqincə gəlməyimiz qarşımızda duran taleyüklü vəzifələrdəndir. Onuda qeyd etmək istəyirəm ki, Alayda işğal altında olan torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün müdafiəsi zamanı qəhrəmancasına şəhid olmuş hərbiçilərimizin ailəsinin üzvlərindən 20 nəfər əsgər uğurla hərbi xidmətini davam etdirir. Alay komandanlığı tərəfindən Vətən torpağı uğrunda tərəddüd etmədən canından keçən şəhid ailələrindən olan hərbi qulluqçular hər zaman diqqətdə saxlanılır, xidməti zamanı fərqlənən əsgərlər xüsusi mükafatlandırılır. Mühafizə Alayı şəhidlərimizi daim hörmətlə anır, onlardan bizə yadigar qalan ailələrin, müharibə zamanı yaralanan qazilərimizin sosial müdafiəsi və övladlarının firavan gələcəyini təmin etməyi missiyamız hesab edir.

**Yekun olaraq nəzərə çatdırmaq istərdim ki, Ədliyyə Nazirliyi və onun tabeliyində olan qurumlar 103 illik dövrdə zəngin, keşməkəşli bir yol keçərək müasir inkişaf mərhələsinə çatıb, dövlətin hüquq siyasətini həyata keçirən orqana çevrilib, səlahiyyətləri xeyli genişlənib, cəmiyyətdə nüfuzu daha da yüksəlib. Bizdə Mühafizə Alayı olaraq öz növbəmizdə hər bir ədliyyə əməkdaşını 22 noyabr Ədiyyə işçilərinin peşə bayramı günü münasibəti ilə təbrik edir, hər birinizə möhkəm can sağlığı və çətin, şərəfli eyni zamanda məsuliyyətli məslək olan fəaliyyətinizdə uğurlar arzulayırıq.**

## *Yol polisi xəbərdarlıq etdi*



**Hələ Hipdometeroloqlar bir neçə gün öncə respublika ərazisində havaların kəskinləşəcəyi və temperaturun 6-10 dərəcə aşağı düşəcəyi barədə aidiyyatı qurumlara məlumat vermişdi. Bu məsələlərlə əlaqədar Baş Dövlət Yol Polisi İdarəsi də Bakıda və respublika ərazisində havanın mürəkkəb keçəcəyi barədə sürücüləri xəbərdarlıq etmişdir.**

Baş Dövlət Yol Polisi İdarəsinin inspektoru, polis baş leytenantı Toğrul Nəsirli sürücülərə müraciət edərək demişdi ki, küləkli və mürəkkəb hava şəraitində onlar daha diqqətli olsunlar, ağacların altında nəqliyyat vasitəsini saxlamasınlar, yağış yağanda avtomobilləri aşağı sürətdə idarə etsinlər ki, gölməçələrdən hərəkət iştirakçılarının üstünə su sıçramasın. Bütün bu xəbərdarlıqlar və tövsiyələr ona görə idi ki, nəqliyyat vasitələri sürücülər və hərəkət iştirakçıları mürəkkəb hava şəraitindən zərər görməsinlər. Amma buna baxmayaraq, noyabrın 16-da Bakıda küləkli hava şəraitində neçə-neçə ağac aşmış və hətta nəqliyyat vasitəsinin üstünə düşmüşdü. Düzdü, xoşbəxtlikdən ölüm-itim və xəsarətalma halları baş verməyib. Ancaq görünən odur ki, bəzi sürücülər yenə ehtiyatsızlıq edib, avtomobilləri ağacların altında saxlayıblar. Təbii ki, küləkli havada ağacların və eləcə də reklam lövhələrinin yaxınlığında saxlanılan avtomobili hər cür təhlükə gözləyir. Ona görə də sürücülər bir daha belə havaları nəzərə almalı, yol polisinin tövsiyələrini və xəbərdarlıqlarını yerinə yetirməlidir.

## *Sürücülər hava şəraitinə uyğun sürət seçməlidirlər*



**Bir çox yol-nəqliyyat hadisələri və qəzalar hava şəraitinin mürəkkəb keçməsi nəticəsində baş verir. Yəni yağış yağanda, qar yağanda və yollar buz bağlayanda qəzaların yaranması üçün münbit şərait olur. Təbii ki, belə havalarda sürücülər daha diqqətli olmalıdır.**

Baş Dövlət Yol Polisi İdarəsi Yol Patrul Xidməti Alayının 3-cü taqımının komandiri, polis mayoru Ürfət Şükürov bildirir ki, onların xidmət apardığı Bakı-Şamaxı-Yevlax avtomobil yolunda havalar mürəkkəb keçəndə nəqliyyat vasitələrinin hərəkəti daha da çətinləşir. Xüsusən qış aylarında bu istiqamətdə tez-tez qar yağır, yollar buz bağlayır və hərəkət mürəkkəbləşir. Ona görə də qış fəslinin gəlişi işə əlaqədar olaraq sürücülər avtomobillərini bu fəsilə uyğun hazır vəziyyətdə saxlamalıdır. Yəni, nəqliyyat vasitələrinin texniki sazlığı qənaətedici olmalıdır, şinlər qarlı havaya uyğun seçilməlidir, işıq sistemləri qüsursuz olmalıdır və əyləc dəqiq işləməlidir. Eyni zamanda sürücülər metroloji şəraitə uyğun olaraq surət həddi seçməlidilər. Yəni onlar avtomobil yolunda ara məsafəsi saxlamalı, ötmə əməliyyatını edərkən diqqətli olmalı və eyni zamanda bütün yol hərəkəti qaydalarına əməl etməlidilər. Bir daha sürücülərdən xahiş edirik ki, mürəkkəb hava şəraitinə uyğun surət həddi seçsinlər. Əgər belə olarsa, hər bir sürücü və hərəkət iştirakçısı mənzil başına sağ-salamat çatar.

**Emil FAİQOĞLU**

## *Qarabağa dönən "köçkün" ermənilərin sayı açıqlandı*



**44 günlük müharibədən sonra Ermənistandan Azərbaycan ərazisi olan Qarabağa geri dönən ermənilərin sayı açıqlanıb.**

Adalet.az Sputnik Armenia saytına istinadən xəbər verir ki, bu barədə işğalçı Ermənistan rejimindən məlumat verilib. Sayt yazır: "Müvəqqəti miqrantlar öz vətənlərinə - Qarabağa qayıtmaqda davam edirlər. 2020-ci il müharibəsindən sonra Ermənistandan ümumilikdə 47 930 vətəndaş Qarabağa qayıdıb. Bildirilir ki, qondarma "Artsax"administrasiyası ilə birgə İrəvan bələdiyyəsi məcburi köçkünlərin öz vətənlərinə pulsuz daşınmasını təşkil edir.

Məlumatlar 2020-ci ilin noyabrından 30 sentyabr 2021-ci il tarixinədək olan dövr üçündür. Qeyd edilib ki, ermənilərin Qarabağ köçürülməsi prosesi davam etməkdədir.

**Əntiqə Rəşid**



*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*

# Yaman yandırır məni...

**...Hər bir şəhidin xatirəsi bu xalq, bu millət üçün əzizdir, müqəddəsdir, çünki onlar bu Vətən, bu xalq yolunda, bu millət yolunda şəhid olublar və olurlar. Noyabrın 16-da Kəlbəcər və Laçın istiqamətində sərhədlərimizi pozub əks-hücum edən ermənilərin qarşısını alarkən qəhrəmancasına şəhid olan oğlanlarımız da bax, belə igidlərdəndir. Bir yarpağın budaqdan qopması, bir uşağın göz yaşı, bir şəhid anasının fəryadı yaman yandırıb məni. Tək məni yandırmır ey, bütün Azərbaycan xalqını göynədir və sinəsinə çalın-çarpaz yara vurur. Deyəsən bu dərdin ağırlığı bəzi özəl televiziya kanallarına heç bir təsir etməyib. Məsələn, noyabrın 16-da Müdafiə Nazirliyi rəsmi məlumat verdi ki, erməni faşistlərinin qarşısını alarkən 7 şəhid vermişik və 10 yaralımız olub. Bu məlumatlar səhər-səhər verilmişdi. Təəssüf ki, həmin anda ARB-də "Həmin Zaur" verilişində bir çal-çağır var idi ki, gəl görəsən. Heç elə bil onların bu döyüşdən və şəhidlərimizdən xəbəri yox idi. Başa düşmək olmur, bu özəl televiziya kanallarının rəhbərləri məgər bu xalqın övladları deyillərmi? Dünya dağılardı, həmin gün çal-çağır olmasaydı, manıslar növbəyə durub özlərini reklam etməsəydilər? Görünür, bəzi özəl kanallar üçün pul hər şeydən üstündür. Hətta Vətəndən və şəhiddən də. Ümumiyyətlə, həmin günlər bir o qədər də çətin deyildi ki, proqramlarda dəyişiklik olunaydı. Sadəcə bunun üçün ürək lazım idi, ürək... Ürək yanmasa, gözdən yaş çıxmaz... Görünür, onların ürəyi yanmır. Ancaq həmin günü ATV kanalı operativ olaraq verilişdə dəyişiklik elədi, "7 canlı" proqramını sabaha saxladı. Nə yaxşı ki, bəzi kanallar bunu elədi.**

**Biz nəsə həmişə vətənpərvərlikdə və ideoloji təbliğatda ləngiyirik. Çox vaxt deyirik ki, informasiya müharibəsində erməniləri üstələyirik. Vallah, bu yalan söhbətdir. Gop eləyirik. Biz necə informasiya müharibəsində erməniləri üstələyirik, onlar yalan məlumatları, dezinformasiyaları bizdən tez dünyaya yayır, dünya onların yalanına inanır, bizim faciəmizə inanmır. Bilirsiz, niyə? Çünki onlar o yalanları, o dezinformasiyaları bizdən dəfələrlə tez dünyanın informasiya mənbələrinə çatdırırlar. Kim də birinci informasiyanı dünyaya yaydı, ona inanırlar. Nə qədər əlimizdə sübut olsa da, faktlarımız toplansa da, dünya buna inanmır. Yenə deyirəm və deyəcəm. Biz informasiya müharibəsində ermənilərə uduzuruq. Ancaq özümüz deyib özümüz də eşidirik. Dünyaya açılan pəncərəni, dünyaya açılan qapını ya açmırıq, ya da gec açırıq. Bax, bu da axırda belə nəticələr verir. Bizim həqiqətlərimizə yox, dünya ermənilərin yalanlarına inanır. Deməli, hardasa ölkəmizdə ideoloji işin və təbliğatın dünya səviyyəsinə çatdırılmasına nail olunmayıb. Hansı ki, ölkəmizdə nə qədər informasiya agentlikləri var, mətbuat var, televiziya və qəzetlər var. Pulumuz da ermənilərinkindən daha çoxdur. Nə isə...**

**...O günü Tahir Kərimli Milli Məclisdə dedi ki, (özü də yalvara-yalvara) ay məmurlar, ay vəzifəli şəxslər, bu şəhid və qazi ailələrini incitməyin. Hər bir qaziyə, şəhid ailəsinə sevgi ilə yanaşmaq lazımdı. Təəssüf ki, Tahir müəllimin bu sözləri yuxarı səviyyədə qəbul edilmədi. Biz niyə yalvara-yalvara məmura deməliyik ki, öz vəzifə borcunu yerinə yetir?! Həmin məmur canı çıxıb şəhid ailəsinin, qazinin xidmətində durmalıdır. Haçan muharibə olanda, döyüş başlayanda öndə bu vətəni sevən oğullar gedirlər, döyüşürlər, qalib olublar, şəhid olublar, qazi olublar. İndi də zəhmət çəkib, nazirdən tutmuş icra başçısına, məmura qədər hamı onlara xidmət göstərməlidir. Axırıncı döyüşlərdə 7 şəhidimiz oldu, 10 da yaralımız. Görəsən, onların da arasında yüksək vəzifəli yox, orta səviyyədə dolanan bir adamın övladı varmı? Bəlkə də var, bilmirik. Amma görünən odur ki, bəzi icra başçılarının canı çıxır, o şəhidin dəfnində də iştirak etmir. Mərasimə müavinini göndərir. Cənab nazirlər, cənab icra başçıları, cənab məmurlar, əgər oğullar döyüşüb Qarabağı işğaldan azad etməsəydi, sizin biriniz də o vəzifədə otura bilməzdiniz. İndi oğlanların qanı, canı hesabına isti kabinetdə oturub keyf eyləyirsiniz, heç olmasa hərdənbir başınızı qaldırıb Allahı yada salın və qorxun ki, Allahın cəzası çox ağır olar. Şəhid və qazi ailələrinə xidmət göstərin. Qaz vurub qazan doldurmaq haqqında yox, Vətən barəsində düşünün. Yerin də qulağı var. Sizin nə işlə məşğul olmağınızı heç kim bilməsə də o rayonun camaatı yaxşı bilir. Və vaxt gələcək buna da cavab verəcəksiz.**

**...Yazını çox əsəb bir tonda bilgisayara diktə edirəm. Bəzən fikirlərim və düşüncələrim dağınıq olur. Əsirlər deyəndə yadıma Xocalıda əsir düşmüş 3 minə yaxın qoca, qadın, uşaq düşdü. Ermənilər onların birini də qaytarmadılar. Öldürdülərmi, yandırdılarmı, diri-diri basdırdılarmı? Bilmirik. Bildiyimiz odur ki, 30 ildən çoxdur ki, o itkin və girov düşənlərdən xəbərimiz yoxdur. Hər dəfə də beynəlxalq təşkilatlar və eləcə də ölkəmiz o insanlarla bağlı ermənilərdən soruşanda deyirlər ki, xəbərimiz yoxdur. Çox yaxşı xəbərləri var! Bəlkə də onların az da olsa sağ qalanları var. Həmin adamları ən ağır yerdə qul kimi işlədir və axırda da öldürürlər. Nə demək istəyirəm. Bu döyüşlərdə rəsmi məlumata görə ermənilərin 13 əsgəri əsir götürülüb. Hara götürüblər, hara aparıblar, deyə bilmərik. Amma bir onu bilirik ki, Rusiya və ermənilərin havadarları bu əsirləri bizdən almaq üçün dəridən-qabıqdan çıxırlar. Hətta iki daşın arasında general Rüstəm Muradov özünü Bakıya çatdırdı. Düzdü, bu dəfə bir əsir apara bilməsə də, amma bir erməninin meyitini apardı...**

**...İndi dünya bar-bar bağırır ki, erməni əsirlərini geri qaytaraq. Elə bar-bar bağıran dünya da ermənilər kimi həyasızlaşıb. Yaxşı, balam, bizim niyə 3 min əsirimiz barəsində dinib-danışmırsız?! Dağıdılan şəhərlərimiz, qəsəbələrimiz, kəndlərimiz, hətta qəbristanlıqlarımız barəsində bir söz demirsiz. Gör iş o yerə çatıb ki, qəbirləri söküb aparıblar, içindəki sümüyü də çıxarıb gözlərinə soxublar və həmin qəbristanlıqda taxıl əkiblər. O çörək onları tutsun. İnsan nə qədər alçaq və əclaf olmalıdır ki, ölülərin sümüyünü çıxarıb aparsın. Bax, bunlar dünyada analoqu və bənzəri olmayan qaraçı bir tayfadır. İndi qayıdaq o əsirlərin üstünə. Burda bizimkilər onları bəsləyib elə yedizdirirlər ki, sanki sanatoriyadadılar. Gedəndə də bir kəlmə xoş söz deməzlər. Əksinə, bizi yenidən söyərlər. Bizim əsirlər isə elə günə qoyurlar ki, ayaq üstə durub yeriyə bilmirlər. Erməniləri əsir götürmək lazım deyil. Onları əsir götürüb geri qaytarmaq şəhidlərimizin ruhuna təhqirdir. Elə onları əsir götürən zaman da güllələmək lazım idi. Bu əsirləri azad edəcəyik. Onlar yenidən orduya qayıdacaq. Bizimlə döyüşəcək, Azərbaycan əsgərini öldürəcək. Bunu istəyirsiniz?!**

**...Şəhidimiz olursa, buna hamımız yas tutmalıyıq və o dərdə şərik çıxmalıyıq. Yoxsa, yas sahibi dərdin içində boğulanda bizim bəzi televiziya kanalları da manısları başına yığıb bir vur-çatlasın çıxarır ki, gəl görəsən. Vallah, adam məəttəl qalır. Ki, görəsən orda işləyənlər azərbaycanlıdır, yoxsa erməni? Bir sözlə, dərd bir yerdə çəkiləndə yüngül olur və şəhidlər öz qanı ilə yeni bir tarix yazmış qəhrəmandırlar. Onları kimsə unudursa, çal-çağır yaradırsa, onlar azərbaycanlı deyillər və onların ermənilərlə qohumluğu var...**

# Yekə-yekə danışmayın ey...

## Yaxud "Azəristiliktəchizat" camaatı niyə aldadır?

**Artıq oktyabrın axırlarından respublikamızda və Bakıda havalar soyuyub. Aydındır ki, havaların soyuması insanları çox narahat edir və onlar belə havalarda isti otaqlarda olmaq istəyirlər. Təəssüf ki, bu, bizdə mümkün deyil. Ən azından ona görə ki, oktyabrın axırlarından insanlar soyuqdan əziyyət çəkdiklərini və hətta buna dözməyib, xəstəliklərini bəyan etdilər. Amma bunu heç kəs diqqətə almadı.**

Nə əlaqədar qurumlar, nə də "Azəristiliktəchizat" bir söz demədi. Məlum qurum iki ayağını bir başmağa dirəyib bildirdi ki, noyabrın 15-dən tez istilik verə bilməz. Hansı ki, ölkəmizdə pandemiya şəraitidir və belə bir durumda COVİD-19 virusu daha sürətlə yayılır. İlk növbədə Operativ Qərargah ciddi addımlar atmalı idi, bu addımlar da atılmadı. Gözlədilər noyabrın 15-i gəlsin və bundan sonra istilik sistemləri işə düşsün.

Bu, bizim "Azəristiliktəchizat"-ın işindəki olan qüsurlarla bağlı üçüncü yazımızdır. Əfsuslar olsun ki, məlum qurum öncədən qabaqlayıcı tədbirlər görmədi və nəticədə soyuq havalarda mənzillərin qızdırılmamasından çoxlu sayda insanlar xəstələndi. Bayaq dedik axı, noyabrın 15-dən mövcud qış rejiminə uyğun olaraq bütün yaşayış binalarına, məktəblərə, xəstəxanalara, uşaq bağçalarına istilik verilməlidir. Bu istilik verildimi?! Bu gün noyabrın 17-dir. Hələ də əksər məktəb, xəstəxana və uşaq bağçalarına istilik verilməyib. "Azəristiliktəchizat"-ın məsul şəxsləri bildirirlər ki, qazanxanalar işə düşüb, bütün yaşayış yerlərinə, xəstəxanalara və uşaq bağçalarına istilik veriləcək. Əcəba, əgər qazanxanalar işə düşübsə, bəs niyə Bakı şəhərində çoxlu sayda binalara bu günə qədər istilik verilməyib?! Hətta Əhmədlidə elə binalar var, onun sakinləri deyirlər ki, "Azəristiliktəchizat" yekə-yekə danışır ki, qışa hazırıq. Bunlar qışa necə hazırdılar ki, hələ indi qazıntı işləri görüb təmir aparırlar? Ola bilməz ki, bu təmiri yaz və yay aylarında görsünlər?! Biz evlərimizdə soyuqdan donuruq. Hətta paltoda otururuq. Əlaqədar qurumlar isə heç nəyi vecinə qoymur, öz vəzifələrini yerinə yetirə bilmirlər.

Deyirlər ki, qazanxanalar yavaş-yavaş güc toplayır. Güc toplayandan sonra istiliyin təzyiqi qalxacaq və bütün binalara istilik veriləcək. Vallah, adamı dəli bir gülmək tutur. Qazanxanaları zəhmət çəkib ayın 12-13-ü işə salmaq lazım idi ki, ayın 16-ı da hava soyuq keçəndə mənzillərə istilik veriləydi. Hamı yaxşı bilir ki, Bakıda noyabrın 16-da həm güclü külək əsdi, həm də temperatur 10 dərəcə aşağı düşdü. Belə şəraitdə evdə oturmaq mümkün deyildi. Elə



bu sətirlərin müəllifi də həmin gün soyuqdan bərk xəstələnib. Amma hansı ki, "Azəristiliktəchizat" hətta vermədiyi istiliyin pulunu belə camaatdan tələb edir. Qardaş, istiliyini ver, pulunu tələb elə!

Məsələn, bizim yaşadığımız Suraxanı rayonunun Yeni Günəşli massivinin 13 nömrəli binasına "Azəristiliktəchizat" 2014-cü ildən istilik verir. Amma camaatdan 2012-ci ildən pul toplayır. Başa düşmək olmur, əhaliyə verilməyən istiliyin pulunu məlum qurum niyə tələb edir? Onların ağzında "şirə" yeri qalıb ey! Bir vaxtlar Hüseyn Arabulun vaxtında Bakıda əhaliyə işlətmədiyi işığa görə külli miqdarda borc pul yazmışdılar. Həmin pulu Hüseyn Arabul aldı və aradan çıxdı. İndi də həmin "təcrübədən" "Azəristiliktəchizat" bəhrələnir. Qoy, hüquq-mühafizə orqanları araşdırma aparsınlar və aydınlaşdırsınlar ki, məlum qurum niyə əhalini aldadır, işlətmədiyi istiliyin pulunu almaq istəyir?

Bu gün də 13 nömrəli binaya istilik verilməyib. Hətta binanın sakinləri noyabrın 16-da bu barədə aidiyyatı qurumlara da müraciət ediblər. İnsanlar həmin günü soyuqdan evdə güclə oturublar. Kimi üstünə yorğan atıb, kimi də əyninə palto geyib evdə əyləşib. Tanınmış ziyalı və prezident təqaüdçüsü Səməndər Məmmədov deyir ki, həmin günü soyuqdan yorğana bürünmüşdüm. Özüm də xəstə adamam. Mənzilləri elektrik sobası ilə qızdırmaq mümkün deyil. Amma istilik olsa, o dəqiqə evlər qızır.

Bizim binamızın yaxınlığında yerləşən 282 nömrəli məktəbə də noyabrın 16-da istilik verilməyib. Müəllimlər və şagirdlər soyuqdan əziyyət çəkiblər. Elə buna görə də məktəbin neçə-neçə müəllim və şagirdi soyuqdan koronavirusa yoluxublar. Amma məktəbin direktoru Camal müəllim isə öz kabinetində, sağında və solunda elektrik sobaları qoyub otağını qızdırıb. Bəs onda sinif otaqlarında tir-tir əsən müəllimlər və şagirdlər başlarına nə əlac qılsınlar?! Görünən odur ki, həmişə bir qayda olaraq istilik sistemləri noyabrın 15-də işləmək əvəzinə noyabrın 20-21-i işə düşür. O da çox aşağı təzyiqlə. Nəticədə soyuq havada insanlar xəstələnirlər. İndi isə soyuqlama tək sətəlcəmlə bitmir. Bu həm də koronavirusa çevrilir.

**Çox təəssüf ki, bunu "Azəristiliktəchizat"-ın məsul şəxsləri nəzərə almırlar. Onlar ancaq əhalini boş vədlərlə yola vermək, "bu gün sabah istilik veriləcək" deməklə öz işlərini bitmiş hesab edirlər. Amma əhali isə daha "Azəristiliktəchizat"-ın bu cür vədlərinə inanmırlar. Çünki insanlar deyilənlərə yox, gördüklərinə və şahid olduqlarına inanırlar. Gördükləri və şahid olduqları budur ki, bu gün noyabrın 20-si olsa da, Bakıda əksər mənzillərə, məktəblərə, xəstəxanalara və uşaq bağçalarına istilik verilməyib.**

**Faiq QİSMƏTOĞLU**

# Ali məqama çatan ölümsüz qəhrəman...

## İrəli gedib geri dönməməkdir qəhrəmanlıq

**Məmmədov Elvin Mahmud oğlu 1992-ci il oktyabr ayının 3-ü Zaqatala şəhərində anadan olub. Ailədəki üç qardaşın ən kiçiyi olmuşdur. 1999-cu ildə Zaqatala rayon Şıxəli Qurbanov adına 3 saylı tam orta məktəbin 1-ci sinfinə daxil olmuş, 2010-cu ildə həmin məktəbin 11-ci sinfini bitirmişdir.**

2010-2014-ci illərdə Gürcüstanın Şərqi Avropa İqtisadiyyat universitetinin Laqadex filialında Maliyyə-kredit ixtisası üzrə ali təhsil almışdır. Hərbi xidmət vəzifəsini bitirdikdən sonra bir çox yerlərdə işləmişdir. Vətən müharibəsinə yollanmazdan öncə Vays Parim şirkətində satış və reklam üzrə mütəxəssis işləyirdi.

Ali təhsilini başa çatdırdıqdan sonra 2014-cü ildə hərbi xidmətə yollanıb. Hərbi xidməti zamanı orada fəal snayperçi olub. Bunun üçün o əlavə təhsil də almışdır.

Hərbi xidməti zamanı xüsusi təyinatlılar kursunu müvəffəqiyyətlə başa çatdırmış,2015-ci ildə həqiqi hərbi xidmət vəzifəsini başa vurmuşdur. 2016- cı ildə baş verən aprel döyüşlərində də iştirak etmiş,fəallığına görə fərqləndirilib. 30.06.2016 Döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nailiyyətlərə görə fəxri fərmanla təltif olunmuşdur. Qəhrəmanımız- Elvin Məmmədov 2019-cu il



mart ayının 20-sində 11 il sevdiyi xanımla ailə həyatı qurmuşdur. 2020- il mart ayının 3-ü qızı Ahunur dünyaya gəlmişdir.

2020-ci il sentyabrın 21-də könüllü olaraq yenidən hərbi xidmətə yollanmış, sentyabr ayının 27-də Vətən müharibəsi başlayanda orada da qəhrəmancasına vuruşmuşdur. Qızğın döyüşlər zamanı ön cəbhədə xidmət etmişdir. Tərtər və Füzuli istiqamətində döyüşlərdə olub. 15 oktyabr 2020-ci ildə Ağdərə istiqamətində yaralı əsgər yoldaşlarını döyüş bölgəsindən çıxardarkən özü də qəhrəmancasına şəhid olmuşdur. O,şəhid olarkən qızı-Ahunur hələ 7 aylıq körpə idi. Ahunur atasını sadəcə şəkillərdən tanıyır. Elvin ata sözünü eşitmədən şəhidlik zirvəsinə,yəni ən ali məqama yüksəldi.

***(15.12.2020) - "Vətən uğrunda" medalı (ölümündən sonra)***

***(24.06.2021) - "Cəsur döyüşçü" medalı (ölümündən sonra)***

Qəhramanımız- Elvin Məmmədovu yaxından tanımaq üçün xanımı Məmmədova Xəyalə ilə həmsöhbət olduq.

**- Qəhrəmanımızla nə zaman tanışmışdınız?**

**M.Xəyalə:** Mən Elvini 15 yaşımdan tanıyıram yəni bizim Sevgimiz məktəb illərindən başlayıb.Mənim 15 Elvinin 16 yaşı vardı. Mən onu ilk dəfə necə mükəmməl insan olaraq tanıdımsa, elədə qaldı, heç mənə qarşı dəyişilmədi.O, bu dünyaya gelmiş mələk idi sanki gəldi və getdi.. 28 illik ömrü oldu amma şərəfli, qeyrətli hərkəsin sevgisini hörmətini qazanan yaddaşlarda qalan qəhrəman oldu.

**- Yaxınları ilə münasibəti necə idi?**

**M.Xəyalə:** Elvindən nə qədər danışsamda, kəlimələrə sığdıra bilmirəm..O, böyüklə böyük, kiçiklə kiçik olardı. Valideynlərinin bir sözünü iki etməzdi. El-



vində bir söz vardı " Baş üstə". Ana.atasına, ana ata yox, anam, atam deyərdi.

**- Ən son nə zaman sizinlə əlaqə saxlamışdır?**

**M.Xəyalə:** Ən son oktyabrın 15-i 13:19da əlaqə saxladı və mənimlə danışdı. Yanına yoldaşları gedəcəkdi, telefon göndərəcəkdim ki, daha rahat əlaqə saxlayaq. Qızıma özünə yaxşı bax dedi axşam zəng edəcəm. Lakin,bilməzdim ki, bu son danışığımızdır. Yanına gedəcək olan dostları, axşam saatlarında Elvinə göndərəcəklərimi gəlib götürəndə artıq Elvin şəhid olubmuş,lakin mənə heçnə deyə bilməyiblər. Hər şeydən xəbərsiz idim, dünyamın dağıldığından, həyatımın məhv olmasından xəbərsiz idim.. Axşam oldu. Elvin zəng etmədi, hamıdan soruşdum ki, Elvin kiməsə zəng edibmi? Dedilər yox narahat olma zəng edər. İlk dəfə idi ki, zəng edəcəm deyib, etmədi. Səhəri o acı xəbərlə açdım..Qardaşımdan soruşdum ki, oğlanlar çatıbmı Elvinin yanına? Niyə mənə zəng etmir? Qardaşımda hər şeyi bilirdi, amma mənə heçnə deyə bilmədi. Dedi yollar pisdi, yavaş sürürlər maşını hələ çatmayıblar. O an hamı mənə sms yazırdı ki, bəs Elvindən nə xəbər var? İlahi.. saat 11ə işləmişdi evdəki o səslər, o qışqırıqlar, otaqdan çıxdım dedim Elvinə nəsə olub? Və o zaman mən huşumu itirdim.

**- Həyata keçirmək istədiyi xüsusi bir istəyi vardımı?**

**M.Xəyalə:** Qızımızın həkim olmasını istəyirdi. Həmişə deyirdi ki, mən qızıma elə yaxşı ata olacağam ki, fəxr edəcək mənimlə.Hamının Ahunura paxıllığı tutacaq ki, necə yaxşı Atası var... Kimsə deyəndə ki,qızının toyunu görəsən deyirdi bu nədir? hamı deyir toyunu görəsən, biri demir ki ,Qızın universitetə qəbul olsun, iş sahibi olsun.O qızının iş sahibi olmasını,oxumasını çox istəyirdi.Həmişə mənə deyirdi ki, sənə böyük gözəllik salonu açacam. Arzuları çox idi. Və birdə deyirdi ki, səni xoşbəxt görüm o mənə ən böyük xoşbəxtlikdir və Hər zaman bir sözü vardı hədəfi böyük tutmaq lazımdır..

**Elvinin timsalında bütün şəhidlərə Allahdan rəhmət diləyir və ehtiramla anırıq!**

**İnara Hünbətova**

# Qəhrəman təyyarəçinin xatirəsi anıldı

**Noyabrın 20-də Kürdəmir rayonunda 2 aprel 2016-cı il tarixdə Ermənistanın ölkəmizə qarşı silahlı təxribatının qarşısının alınması zamanı şəhid olmuş Mi-24 hərbi helikopterinin ekipaj üzvü, ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən "Azərbaycan Bayrağı" Ordeni ilə təltif edilən baş leytenant İsmayılov Əbu Bəkr Vüqar oğlunun xatirəsinə tikilən büstün açılışı olmuşdur. Açılış mərasimi Əbu Bəkrin doğulub boya-başa çatdığı evin qarşısında baş tutmuşdur. İnşa olunan büstün açılışında Əbu Bəkrin yaxınları, rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri, qazilər, hərbçilər və sinif yoldaşları iştirak ediblər.**

İsmayılov Əbu Bəkr Vüqar oğlu 1990-cı il fevralın 10-da Kürdəmir şəhərində anadan olmuşdur. 1996-cı ildə Kürdəmir şəhər Tofiq İsmayılov adına 1 saylı orta məktəbin 1-ci sinfinə daxil olmuş və 2005-ci ildə həmin məktəbdə əsas təhsilini başa vuraraq C.Naxçıvanski adına Hərbi liseyə daxil olmuş, 2008-ci ildə liseyi başa vurmuşdur.

2015-ci ilin fevral ayından may ayınadək Milli Aviasiya Akademiyası nəzdində bort texnikliyi kursunda ixtisasını artıraraq baş leytenant rütbəsi almışdır.

2 aprel 2016-cı il tarixdə Ermənistanın ölkəmizə qarşı silahlı təxribatının qarşısının alınması zamanı Mi-24 hərbi helikopterinin ekipajı düşmənin xeyli sayda hərbi texnikası və canlı qüvvəsini məhv etmiş və sonda qəhrəmancasına şəhid olmuşlar. Qəhrəman təyyarəçilər - o cümlədən Əbu Bəkr İsmayılov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən "Azərbaycan Bayrağı" Ordeni ilə təltif edilmişdir.

Əbu Bəkr İsmayılov Bakı şəhərində II Fəxri Xiyabanda dəfn edilmişdir.

***(Filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızının "Hay ver mənə, cənab leytenant" kitabından bir parça)***

## *Bu qala, daşlı qala...*

Bir həftənin yorğunluğu, səs-küyü, gərgin, kədərli anlarından ac-susuz, yuxusuz, gözü yaşlı Rənanın solğun bənizinə, şişkin gözlərinə baxıb, onu yalvar-yaxar yataq otağına keçirən bacısı xısıltıyla Şəbnəmi göstərib dedi:

- Özünə yazığın gəlmir, heç olmasa bu uşağa yazığın gəlsin. Sənə baxıb o da yemir, içmir, yatmır. Səbrli ol. Ac-susuz, yuxusuz qalmaqla, özünüzü üzməklə nə qazanacaqsız? Keç, otağına, keç bircə hovur çimir elə, o gəlin də azca dincəlsin...

Bu boyda gərginlik, nigarançılıqla yatmaq, dincəlməkmi olardı?! Şəbnəmi düşünüb, əlacsız yerinə uzandı, gözünü məchul bir nöqtəyə dikib, Əbu Bəkirin son gedişini anbaan xatırlamağa başladı...

***

Martın 31-i idi. Son günlər təmas xəttindəki gərginlik bir az canını sıxsa da, işinin başında idi. Əbu Bəkirin zəngi onu bir anlıq işdən ayırdı.

*- Salam, ana. Necəsən?*

*- Can, bala, salam! Yaxşıyam, başına dönüm, təki, sən yaxşı ol! İşdəyəm.*

*- Yaxşıyam, yaxşıyam, narahat olma. Bir azdan yola çıxırıq, Füzuliyə gedəcəyik. Əvvəl rayondakı hərbi hissəyə baş çəkməliyik. İmkan olsa, yolüstü evə gələrəm. Amma, tədarük görmə. Bilmək olmaz, vaxt olacaq, ya yox.*

*- Mən gözləyəcəm, ana qurban.*

İşdən qayıdan kimi axşam yeməyinə Bəkirin sevdiyi yeməklərdən hazırladı. Ev-eşiyin səliqə-səhmanına göz gəzdirib, həyətə düşdü...

Artıq şər qarışmışdı. Vüqar həyətdə ağacları sulayırdı, Əkbər isə yoldaşları ilə şəhərə çıxmışdı. Rəna gah açılmış süfrəyə, gah pilətə üstündə buğlanan çaydana, qazana, gah da divardakı saatın əqrəblərinə baxaraq, böyük otaqda o baş, bu başa var-gəl edirdi. Əbu Bəkrgil gedən bircə həftə olsa da, sanki, illərlə görmədiyi oğlunun yolunu gözləyirdi...

Dəmir darvazanın səsi gəldi. Pəncərədən Əbu Bəkirin boyunu görəndə, Rəna özünü həyətə atdı. Ana-bala illərin ayrısı kimi görüşdülər.

***- Hər şey hazırdı, ana qurban. Sən əl-üzünü yuyana qədər yeməyini çəkim - dedi.***

Əbu Bəkr əvvəl dəstəmazını alıb, namazını qıldı və " Bismillah" deyib əlini çörəyə uzatdı...

Rəna, soyuyan yeməyinə əl uzatmadan əlini çənəsinə dirəyib oğlunun iştahla çörək yeməsinə elə diqqətlə baxırdı ki, sanki bir daha onu görməyəcəkdi.

***- Bəs, sən niyə yemirsən? Yeməyin nimçədə qalıb, - Əbu Bəkr anasının sual dolu baxışlarını yayındırmaq üçün araya söz saldı.***

***- Mən ac deyiləm, bişirə-bişirə bir az dalanmışam - narahatçılığını gizlədən Rəna oğluna şirə süzdü.***

Bayaqdan televizora baxan Vüqar da ehtiyatla soruşdu:

***- Cəbhədən nə xəbər var?***

***- Narahat olmayın, hər şey yaxşı olacaq.***

Bu qısa, həm də kəskin cavab qardaşı Əkbəri də sual verməkdən çəkindirdi.

***- Ana, gecə zəng etsələr, mən tez gedəcəyəm. Səni oyatmasam, narahat olma. Yorğunam, mən bir az dincəlim. Gecəniz xeyrə qalsın! - deyib otağına keçən Əbu Bəkr kiçik yol çantasını, saatını çarpayısının yanına qoydu...***

Rəna Əbu Bəkirin səhər tezdən vaxt itirməməsi üçün hər şeyi hazır qoyub, barmağının ucunda oğlunun otağına keçdi. O, şirin-şirin yatırdı. Rəna bir xeyli oğlunu süzdü. Əlini saçlarına çəkmək istəsə də, oyanacağından ehtiyyat edib, fikrindən daşındı. Əyilib xəfifcə alnından öpdü.

***- Allah sizi qorusun! - pıçıldadı...***

Əbu Bəkr heç kəsi durğuzmamaq üçün nə qədər ehtiyyatla, asta hərəkət etsə də, Rəna artıq mətbəxdə idi.

***- Tələsmə, qayğanağı sonacan ye!... Baldan mütləq dad, ürəyində durum olsun... Çayını şirniyyatla iç... Sanki ana ürəyi oğlunun ata evindən son ruzisini götürdüyünü duymuşdu...***

Ana-bala bir-birinə sarıldılar. Rəna başını oğlunun sinəsindən, əllərini kürəyindən ayır-



maq istəmirdi. Balası bu gün körpə uşaq kimi daha şirin, daha yaraşıqlı, daha ətirli idi və bu ətri, şirinliyi ana son dəfə hiss edəcəkdi...

***- Ana, gecikə bilərəm. Bax, əsirsən, soyuqdu, qayıt evə.***

Əbu Bəkr maşını işə salıb, şüşədən son dəfə alatoranlıqda əlində su qabı tutmuş anasını, evlərini süzüb gülümsündü, əlini yellədi və uzun, ağır, dönüşü olmayan, sonu müqəddəs məkan olan bir yola çıxdı....

Hələ də həyətdə, qapı ağzında donub qalmış Rəna isə titrəyirdi. Aprel səhərinin sazağı, xəfif rüzgarı idimi, yoxsa, ayrılıq qoxusu idimi onu titrədən?...

Uzaqdan, radio dalğalarından musiqi sədası gəldi qulağına:

***Bu qala daşlı qala,***
***Çınqıllı, daşlı qala.***
***Qorxuram gəlməyəsən,***
***Gözlərim yaşlı qala....***

**Rənanın dediklərindən:**

Səhər saat 9 idi. İşə təzə çatmışdım. Telefonuma zəng gəldi. Bildim ki, Əbu Bəkr olacaq. Hal-əhval tutdum:

***- Nə var, nə yox, Əbu. Vəziyyət necədi? Özün necəsən? Səndən nigaranam.***

***- Narahat olma, ana. Vəziyyət burda çox yaxşıdı. Mən lap əlayam, irəliləyirik.***

Çaş-baş qaldım, sanki yuxudan ayıldım.

***- Necə yəni irəliləyirik? Müharibədi?***

***- Mənə zəng eləməyin, zəng çatmayacaq. Özüm zəng vuracağam.***

Əbu Bəkr elə tez-tələsik danışdı ki, suallarım ağzımda qaldı. Sən demə, ikinci dəfə döyüşə qalxırlarmış. Tez bibisinə zəng vurdum ki,

Əbu Bəkirlə danışdım. Məndən sonra ona da zəng vurub ki, narahat olmasın. Səhər tezdən Şəbnəmə də zəng vurubmuş. Ona da deyib ki, Lələ təpəni düşməndən geri almışıq, bayram edirik. Bir də, ikinci döyüşə qalxanda təkrar Şəbnəmə zəng edib, - gedirik düşməni biçməyə...

Bir də, Elşad adlı yoldaşı xəstələnibmiş. Sonralar bizə gələndə Elşad mənə danışdı ki, hamı yeməyə gedib, Əbu Bəkr onun yanında qalıb. Aptek tapıb, dərman alıb. Dərmanları içirəndən sonra, isti çay verib, üstünü basdırıb ki, tərləsin. Bir neçə saat sonra döyüş əmri verilib...

Saat 12-yə qalırdı, hiss elədim ki, işləyə bilmirəm, istilənirəm, həyəcanlanıram. Şənbə günü qısa iş günü olduğu üçün, mən adətən, 3-ə, 4-ə qədər işləyirdim. Həmin gün mənimlə işləyən bacım qızına dedim ki, dur gedək, özümü narahat hiss edirəm. İşdən evə qədər olan məsafəni o qədər sürətlə getdim ki, elə bil, kimsə məni qovurdu. Əbu Bəkirə zəng vurdum, zəng çatmadı. Başımı ev işlərinə qatsam da, əlim telefonda qalmışdı. Telefona gah zəng çatmır, gah da məşğul göstərirdi. Öz-özümə deyirəm ki, yəqin komandirlə danışır. İncik-incik gileyləndim ki, niyə mənə bircə kəlmə demir ki, ay ana, narahat olma, yaxşıyam. Artıq günorta saat 3 idi. Yenə telefona zəng çatmırdı. Məni ağlamaq tutdu. Bacımgilə dedim ki, bu iş xeyirə oxşamır. Ürəyimə damıb ki, Bəkirin başında nəsə var. O, heç vaxt məni narahat qoymazdı, mütləq zəng edərdi... Az keçmiş Şəbnəm zəng elədi ki, Bəkirin dostu Faiqin anası Qəmər xala zəng edib deyir ki, Füzuliyə yasa gedirlər. Bəkir də xahiş edib ki, Şəbnəm tək qalmasın, onu da götürün, yolüstü Kürdəmirə - evimizə düşürərsiz.

***Ağ atım, dəmir atım,***
***Uçum, murada çatım...***

Bu sözdən şübhələndim, ürəyim çırpınmağa başladı:

***- Ay bala, Əbu Bəkr sənə niyə zəng vurmayıb? Ona zəng çatmırsa, Faiqə necə zəng vurub?***

***- Bibi, Bəkir olan yerdə şəbəkə yoxdu. Uşaqlara - yoldaşlarına tapşırıb ki, Faiqə xəbər etsinlər.***

Ürəyimdə ümid qığılcımı yandı ki, ola bilər, telefon işləməz, başqasına zəng elətdirər...

Həmin dəqiqə oğlum Əkbər zəng elədi:

***- Ana, Əbu Bəkirlə danışmamısan? Mən yığıram, zəng çatmır. Vəziyyət çox gərgindi cəbhədə, müharibə gedir.***

***- Yox, səhər danışdığımdı. Zəng çatmır. Mənə dedi ki, özüm zəng vuracağam - dedim.***

Telefonda onun həyəcanla ağladığını eşitdim.

Əkbərin ürəyi zəif olduğundan xalası oğlunu göndərdim ki, onu evə gətirsin. Narahat olsam da, Əkbəri sakitləşdirmək istəyirdim. O isə telefonda nəsə axtarırdı. Həyətə düşdü, küçəyə çıxdı. Sonra telefon əlində qışqıra-qışqıra geri qayıtdı:

***- Bəs deyirsən qardaşıma heç nə olmayıb?! Qardaşım şəhid olub. Şəklin qoyublar internetə...***

Dünya gözümdə qaraldı. Ağ kostyumda, toy paltarında şəklini gördüm, üzümü çevirdim, baxmaq istəmədim, qışqırdım:

***- Yox, ola bilməz, Əbu Bəkr ölə bilməz. Mənim balam mənə deməmiş ölə bilməz.***

Əbu Bəkr məni elə inandırmışdı ki, məndən icazəsiz, mənə demədən heç bir iş görə bilməz, hətta, ölə də bilməz. İnanmırdım, inanmaq istəmirdim...

Bir az özümə gələndən sonra dostlarına - Elvinə, Sadiqə, Faiqə zəng vurdum. Telefonu açmadılar. Artıq həyət dolmuşdu adamlarla, hamı bilirmiş. Təkcə eşitməyən, eşitmək istəməyən bizikmiş...

Sən demə, mənim başım telefona - Əbu Bəkirə zəng etməyə qarışanda, hamı onun şəhid olması xəbərini eşidibmiş. Dostları, tanışları onun telefonuna zəng vururmuşlar. Ona görə telefonu məşğul imiş. Və bu məşğulluq məni bir az ümidləndirmiş, bir az oyalamışdı...

Şəbnəm həyətə girəndə, artıq başa düşüb ki, Bəkirə nəsə olub, onu aldadıb gətiriblər. Onun alacalanmış gözlərində donan suallara, leysan kimi axan göz yaşlarına dözmək çətin idi. Öz dərdimi unudub Şəbnəmi qucaqladım:

***- Qorxma, bala, qorxma, ölməyib, yaralanıb, ayağından yaralanıb. Allahın mənə dedirtdiyi sözə baxın. Mən heç bilmirdim ki, o, bir ay deyilmiş ki, ayağından zədələnibmiş. Həmin zədəli ayağına da düşmən gülləsi dəyibmiş...***

**Aprelin 2-dən 10-na qədər - tabut evə gətirilənə qədər, Allah mənə dözüm verdi. İnanmırdım ölümünə, ümidimi itirmirdim. Özümü inandırmağa çalışırdım ki, ölməyib, yaralıdı, əsir düşüb, alınacaq, gələcək... Özümdən xəyal uydururdum ki, vurulub, düşüblər meşəyə. Əbu Bəkr yaralı yoldaşlarını yəqin sürüyüb təhlükədən uzaqlaşdırıb, gizləniblər. Bizim əsgərlər onları axtarıb tapacaqlar, mütləq tapacaqlar... Uydurduğum bu şirin nağılla, xəyalla, ümidlə 9 gün ac-susuz, yuxusuz balamın yolunu gözlədim...**

**Yaqut Bahadurqızı**



SEYRAN SƏXAVƏT

# ÖZÜNƏ OXŞAYAN ŞƏKİL

## Nəzakət Məmmədliyə

**Keçən əsrin 75-ci ilində, şahın vaxtında, İranın İsfahan şəhərində adını unutduğum bir İtalya filminə baxmışdım. Mənim aləmimdə İtalya dünya kinosunun zirvəsində qərar tutub. Filmin məzmununu danışmaq fikrim yoxdu. Ancaq fikrimi izah etmək və çatdırmaq üçün bəzi detalları açmalıyam. Belə ki, film gənc bir rəssamın öz portretini- avtoportretini çəkməsi ilə başlayır və film boyu davam edir- Ömrünün axrına qədər hər gün öz portretinə nələrsə əlavə edir...**

Bu sətrləri yaza-yaza heç vaxt unutmadığım, adını isə unutduğum, bu filmə ürəyimdə ad da qoydum: "Özünü Çəkən adam." Nə bilim, bəlkə də o filmin adı beləymiş... Əlqərəz...

Bakılı hesab elədiyim, əslən Ərdəbildən olan, "Xatirə kitabı" nın baş redaktoru, "Yada düşdü" jurnalının təsisçisi və baş redaktoru, şair, publisist, üç zabit anası, zabit qaynanası, ədəbi və qeyri-ədəbi mühitdə hamının sevimlisi, dünyanın ən səmimi və rahat adamlarından biri olan Nəzakət Məmmədlini hər dəfə görəndə o İtalya filmini xatırlayıram; səbəbini bilmirəm, buna heç vaxt çalışmamışam da- əgər bu yazını qurtarana qədər ağlıma və qəibimə nəsə gəlsə mütləq sizinlə bölüşəcəm- söz verirəm.

Bu günə qədər tanıdığım, ünsiyyətdə olduğum adamları iki yerə bölmək olar; onların bir qismi neçənci ildə, hansı ayda, ayın neçəsində, hətta saat neçədə üz-üzə gəlib tanış olduqlarımdı; ikinci bir qismi isə nə vaxt tanıdığım yadımda deyil və mənə elə gəlir ki, onları doğulduğum gündən tanıyıram- bu mənada ikincilər birincilərdən daha qədim və doğmadır. Baxmayaraq ki, birincilərin içində eləsi var ki, tanışlığımızın tarixi əlli ili keçsə də, ikincilərdən beş il əvvəl tanıdığım biri daha qədim, doğma görünür. Görünür bu yerdə illərin uzunluğu yox, münasibətlərin səmimiyyəti hər şeyi yerbəyer eyləyir. Nəzakət Məmmədli sözün bu mənasında ikincilərdəndir. Elə ikincilərdən ki, bizim adət etmədiyimiz, öyrəşmədiyimiz kimi birincilərdən uca və səmimi. Görünür ikincilərin birincilərdən doğma ucalıqda olması iyirmi birinci əsrin yeni keyfiyyətlərindəndi- mənlik deyil və məni qınamayın... deyə bilərsiniz ki, bu harda görünüb ki, ikinci birincidən?: düzdü, heç harda görülməyib, ancaq indi görünür də... yuxarıda dediyim kimi İyirmi Birinci əsirdən soruşun, düzünü o deyər, mən yalan deyərəm... mənə yaraşmaz...

Nəzakət Məmmədlinin nəinki özü, hətta atası da Bakıda doğulub. Ərdəbildən Quzey Azərbaycana təşriv gətirən, məskunlaşan babası olub. O, yalnız sərhədlər açılandan sonra ata-baba yurduna- Ərdəbilə gedib. Görünür bu məqamda harda doğulmaq bizlərin adət etdiyi anlamda, o qədər də önəmli deyilmiş- əsas ulu babaların dünyaya göz açdığı torpaq imiş- Ərdəbil, Güney Azərbaycan. Yoxsa, Nəzakət xanım o yerlərə xitabən yazmazdı ki:

*İravanda gur səsiniz döyünə,*
*Qarabağda bayrağımız öyünə,*
*Ayaqyalın gedim o toy-düyünə,*
*Öpsün vətən torpağını gözlərim,*
*Çöksün vətən torpağında dizlərim.*

Beş misranı misal gətirdiyim bu şeirdən qan iysi gəlir. Ona görə belə deyirəm ki, son Qarabağ müharibəsi də göstərdi ki, qansız-qadasız heç nə eləmək, daha sərrast desək, vətən torpağını- vətəni bütövləşdirmək mümkün deyil. Yeri gəlmişkən şair, publisist, naşir Nəzakət xanımın üç zabit övladı( iki oğul, bir qız hərbi həkim) zəfər qazandığımız Qarabağ müharibəsində iştirak etmişlər. 44 gündə 44 dəfə qırpılmayan, yol çəkən ana gözləri...

Adətən rəssamlar, bəstəkarlar, yazıçılar haqqında deyirlər ki, filankəs çox nəhəng sənətkardı. Allaha da xoş gedər bu yerdə desək ki, Nəzakət Məmmədli nəhəng anadır. Müharibədə iştirak eləyən üç övladın nigaranlığını çəkmək üçün ya gərək Nəhəng Ana olasan, ya da yük qatarını dartıb aparan Parovoz...

...Bir neçə il bundan qabaq Nəzakət xanım Türkiyənin Əskişəhər şəhərində bir qıza rast gəlir. Qızın suyu ona çox şirin gəlir, qanı qaynayır, qıza quşu qonur, ona görə də oteldə işləyən bu qızla tanış olmaq qərarına gəlir.

-Sizin adınız nədi?- Nəzakət xanım nəzakət və məhəbbətlə soruşur.

-Mənim adım...- qız utana-utana deyir, -mənim adım...- elə bil adını yadına salmağa çalışır,- mənim adım Gülərdi... Gülər...

- Sizdə də Gülər adı olur?- Nəzakət xanım təəccüblə, nəzakət və məhəbbətlə soruşur.

-Mən buralı deyiləm...-Qızın gözləri bir anlıq çox uzun yol çəkir.

-Bəs hardansan?

-Azərbaycandanam...



Nəzakət xanım elə bil sevincək olur:

-Azərbaycanın harasından?

-Xocalıdan...- Gözləri dolur,- məni türk tanışımız gətirib bura...- Gözləri boşalır, -ailəmizdə hamımızı qırdılar, bircə mən salamat qalmışam... -türklər mənə öz balaları kimi baxır...özdərinkindən seçmirlər...

Nəzakət xanım onu bağrına basır, öz doğması kimi öpür, sığal-tumar çəkir, yalvarıb-yaxarır ki, gəl səni aparım özümlə. Qız deyir:

-Çox sağolun... hələ tezdi... Qayıdacağam... Xocalıda ev tikəcəm... həmişəlik orda yaşayacağam...

-Gülər onda söz ver ki, gələndə birinci mənə zəng vuracaqsan...

-Onsuz da Azərbaycanda sizdən başqa heç kəsi tanımıram... Gələcəm... Hər şeyi sıfırdan başlayacağam...

Bu çox böyük hadisə 2013-cü ildə olmuşdu... kiminləsə bu cür qarşılaşmaq da hamıya, hər kəsə qismət olan deyil. Bu, müqəddəs, kövrək qismətdi, Nəzakət Məmmədli qismətidi... Və Azərbaycan xalqı demişkən:- Qismət Allahındır...

Nəzakət xanıma zəng eləyib Güləri soruşanda dedi:

-Əlaqələrimiz var... yazışırıq...

Gülər Xocalıya qayıdıb hər şeyi sıfırdan başlayacaq.

-Gülər bala. Bütün başlanğıclar sıfırdandı- elə yaşadığımız Yer kürəsi də sıfırdandı. Gəl. Nəzakət xanım Məmmədli səni gözləyir. Gəl. Mən də səni gözləyirəm. Gəl. Xocalı səni gözləyir, Xocalı... Gəl... Azərbaycan gözləyir... Gəl...

Bütün bunları ona görə xatırladım ki, Nəzakət Məmmədliyə dəxli var. Hər halda mənə elə gəlir... İnsanıq də...

Nəzakət Məmmədlinin qələmindən çıxanların hamısı igidlik, qəhrəmanlıq, vətənpərvərliklə bağlıdır. -İnsana məhəbbət, həssaslıq, istiqanlılıq, səmimiyyət də öz məkanında və məqamında...

Nəzakət Məmmədli orta məktəb illərində gündəlik yazırmış. Əgər belə demək mümkündürsə o, ədəbiyyata gündəliklərindən gəlib. Yazı-pozu ilə məşğul olmaq- ədəbiyyat qəliz olduğu qədər də qeyri-qəlizdi, havadı, sudu. Ədəbiyyatda ilk kövrək və nabələd adddımlarını atanların hamısına, sözün böyük mənasında, bələdçi lazım olur. Bu mənada Nəzakət xanımın kitablarından birinə böyük şairimiz ( böyük bələdçi) xalq şairi Musa Yaqub ön söz yazıb. Bu qarmaqarışıq Söz zamanında xalq şairi Musa Yaqubun diqqətini cəlb eləmək özü bir ədəbiyyat uğurudu- mənim buna heç bir şübhəm yoxdu...

Xalqı qəflət yuxusundan oyadan da, onu dünyada tanıdan, başını uca eləyən, bayrağını qaldıran da onun qəhrəmanlarıdır.

Qəhrəmanları olmayan milləti heç kəs saya salmaz, onun əsl qiymətini verə bilməz. Saya salınıb söz sahibi kimi tanınmayan, əsl qiyməti verilməyən xalqların aqibətini bilmək üçün tarixi vərəqləmək kifayətdi: onların çoxusu əsl simasını itirib tanınmaz olub, ya da ki, ümumiyyətlə tarixdən silinib, yoxa çıxıb.

Vətəni üç zabit balası qədər, üç zabit balasını da vətəni, torpağı, xalqı qədər sevən Nəzakət Məmmədlinin Milli Qəhrəmanlar haqqında çap etdirdiyi kitab, bu mənada çox dəyərlidir, alqışlanmalıdır və şəxsən öz adımdan ona "var olun Nəzakət xanım" deyirəm.

Nəzakət Məmmədlinin bu qəbildən olan xidmətləri haqqında uzun-uzadı danışmağım da, əslində yersizdi- çünki hər şey göz qabağındadır və bu qeyrətli- vətən qeyrətli türk xanımına Allahdan və Torpaqdan güc-qüdrət diləmək keçir könlümdən.

"Bakı-xəbər" qazeti ilə birlikdə "Şəhidlər ölməz-Vətən bölünməz" layihəsinin adı hər şeyi anladır- necə deyərlər, görünən kəndə nə bələdçi...

Hətta tədbirlərin birində hamının son dərəcə təvəzökar insan kimi tanıyıb qəbul etdiyi Nəzakət Məmmədli özünün rəhbərlik etdiyi Respublika Xatirə Kitabı haqqında belə dedi:

- Respublika Xatirə Kitabı ən qiymətli ensiklopedik vətənpərvərlik abidəsidir.

Hamı da onunla həmrək olduğunu bildirdi- onu alqışladılar...

Vətənsevən, torpaqsevən, övladsevən insan belə də olmalıdı- onun bircə yolu var: belə olmaq- Nəzakət Məmmədli kimi olmaq- Nəzakət Məmmədli olmaq...

Bir misal-ehtiyac olmasa da. Topxana meşəsindən başlayan (ilk səbəbkar kimi) milli azadlıq uğrunda mücadilədə yüz minlərlə adam məşhur, tarixi Azadlıq Meydanında tufanlı dəniz kimi dalğalanıb şahə qalxanda Nəzakət xanım balalarını da götürüb meydana gedir, elinə, obasına-xalqına qoşulurdu. Gücü çatan yerdən biş-düş eləyib yüz minləri yedirtmək istəyirdi; ona elə gəlirdi ki, bişirdiyi bir qazan yemək, bir-iki təndir çörəyi meydandakı adamların hamısına çatacaq- neyləmək olar, varını verən utanmaz...

Sonuncu Qarabağ müharibəsində özləri kimi vuruşan üç zabit balası, bəlkə də vətənsevərlik "peyvəndi" ni ilk dəfə elə o tarixi, möhtəşəm Azadlıq Meydanında qəbul eləmişdilər- çox güman ki...

**...Hə... imkanı olanlar inansın mənim səmimiyyətimə ki, uzaq 1975-ci ildə baxdığım İtalya filminin əsl mahiyyətini hələ indi başa düşdüm. Sən demə bütün insanlar doğum evindən qəbir evinə qədər qələm-fırça ilə deyil, əməlləri ilə öz şəkillərini çəkirlər.**

**Nəzakət Məmmədli kimi...**

**Nəzakət xanımın şəklini isə mən çəkdim- telefonla yox- Sözlə...**

**Görün Özünə oxşayırmı...**

Eminquey

# Tamaşanın ortasında durub namaz qılası deyilsiniz



*Deməli, tamaşamızın premyerasıdı. Tamaşa hələ başlamayıb. Həyəcanımı dağıtmaq üçün dostlara müşahidələrimdən birini danışıram ki, teatrların birindəyəm, obrazlar xarici, əsər xarici.*

*Tamaşa başladı, biraz keçdi, ən həzin, kirimiş yerində zalda kiminsə telefonunda Azan oxunmağa başladı. İndi təsəvvür edin, aktyorun həmin an səhnədə nə hisslər keçirtdiyini.*

*Azan oxunur, adam kimdirsə, yüz faiz qurcalanır, telefonu açıb səssizə atmaq üçün vurnuxur, zalda pıçhapıç, nırçanırç düşür, aktyorun gözlərinin dərinliyində "ey Azan sahibi, kömək ol" yalvarışı oxunur.*

*Ardınca bir başqasının telefonunda Azan oxunmağa başlanır, bu dəfə pıçhapıçların, nırçanırçların arasına bir yekə "əəəəə" də qatılır.*

*Birinci Azan "Əşhədu ənla Muhəmmədən Rəsulallah"da kəsilir. İkincisi isə deyəsən təcrübəlidir, dördüncü "Allahu Əkbərdə" telefonu səssizə ata bilir. Elə bu məqamda telefonun sahibi (çox güman ki) asta səslə:*

*- Tamaşadayam, yığma, özüm yığacam.*

*Sən demə, bunun telefon zəngi Azan imiş.*

*Bunu danışdım, gülüşdük. Azana yox ha, tamaşaçı etikasının olmamasına.*

*Tamaşamız başladı, öz-özümə deyirəm ki, şükür, nə yaxşı, Azan-zad yoxdu.*

*Arvadlar yığışıb Dərviş, cadü-pitik barədə danışan məqam zaldan Azan səsi gəldi. Mən də şair adam, tez beynimdə yozdum ki, yəqin bu, Allahdan işarə-zaddı. Deyir, utanın, ey insanlar, Azan oxunur, dayandırın cadu-pitik söhbətini, imana gəlin! Ara-xəlvət arxaya çönüb dostlarıma baxıb güldüm.*

*Heç nə.*

*Bir sözlə, deməm bu ki, əziz tamaşaçılar, teatra gedəndə, tamaşa başlayanda telefonlarınızı səssizə atın, ya da heç olmasa, Azan proqramını söndürün, tamaşanın ortasında durub namaz qılası deyilsiniz.*

# Zərif barmaqların pıçıltıları

## Gənc musiqiçi Nərmin Nəcəflinin doğum gününə

**Barəsində fikirlərimi bilgisayara diktə etdiyim Nərmin Nəcəfli artıq mənim üçün doğmalaşmış bir musiqiçidir. Belə ki, son bir neçə ildə ardıcıl olaraq yaradıcılığını izlədiyim, uğurlarından xəbərdar olub sevindiyim Nərminin ailəsi mənə yaxın olduğundan demək olar ki, onun həm Azərbaycanda, həm də ölkə sərhədlərindən kənarda dinləyicilərini heyrətə gətirən ifalarının bir növü izləyicisinə, tamaşaçısına çevrilmişəm. Bunun da iki səbəbi var.**

Öncə onu deyim ki, Nərmin Nəcəfli musiqiyə olan sevgisinin ilk qığılcımlarını büruzə verəndə onun valideynləri əlindən tutub musiqi məktəbinə gətirdilər. Müəllimlərlə ilk təması göstərdi ki, bu cılız, amma içi musiqi sevgisi ilə dolu olan qızı uğurlu sabahlar gözləyir. Təsəvvür edin ki, piano arxasında əyləşmə məqamını izləyən müəllimlər bir-birinin üzünə baxıb baxışları ilə bildirdilər ki, musiqi aləminə uğurlu bir gəliş var. Çünki Nərminin elə əyləşməyinin özündə bir musiqiçi jesti özünü büruzə vermişdi. Bax, elə həmin məqamın sözlə ifadəsi göstərirdi ki, Azərbaycan musiqisinin böyük arenasına yeni bir iz salınır. Və...

Nərmin Nəcəflinin uğurlarının ikinci bir səbəbi onun inadkarlığıdır. Qarşısına qoyduğu məqsədə çatmaq üçün yorulmağı yadından çıxarır. Hətta bəzən valideynlər onu pianodan güclə ayırıb yemək süfrəsi başına gətirirlər. Söylədiyim bu iki məqamın birliyini, yəni bir-birini tamamladığını görəndə onda inanmaq olur ki, daha doğrusu inanmağa şübhə yeri qalmır ki, Nərmin Nəcəfli musiqi üçün doğulubdur.



Mən onun bioqrafiyasına nəzər salanda görürəm ki, 1996-cı ilin noyabr ayının 17-də Bakıda doğulan Nərmin Bülbül adına orta ixtisas musiqi məktəbinin fortepiano sinfini uğurla başa vurub. O, 2004-2007-ci illərdə Bakıda, Moskvada, Tbilisidə 8-12 yaşlı uşaqlar arasında keçirilən beynəlxalq müsabiqələrin qalibi olub. II və IV Beynəlxalq Rastrapoviç, 2011-ci il III Beynəlxalq Üzeyir Hacıbəyli festivallarının iştirakçısı olub. Ulu Öndərimizin 85 illik yubileyindəki çıxışı "Qran-Pri"yə layiq görülüb. Adı Respublikanın gənc istedadlarının "Qızıl kitab"ına yazılıb. Azərbaycanın hüdudlarından kənarda, Almaniyada, Fransada, Rusiyada, Belçikada, İtaliyada, Böyük Britaniyada, ABŞ-da və digər ölkələrdəki möhtəşəm çıxışları Azərbaycanın gənc istedadına şöhrət qazandırıb. Nərmin öz yaşıdları arasında ifa mədəniyyəti ilə, peşəkarlığı ilə, ən vacibi isə, musiqinin yaşamağı ilə seçilibdi. Onunla ilk təmasdan hiss edirsən ki, həyatını, ruhunu musiqiyə bağlayıb, musiqi ilə nəfəs alır.

Təsəvvür edin ki, bizim musiqi tariximizdə ilk addımlardan biri də Nərminin adı ilə bağlıdır. Belə ki, o, Hannover Musiqi Dram və Media Universitetinin ilk azərbaycanlı tələbəsidir. Burada doktorantura təhsili alıbdı. Ona görə də bu gün onun özünün 7 tələbəsi var. Həmin tələbələr də Nərmin Nəcəflinin qazandığı uğurlarını təkrarlamaq üçün öz müəllimlərindən daha çox öyrənməyə üstünlük veriblər. Bu da bir müəllim kimi Nərmin xanımı daha da həvəsləndirir. Özünə həyat kredosu kimi qəbul etdiyi Üzeyir Hacıbəyli yaradıcılığı, şəxsiyyəti Nərmini milli musiqimizə elə bağlayıb ki, o, yalnız dünya musiqi korifeylərindən də öndə Üzeyir bəyi görür. Hər dəfə söhbət düşəndə vurğulayır ki, Üzeyir Hacıbəyli zirvəsi əlçatmazdır. Hətta bir dəfə kiçik yaşlarında babası ilə söhbət edərkən soruşub ki, baba, mən haralıyam. Təbii ki, babası da onun hansı bölgəmizə aid olduğunu Nərminə xatırladıb. Lakin Nərmin gözlənilmədən deyib:

- Mən qarabağlıyam! Çünki Üzeyir Hacıbəyli qarabağlıdır!

Bu məqamı ona görə xatırladıram ki, əslində bütün Azərbaycan dünən də, bu gün də, özündə Qarabağı ehtiva edib, yüksəldib və ona qovuşubdur. Nərminin də 30 il həsrətini yaşadığımız Qarabağ üçün çırpınan ürəyinin pıçıltısı olan "Mən də Üzeyir Hacıbəyovun doğulduğu Qarabağdanam!" fikri məhz böyük qələbəyə inamın, inancın, güvəncin işartısı idi. Şükürlər olsun ki, bu istək 44 günlük müharibəmizdə gerçəkləşdi. Biz Qarabağa qovuşduq.

Bugünlərdə doğum gününü qeyd edəcək Nərmir Nəcəfli söz düşəndə deyir ki, ən böyük arzularımdan biri Şuşada konsert verməkdir. İnanıram ki, bu arzuma da qovuşacam.

Biz də Nərminin arzularının çin olacağına inanırıq. Çünki o, hələ kiçik yaşlarından özünün nəyə qadir olduğunu sübut edibdir və bu gün onun müəllim kimi dərs dediyi 7 tələbənin hər biri bir ölkəni İngiltərə, İtaliya, Avstriya, Çin, Rusiya, İran və Almaniyanı təmsil edir. Bax, budur azərbaycanlı musiqçinin, azərbaycanlı xanımın öz istəyini reallaşdırmaq gücünün bəhrəsi. İnşallah, o, bugünə qədər qazandığı fəxri fərmanların, mükafatların, fəxri adların sırasını daha da artıracaq, dinləyici alqışlarının sədası bitib-tükənməyəcəkdi. Çünki o böyük salonlarda çıxış etmək gücünü öz zərif barmaqları ilə dəfələrlə nümayiş etdirib.

**Yaradıcılığında uğurlar dilədiyim Nərmin Nəcəfliyə doğum gününüz mübarək olsun, deyirəm!**

**Əbülfət MƏDƏTOĞLU**



Zemfira Məhərrəmli
yazıçı-publisist

# Mədəniyyət beşiyimizin tarixinə dair esse

## Rüstəm Kamalın "Pənah xanın ruhu" adlı əsərini oxuyarkən

**Əzəli-əbədi yurd yerimiz Qarabağ Azərbaycan tarixinin dərin qatlarından üzübəri mədəniyyətin, söz sənətimiz ədəbiyyatın, elmin və maarifin, sənətkarlığın beşiyi olmuşdur. Bəllidir ki, Qarabağın ədəbi-mədəni keçmişi, ictimai-siyasi həyatı Pənahəli xanın adı ilə bağlıdır.**

Bu ecazkar məkanın zümrüd qaşlı tacı olan, 1752-ci ildə əsası Pənahəli xan tərəfindən qoyulan Şuşa ilk çağlardan elə bu adı daşıyıb, xanın şərəfinə Pənahabad adlandırılıb. Şuşa sözünün etimologiyası ilə bağlı mövcud anlayışlar da maraq doğurur. Qədim Roma tarixçisi T.Korneliyə görə, bu, Qafqaz ərazisində yaşamış dondar türk tayfasına məxsus Sosu şəhəridir. Xalq əfsanəsinə görə, havası can məlhəmi, büllurtək saf olduğu üçün bu füsunkar şəhərə Şuşa (şüşə) adı verilib. Digər tədqiqatçıların fikrincə isə Şuşa sözü türk dilində mənası "uc", "yüksək", "şiş" məfhumu ilə bağlıdır.

***Şuşa XVIII yüzillikdə öz inkişafı, tərəqqisi ilə qonşu dövlətlərin də diqqətini cəlb edən şəhərlərdən idi. Zaman-zaman başı bəlalar çəkmiş Qarabağın, Şuşamızın tarixi ilə əlaqədar tədqiqatlar aparılıb, çoxsaylı əsərlər yazılıb. Tanınmış söz adamı, tənqidçi, ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor, həm də nəsr sahəsində qələm çalan, Qarabağ mövzusunda hekayələr ("Bir topa açar", "Qapımızın alın yazısı", "Taykeş çarığın nağılı" və s.) müəllifi Rüstəm Kamalın "Pənah xanın ruhu" adlı essesinin məlum əsərlər arasında xüsusi yeri var. Bu yazıda həmin esse barədə düşüncələrimi bölüşmək istəyirəm.***

Əvvəla onu deyim ki, Rüstəm müəllim filoloji esselərinin sırasına əlavə etdiyi yeni nəsr nümunəsində yurdumuzun Qarabağ regionunun bəlli bir zaman kəsiyində (XVIII-XIX yüzilliklərdə), konkret tarixi mərhələdə təşəkkül tapmasından, bu məkanın ədəbi-mədəni mühitinin tərəqqisindən bəhs edir. Adı çəkilən essedə oxuyuruq: "Şuşanın tarixi, əslində Pənah xanın ruhunun tarixidir. Pənah xan XVIII-XIX yüzillliklərdə Qarabağ insanının düşüncəsində "ilk əcdad", onun yaşadığı dövr "ilk zaman", "mifik zaman", Şuşa isə sakral və "ilk məkan" idi".

Müəllifin qənaətinə görə, Qarabağ dövlət kultunun əsasında məhz Pənah xanın kultu, bu fövqəltəbii xüsusiyyətlərə malik insana pərəstiş, rəğbət durur.

XVIII yüzilliyin ortalarından boy verən Şuşanın ilk çağlarında Pənah xan öz əshabələrini, necə deyərlər, qanadının altına almış, adil dövlət adamı kimi, sosial təsisatlar, ədalətli qanunlar yaratmış, fərmanlar imzalamışdır.

Essedə Qarabağın qurucusunun toplumun sabitliyinə nail olmaq üçün insanlar arasında tarixən formalaşmış sosial-mədəni münasibətlərin qorunub saxlanmasına, sayğısına da diqqətlə yanaşılır.

"Pənah xan xanlıqda, bütün ətraflarda nizam-harmoniyanın qarantı idi. O, Qarabağ xanlığının pozulmuş sahmanını bərpa etmişdi." Pənah xanKəbirli mahalında Bayat qalasının əsasını qoymuş, möhkəm hasar çəkdirmiş, xəndəklər qazdırmış, bazar, hamam, məscid tikdirmişdi. Bütün ailəsini, qohumlarını və el ağsaqqallarının əhl-əyalını oraya toplamışdı. Xanın öz təbəəsi ilə gözəl rəftarını, xanlığın tərəqqisini eşidən, ətraf ərazidə yaşayan camaat, həmçinin Təbriz və Ərdəbil vilayətlərinin əhalisi, sənətkarlar Bayat qalasına axışırdı.

Öz qəhrəmanının həyatını az qala bir macəra romanına bənzədən müəllif onun fövqəladə bacarığını, fədakarlığını diqqətə çatdırır: "Xorasandan, Nadir şahın əlindən qaçıb Qarabağa gələsən, burada bir dövlətin ? xanlığın əsasını qoyasan və düşmənlərlə qalibiyyətlə savaşaraq varlığını qoruyasan, Şuşa kimi möcüzə şəhər salasan", deyir Rüstəm Kamal və bütün bunları Tanrı sirri hesab edir. O, bu qurucu insanı Qarabağda ənənəvi həyatın dəyişməz adət-ənənələrini, milli örnəklərin ilkin nümunələrini formalaşdıran bir şəxsiyyət kimi də dəyərləndirir. Müəllif bu şəxsin əfsanələşdirilməsinə təbii hal kimi yanaşaraq, Qarabağ insanının xəyalında, düşüncələrində yaşayan mifik, əsatiri təsəvvürlərə haqq qazandırır, onun barəsində xalq rəvayətlərinin yarandığını xatırladır.



R. Kamal Pənah xanın Şuşanı yurd yeri, vətən kimi seçməsində onun qurub-yaratmaq, mühafizə etmək, tayfaya, boya məxsus olan qutsal ərazini - Şuşa qalasını göz bəbəyi kimi qorumaq missiyasını da önə çəkir.

Məhz bu səbəbdən Şuşa "uca dağ başında", dəniz səviyyəsindən 1800-2000 metr yüksəklikdə, üç tərəfdən təbii müdafiəsi olan, meşələrlə örtülmüş, bir tərəfdən uçurum, digər tərəfdən sıldırım qayalarla əhatə olunmuş bir məkanda salınmışdı.

Xanın bir neçə nəfər bilici və məlumatlı adamı qalanın yerini və ətrafını yoxladıqdan, buradakı iki-üç bulağı və digər su mənbələrini, quyular qazmağın mümkünlüyünü müəyyən edəndən sonra qalanın tikilməsinə qərar verilmişdi.

***Rüstəm Kamal qala üçün yer seçilərkən mövcud siyasi durumun qeyri-sabitliyinin nəzərə alınması fikrini də istisna etmir: "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu düşmən mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz kəsilməməlidir". Xan Şuşa qalasını M.P. Vaqifin təbirincə desək, "Şişə dağı"nda ucaldır. Mirzə Adıgözəlbəyin araşdırmasına istinadən müəllif yazır ki, hünərli ustalar, sənət sahibi və işbilən memarlar barı, bürc və divar çəkdilər. O divarların asarı (nişanəsi - Z.M) bəzi yerlərdə indi də durur. Xanlığın əlahiddə bayrağı, gümüş sikkəsi, damğaları, cəng vaxtı səslənddirilən döyüş nərələri vardı.***

Şuşa cəmiyyətinin tərəqqi etməsinin, qüdrətlənməsinin, əbədi varlığının təminatçısı olan Pənah xan Xorasan istiqamətində hərəkət edərək gələn qarabağlıları qarşılayıb onlar üçün qısa müddətdə yaşayış şəraiti yaradır.

Nadir şah tərəfindən Xorasana köçürülmüş Cavanşir elləri ... özbaşına bütünlüklə oradan köçüb, vətənlərinə gəlir. Mirzə Camal Cavanşirin yazdığına görə, "Pənah xan yanında olan adamlarla birlikdə Qarabağ ellərini qarşılamaq üçün İran və Azərbaycan sərhədinə qədər getdi. Onlar Qarabağ torpağına daxil oldular. Hər kəs öz əvvəlki yurduna gedib rahatlandı..."

Müəllif bu essedə Vaqif şeirinin diliylə digər mətləbləri də çatdırır:

*Noluydu kim, olaydım*
*qasidin qoynundakı kağız*
*ki, mən də Qələyə*
*bir yol gedəydim bu gedənlərtək.*

Bu şeir parçasından aydın olur ki, Şuşaya xalq arasında qısa şəkildə "Qala" ("Qələ") deyilirdi. Xanın ölümündən sonra onun hakimiyyətini davam etdirən oğluİbrahimxəlil xan Cavanşir (1763-1806) rusların Qarabağ torpağına müdaxiləsinədək atasının layiqli varisi kimi tanınır, öz hökmranlığı dövründə Qalanı böyüdür, elatı başına cəm edir, təbəəsinin rifahi üçün səylər göstərir.

Qarabağın dirçəlişində uzaqgörən, tədbirli Pənah xanın fəaliyyətini önə çəkən müəllif mədəniyyət tariximizin, sənətkarlığın təməl daşları qoyulan Şuşanın tədricən mədəni mərkəzə çevrildiyini, qonşu dövlətlərlə ticarət və iqtisadi əlaqələrin rövnəq tapdığını vurğulayır. Müəyyən zaman keçəndən sonra isə Şuşada ədəbi fikir korifeyləri həyat səhnəsinə çıxacaqdı.

Tarixin müxtəlif dönəmlərində öz təbii gözəlliyinə, zənginliyinə görə bəlalara, istilaya məruz qalmış Qarabağın elatı heç vaxt yadellilərə boyun əyməyib. Lakin aradan uzun bir vaxt keçmiş, zaman qılıncını çəkmiş, xəzan yelləri əsmişdi. Qarabağımıza susayan idbar nəfəsli erməni millətçiləri Şuşanı işğal etdikdən sonra şəhərimizin adını dəyişib "Şuşi" qoymuşdu.

Müəllif bu nəsr nümunəsində regionun müəyyən dövr üçün tarixi inkişaf yolunun gerçək mənzərəsini canlandırıb.

Müşahidələrim belə deməyə əsas verir ki, R.Kamalın fəhm etdiyi məqamlara, məziyyətlərə öz prizmasından yanaşmaq bacarığı da onun yaradıcılığının məziyyətlərindəndir. Müəllif belə bir fikri təlqin edir ki, Şuşanın sonrakı dövrünün inkişafı məhz keçmişə bağlıdır. O, öncəki inkişafın sonrakı tərəqqi üçün özül olması amilinə də həssaslıqla yanaşır, dürüst təhlillərə varır. Ən əsası isə söylədiyi nəzəri fikirləri tutarlı dəlillərlə möhkəmləndirir.

**"Qafqazın sənət məbədi", "kiçik Paris" adlandırılan Şuşamızın tarixini gözümüz önündə canlandıran esseist əsərin sonunda Qarabağın bugününə qayıdır. Müdrik Sərkərdəmiz, Prezident İlham Əliyevin və rəşadətli ordumuzun 44 günlük müqəddəs Vətən savaşımızla torpaqlarımızı işğaldan azad etidiyini, həm də yurd adlarımızı, toponimlərimizi yerinə qaytardığını (Suqovuşan, Çinarlı) vurğulayır. Müəllif hər şeyin gec-tez öz çevrəsinə döndüyünə, şuşalıların 29 ildən sonra öz müqəddəs yurdu Pənahabada - Şuşaya, həm də Pənah xanın müqəddəs ruhuna qayıdacağına inandığını söyləyir. Sonda qeyd etmək istərdim ki, son dövr nəsrimizin dəyərli örnəklərindən olan bu esse bütün yönləri ilə mühüm əhəmiyyət kəsb edir.**

# "O, Aşıq Şəmşir Ocağının ləyaqətli davamçısı və o ocağı çox urvatla daşıyan nəhəng simadır..."

***Azərbaycan Ağsaqqallar Şurasının və Yazıçılar birliyinin üzvü "Aşıq Şəmşir" mədəniyyət ocağı ictimai birliyinin sədri, şair, nasir-publisist Qənbər Şəmşiroğlunun 88 yaşı tamam oldu.***

Azərbaycan Aşıqlar Birliyinin sədri, Əməkdar elm xadimi, professor Məhərrəm Qasımlı Qənbər Şəmşiroğlunu halal ömür yaşamış adam kimi tanıdığını deyib: "Qənbər Şəmşiroğlu çox halal bir ömür yaşamış adamdır. Onun bütün gəldiyi yol əsl ziyalı, milli-vətənpərvər və sənət təəssübkeşi yoludur. Çünki böyük bir ustadın oğludur, Qənbər Şəmşiroğlu Aşıq Şəmşir kimi nəhəng bir sənətkarın ocağında dünyaya gəlib. Bu mənada o, gözünü açandan sənətin bütün sirrini, sehrini mənimsəyib və özüylə daşıyıb. Yaşının bu çağında belə 20-30 yaşında olan sənət gücüylə, istedadıyla yazır-yaradır. Mən onunla söhbət edəndə həmişə zənginləşirəm, çünki Qənbər müəllimin həyat təcrübəsi də çoxdur, müdrikliyi də olduqca güclüdür və həyatsevərliyi də. Onun qədər ikinci həyatsevər adam heç vaxt görməmişəm. Bir yarpağa baxar, bir çiçəyə, gülə baxar, çay axıb gedər, onun gedişindən böyük bir zövq alar. Bunun da əsas səbəbi odur ki, ruhu, kökü sənət zövqünə bağlıdır. O mənada Qənbər müəllimin şeirlərində də, kitabında da, danışdığı söz-söhbətlərində də hamısının içində onun böyük istedadı görünür. Mən Qənbər Şəmşiroğlunu Aşıq Şəmşir Ocağının ləyaqətli bir davamçısı və bu gün də o ocağı çox urvatla daşıyan nəhəng bir sima kimi görürəm. Onu bağrıma basıram, öpürəm, onun gözəl şeirlərini həmişə zövqlə oxumuşam. Qoy Dədə Qorquddan üzü bəri böyük ustadların hamısının ruhu ona kömək olsun və bundan sonra da yaradıcılıq eşqiylə yoluna, sənətinə davam etsin. Allah ömür versin".

Tanınmış alim, Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun direktoru Muxtar İmanov Qənbər Şəmşiroğlunu vətənpərvər bir ziyalı kimi tanıdığını deyib:

"Qənbər Şəmşiroğlu şair, ictimai xadimdir. O, Aşıq Şəmşir Ocağının nümayəndəsidir, Aşıq Şəmşirin övladıdır. Sovet dönəmində müxtəlif vəzifələrdə çalışıb. Müstəqillik dövründə yenə də müxtəlif vəzifələr daşıyıb. Amma bu gün onun daşıdığı bir vəzifə var və o da Aşıq Şəmşir Ocağının rəhbəri olmasıdır. Bu yöndə Qənbər müəllimin həmin ocaq vasitəsilə təşkil etdiyi bir çox tədbirlərdə yaxından iştirak etmişəm və o tədbirlərdə onu bir daha yaxından, təşkilatçı, vətənpərvər ziyalı kimi tanımışam. Kitabının təqdimatında iştirak edib onu şair, publisist kimi yenidən tanımışam və görmüşəm ki, şeirləri də ənənəyə bağlıdır. Aşıq Şəmşirin övladı olaraq o, birinci növbədə aşıq sənətinə bağlı olan bir insandır. Aşıq sənətinin ümumi poetik ənənəsindən gələn deyim tərzinə sadiq olan bir qələm sahibidir. Həm publisistikası, həm də şeirləri də belədir. Publisistikası da hardasa aşıq şeirinin dastançılıq ənənələri ilə səsləşən epik folklor ənənəsindən gələn bir çox xüsusiyyətlərini özündə əks elətdirir.

Onun tədbirlərində iştirak edəndə müşahidə etmişəm ki, Qənbər müəllim vətənpərvər ziyalı olaraq bizim işğal altında olan torpaqlarımızın, o cümlədən Kəlbəcər bölgəmizin qələm sahibləriylə, köçkünlərimizlə bir yerdədir. Onların qayğılarıyla maraqlanır. Burda aşıq sənəti və bununla bağlı tədbirlər, məclislər, söz sənəti, ümumiyyətlə, şeir, poeziya bizim işğal altında olan torpaqlarımızın işğaldan azad olunması yolunda onun istifadə etdiyi, bəhrələndiyi mühüm silahlardan biridir. O, şeirlər vasitəsilə insanları ruhlandırmaq, qayğılarıyla maraqlanmaq, kömək etmək, digər tərəfdən xalqı ayaqda saxlamağa sövq etmək və çağırış edərək demək ki, əvvəl-axır o torpaqlara qayıdacağıq. Bütün bunlar təqdirəlayiqdir. Qənbər müəllimin gördüyü bu işlər çox mühüm işlər idi və şükürlər olsun ki, bizim hamımızın bu tədbirlərdə söylədiyimiz o arzular 44 günlük Vətən savaşında həyata keçdi. Biz zəfərlə bu savaşı başa çatdırdıq, Ali Baş Komandanın rəhbərliyi altında müzəffər ordumuz torpaqlarımızı, o cümlədən Kəlbəcərimizi işğaldan azad etdi.

Bu gün Qənbər müəllim yaşının ahıl vaxtında yaşayır, onu ad günü münasibətilə təbrik edirəm, can sağlığı arzulayıram. Hesab edirəm ki, Qənbər müəllim kimi ziyalılar xalqın ayaqda qalmasında, ruh yüksəkliyi ilə yaşamasına, yaratmasına kömək edən bir ziyalılarımızdır. O ziyalıların sırasında həmişə Qənbər müəllimi görmüşəm. Onun əhatəsində olan ziyalıları da o ailəyə, o ocağa yaxın ziyalılar kimi görmüşəm. Həmişə görmüşəm ki, o ocaqla bağlı olan ziyalılar xalqın içindədir. Qənbər müəllimə həm yaradıcılığında, həm də həyatında uğurlar arzulayıram. Arzu edirəm ki, ömrü uzun olsun, yüz yaşasın. Əvvəlki enerjiylə, həvəslə yazsın-yaratsın".

Millət vəkili, şair-publisist Musa Urud da saytımıza açıqlamasında Qənbər müəllimin ömrünün təhsilə, tərbiyəyə və dövlətçiliyə bağlı olduğunu bildirib:

"Dədə Şəmşir Ocağının layiqli yetirməsi Qənbər müəllim Azərbaycanın tanınmış ziyalılarından və ağsaqqallarından biridir. Qənbər müəllimin bütün ömrü boyu fəaliyyəti təhsillə, tərbiyəylə, ziyalılıqla, yaradıcılıqla, dövlətçiliklə bağlı olub. İlk gənclik illərindən Kəlbəcərin müxtəlif məktəblərində müəllim və məktəb direktoru, sonrakı müddətlərdə isə dövlət və partiya işində çalışan Qənbər müəllim, öz sadəliyi, vətənpərvərliyi, ziyalılığı ilə təkcə Kəlbəcərdə deyil, bütün Azərbaycanda nüfuz, hörmət qazanmış dəyərli ziyalılarımızdan biridir. Onun həm də bədii yaradıcılığı olduqca rəngarəngdir, həm şeirləri, həm publisistikası, həm də nəsri sevilə-sevilə oxucular tərəfindən oxunur və qiymətləndirilir.

**Eyni zamanda, Qənbər müəllim Kəlbəcər işğal olunandan sonrakı dövrdə təkcə Kəlbəcəri deyil, bütövlükdə bizim şifahi xalq ədəbiyyatımızı, folklorumuzu yaşadan Dədə Şəmşir Ocağını yaratdı və bunun vasitəsilə təkcə milli mədəniyyətimizi təbliğ etməklə kifayətlənməyərək, həm də böyük sosial və xeyriyyəçilik fəaliyyəti ilə də məşğul oldu. Məcburi köçkünlərimizin**



**sosial məişət həyatının yaxşılaşdırılması, hərbçilərimizə, qazilərimizə, şəhid ailələrinə dəstək göstərilməsi, xüsusən 44 günlük Vətən müharibəsində və ondan sonrakı dövrdə Qənbər müəllimin və onun rəhbərlik etdiyi təşkilatın olduqca, böyük xidmətləri olub. Eyni zamanda, Qənbər müəllim türk dünyasının mədəni irsinin qorunması, birləşdirilməsi və zənginləşdirilməsi istiqamətində də dəyərli fəaliyyət göstərib. Deyərdim ki, Qənbər müəllim ona görə xoşbəxt insandır ki, Dədə Şəmşir Ocağından öyüd, tərbiyə almış, ordan pərvəriş tapmış və eyni zamanda, o nəslin dəyərli ənənələrini də bir varis olaraq davam etdirərək, öz övladlarına ötürə bilib. Layiqli vətəndaş və milli-ruhlu övladlar, nəvələr yetirmişdir. Qənbər müəllimi ad günü münasibətilə təbrik edirəm, ona möhkəm can sağlığı, uzun və faydalı ömür arzulayıram".**

**Vasif Əlihüseyn**
**moderator.az**

*Qənbər ŞƏMŞİROĞLU*

## SALAMLARIM VAR

*Şahdağdan üz tutub Murova baxdım,*
*Bu taydan o taya salamlarım var.*
*Kəpəzin o üzü gözəl diyarda,*
*Düşmən tapdağında qalanlarım var.*

*Odu kirpiyində götürənlərim,*
*Həsrətlə köksünü ötürənlərim,*
*Çoxdan əzizini itirənlərim,*
*Ah çəkib saçını yolanlarım var.*

*Elin köməyilə çörəklənmişəm,*
*Dirçəlib, dirçəlib zirəklənmişəm,*
*Orduma baxaraq ürəklənmişəm,*
*Bilirəm qanımı alanlarım var.*

*Eşitdim gücünü, gördüm hünərin,*
*Qənbərəm, sevdiyim sərkərdələrin.*
*Həddini bilməyən nanəciblərin*
*Canına vəlvələ salanlarım var.*

## GƏZDİM

*Dastan məclisində, el məclisində*
*Söz sərrafə olan dədəmi gəzdim.*
*Döşəyin üstündə bardaş oturub,*
*Şirin dinlədiyim vədəmi gördüm.*

*Elə mahir idi sözdə, seçimdə,*
*Səhvə yol verməzdi ölçü-biçimdə,*
*Astaca-astaca evin içində*
*Atdığı mübarək qədəmi gəzdim.*

*Həmişə nəsihət eşitdim ondan,*
*Kim incik qalardı belə adamdan?!*
*Uyğunsuz qəbahət etdiyim zaman*
*Mənə eylədiyi hədəmi gəzdim.*

## BİR ÖMÜR - BİR DÜNYA

Həyat yoldaşım Diləfruz Məcid qızına

*Kökün naxçıvanlı, südün cənublu,*
*Şəmkirdə dünyaya təşrif buyurdun.*
*Ananı itirdin körpəliyində,*
*Nənənin yanında durdun, oturdun.*

*Çoxu səndən abır-həya götürdü,*
*Qismətini tale özü yetirdi,*
*Allaha şükürlər bəxtin gətirdi,*
*Səxavətlə ac qarınlar doyurdun.*

*Qaynanan da Güllü, nənən də Güllü,*
*Səni öyrətdilər çox şirin dilli,*
*Hər birini sevdin özün könüllü,*
*Əql-kamal ilə ev-eşik qurdun.*

*Mahir oldun qohum-qardaş seçimdə,*
*Səhv etmədin bir ölçüdə, biçimdə,*
*Gəlinlər içində, qızlar içində*
*Məhəbbətlə xeyirxahlıq yoğurdun.*

*Eşitmədim artıq giley-güzarı,*
*Əzizlədin mənim kimi yazarı,*
*Doğru seçə bildin mərdimazarı,*
*Yeri gəlsə, başına kül sovurdun.*

## QAĞA

Gənclik dostum Vəliyəddin İsmayılova

*Çəkilmişəm şəhərlərin qoynuna,*
*Hələ yaşayıram birtəhər, qağa!*
*Sayıram günləri, keçir birbəbir,*
*Durub gəzişirəm hər səhər, qağa!*

*Beş aydı dostları görə bilmirəm,*
*Zəng olur, cavab da verə bilmirəm,*
*Gedim hansı səmtə, yerə, bilmirəm,*
*Düşmüşəm obadan dərbədər, qağa!*

*Eyləyib könlümü dərd dəlik-dəlik,*
*Dözüb tablayıram, inan, hələlik,*
*Belə yaşayıram birtəhər, qağa!*

*Allaha min şükür, igidlərim var,*
*Çətinlik çəkməyə qoymayır onlar,*
*Hayana üz tutsam yanımdadırlar,*
*Məni nə qəm boğur, nə kədər, qağa!*

*Çin olsun, Qənbərin bir arzusu var,*
*Deyəsən: - Ay qağa, çoxdu qonaqlar!*
*Bizi qarşılaya yenə bulaqlar,*
*Qoyaq at belinə bir yəhər, qağa!*

## QALDI

*Mənim bu diyara qonaq gəlməyim,*
*Məmməd Araz demiş, bəlkəyə qaldı.*
*Tək bircə sətirim qalsa yadigar*
*Deyərdim: şükürlər, ölkəyə qaldı.*

*Qayıdıb enirik arana doğru,*
*Çiçək-gül bitirməz şorana doğru.*
*Qaçırıq küləklər vurana doğru,*
*Ümidlər yenə də kölgəyə qaldı.*

*Hanı, görünməyir dumanlı dağlar,*
*Hədər danışmağın nə mənası var.*
*Suyu bal şərbətli sərin bulaqlar*
*Qənbərin sevdiyi bölgəyə qaldı.*

## OLMUŞAM

*Daha əlim yetmir, dağ düşməndədir,*
*İsti torpaqlarda aran olmuşam.*
*İçmədim bu yerin axmaq suyundan,*
*Mən də torpaq kimi şoran olmuşam.*

*Ta gedə bilmirəm yurduma sarı,*
*Zaman əldən alıb bu ixtiyarı.*
*Suyunu içdiyim buz bulaqları*
*Qatar durnalardan soran olmuşam.*

*O yerdə müqəddəs çörəyim qalıb,*
*Qanıma bələnmiş köynəyim qalıb,*
*O köynək içində ürəyim qalıb,*
*Artıq ürəyimdə taran olmuşam.*

*Az qala gözümdə itib görkəmi,*
*Qəlbimdə yaratək bitib görkəmi.*
*Zirvədə hayqıran qar-boran kimi*
*Aranda özüm də boran olmuşam.*

*Tapdanıb elimin namusu, arı,*
*Başını qalxıza bilmir yuxarı.*
*O yerdə dağılan yurd-yuvaları*
*Qənbər, xəyalında quran olmuşam.*

## BAXMIR ÜRƏK

*Məndən inciyib, küsüb,*
*Sözümə baxmır ürək.*
*Nə hallara düşmüşəm,*
*Özümə baxmır ürək.*

*Yamac-yalım qalmayıb,*
*Xoş əhvalım qalmayıb,*
*Daha halım qalmayıb,*
*Dözümə baxmır ürək.*

*Danışmağa qorxuram,*
*İllər üçün darıxıram,*
*Dosta doğru baxıram,*
*Gözümə baxmır ürək.*

## SƏN NƏSƏN

*Yurd üçün, yuva üçün,*
*Bir bülbüləm, sən nəsən?!*
*El üçün, oba üçün*
*Şirin diləm, sən nəsən?!*

*Diqqət ilə baxılmağa,*
*Yanmağa, yaxılmağa,*
*Saçlara taxılmağa*
*Qızılgüləm, sən nəsən?!*

*Səfərlərə varmağa,*
*Qoşunu qaytarmağa,*
*Düşməni aparmağa*
*Daşqın seləm, sən nəsən?!*

## MƏN QOCALMIŞAM

*İyirmi il keçdi, bir də görüşdük,*
*Sən həmənki sənsən, mən qocalmışam.*
*Qəddi-qamət yerindədi büsbütün,*
*Yenə can alansan, mən qocalmışam.*

*Deyirlər ki, həsrət çəkir o, yenə,*
*Deyirsən ki, həsrət çəkir, mənə nə!*
*Çoxları səni bənzədirlər sənəmə,*
*Doğrudan sənəmsən, mən qocalmışam.*

*Nazla can almağa yüz əməlin var,*
*Ala gözlərin var, incə belin var.*
*Şirin-şirin nəğmə deyən dilin var,*
*Bülbültək ötənsən, mən qocalmışam.*

## SÖYLƏYİB

*Məhəmməd Quranı vəhy eləyəndə*
*Diriləri qandırmağa söyləyib.*
*Böyük Yaradanın kəlamlarını*
*İnsanlara andırmağa söyləyib.*

*Quran söylənibdi ərəb dilində,*
*Bir anda yayılıb Şərqin elində.*
*İnsana köməkdi hər əməlində,*
*Doğru kəsə dindirməyə söyləyib.*

*Deyib ki, Qurana qulaq asın siz,*
*Qoy zikriniz olsun gecə və gündüz.*
*Allah kəlamını dərk eləyin düz,*
*Şeytanları dondurmağa söyləyib.*

*Gecə-gündüz məşğul olun əməklə,*
*Deyib sevin "Ya bir Allah!- deməklə".*
*Məhəbbətlə, sədaqətlə, istəklə*
*Ürəkləri doldurmağa söyləyib.*

# Bir zamanlar Ağdamda...



*Emin Piri*

### I

*Əsgər sinəsi axtarır*
*isinməyə*
*fevral şaxtasından*
*üşüyən güllə.*

Elə fevral ayı olardı o əsgərin özünü gülləyə vətən etməsi…."Sağ qalan varmı?!" şeirimdəndir bu parça. Elə şeirlər kitabımın adı da"Sağ qalan varmı?!" idi.

Ağdamda səngər həyatımız davam edirdi. Ötən ildən, Vətən Müharibəsindən fərqli olaraq metr-metr səngər irəli çəkməyin sevincini yaşayırdıq. Hər dəfə bir neçə metr irəli səngər çəkmək bizə hansısa kəndi azad etməyin sevincini verirdi. Daha irəlidə post qurmaqsa sanki bir rayon, şəhəri azad etməyin ekstazını yaşadırdı. Bu səngərlərin çəkilməsini zamana böləndə, düşmən qarşısında gecələrlə səngər qazmaq sanki iynəylə eşələnmək idi. Bəzən bir neçə metr irəli səngər çəkmək günlərlə də deyil, aylarla zaman alırdı. Əlbəttə, bu səngər çəkmələr itkisiz başa gəlmirdi. Nəmirli və Şurabad kəndinin sol cinahı tərəfdə bu dəfə digər bölməyə tapşırılmışdı səngər işi. Gecə vaxtı və snayper gülləsi bir gəlinliyi əbədi sahibsiz qoydu. Bir sevən qızın arzularını özüylə birgə apardı. Bəlkə də düşmən silahında üşüyən güllə əsgər sinəsində qızınmağa yer axtarırdı. Beləcə bu şeirim meydana gəldi.

Həyat bu qədər fanidir, kiminsə sevərək oxuduğu, kiminsə həzz aldığı şeirlərin altında hansısa faciə, ananın göz yaşı və ya qan dayanır.

### II

### *"alo, alo, alo…"*

İllərdi gecələr yuxudan təngənəfəs oyanırdım. Bəzən tər içində, bəzənsə boğulmaq üzrəykən... Bu oyanmalar 2010-cu ilin əvvəlindən 2020-ci ilin sentyabrına kimi davam etdi. Əvvəlki illər hər gecə, sonra həftədə bir, sonrasa, ayda 1-2 dəfə yuxularıma haram qatan bir qız idi. Üzünü görmədiyim, heç zaman rastlaşmadığım bir qız. Daha doğrusu, bir qızın səsi. O, heç nə danışmır, hesabını bilmədiyim sayda "alo, alo, alo...". Yuxularıma haram qatan bu "alo"lar idi. Axı, kim idi bu qız, niyə hər gecə yuxularımda "alo" deyərək qışqırır və mənə əzab verir?!

Vətən müharibəsi məni bu əzabdan qurtardı. Daha o yuxuları görmürəm, kimsə yuxumda "alo" deyə qışqırmır. İndi öz əzablarım, öz yaşantılarım, bu müharibədə gördüklərim yuxumu qarışdırır. Vətən müharibəsi təkcə Qarabağı deyil, məni o qızdan, o səsdən xilas etdi.

2010-cu ilin qışı... Ağdam. İşğal olunmuş kəndlərin qarşısı... Səngər həyatımız davam edir. Burada başını səngərdən qaldırmaq ya hansısa snayperin sinəsinə medal taxmaqdır, səngərdən qırağa çıxmaqsa, ayaqlarını minalar üstündə unutmaq.

Niyə 2010-cu ilin hadisələrindən indi bəhs edirəm - deyə bilərsiniz. Keçmişdə etdiyim qaralamalarıma maraq Vətən müharibəsi zəfərindən sonra maraq oyatdı. Həm də əvvəl bunlara elə də həvəsli deyildim. Çünki məğlub bir ölkənin səngər həyatından bəhs etməyi ya özümə yaraşdırmır, ya da utanırdım. Axı kimə nəyi sübut edəcəkdim? Utanırdım... Məğlub bir ölkənin zabiti kimi xatirələr dərc etməkdən. Eləcə səngər şeirlərimlə ovunurdum. Hə, bu müharibə məni həm şeirlərlə ovunmaqdan, həm də yuxularımdakı qızın səsindən xilas etdi...

Müşahidə postunda duran əsgər anidən qışqırdı; - "Komandir, erməni". Dərhal müşahidə postuna çıxdım. Postda ermənini görmək sizə nə qədər qəribə gəlsə də, arzuladığın əzizini görməklə müqayisə edə bilərdim. Yox, yox, o ermənini bağrımıza basmaqçün deyil, gülləyə tuş etməkçün.

Tr-8-lə müşahidə apardıq. Bir əli cibində, birindəsə telefon qulağına söykəyərək hərəkət edir.

Hərəkət edir deyirəmsə, gövdədən yuxarını görürük. Özünü o qədər itirib ki, düşmən valının arxasından çıxdığının fərqində deyil.

Axı, adam kiminlə belə danışıb dünyanı unudub öz səngərini tərk edə bilər? Anasımı, sevgilisimi, bacısımı? Onun özündənrazı, tərki dünya olaraq harda olmasını unutması adamın ağlına yalnız sevgilisini gətirə bilir. İnsan onun etdiklərini sevgilisi ilə danışanda edə bilər...

Bu qədər danışmağıma baxmayın, bu qədər düşüncə bir an ərzində baş verir. Vuraq? Ani olaraq beynimin içindəki düşüncələr mənə imkan vermir? Bəlkə danışdığı adam anasıdır? Və həmin vurulsa... Ya da sevgilisi? Bu elə ən böyük sevgi qətliamı olar. Telefonun qarşısındakı şəxsin o vurulduğu an keçirəcəyi hissləri ağıla gətirmək belə mümkün deyil. Bəs, o əsgərin yerində biz olsaydıq? Danışdığımızsa sevgilimiz, anamızdırsa?

Bəlkə də, bütün bu düşüncələr bir saniyəlik zaman intervalı olmadan ildırım sürətilə beynimin bir guşəsindən keçir. Amma...

Erməni əsgəri ordadırsa, əminəm ki, bizi görsə, böyük sevinc hissi ilə vurardı. O burdadır ki, o ona görə vurar ki, bir azərbaycanlının vurulması onunçün medaldır, məzuniyyətdir, özgüvən hissidir, gələcəkdə karyerada yüksəlişdir, məclislərdə özünün və qohumlarının bu hadisədən genələ-genələ danışması, erməni TV-lərində bol-bol öz qəhrəmanlığından danışmaqdır.

Vuraq? Snayper başından nişan aldığını bildirir. Vur!..

Səngərdə əsgərlərimiz atışdan sonra "ura!" deyə qışqırır, sevinir, sonrasa ani boşluq. Rabitə ilə koordinatı verib məruzə edirik.

Atəşkəs dövründə belə atışlar zamanı koordinat məruzə olunur, vurulmanın dəqiq olub-olmadığını gözləyirdik. Bizə lazım olan xəbərin təsdiqlənib-təsdiqlənməməsidir. Bir neçə saat gözləyir, bu hadisənin nə ilə sonuclanacağından səbrsizlənirdik. Amma nə deyilsə də, atışdan sonra onun necə yerə sərildiyinin gözümüzlə şahidi olduq, axı, - deyirəm özüm-özümə.

Axşama yaxın rabitə ilə xəbər verilir ki, verdiyiniz xəbər təsdiqini tapıb, vurmusunuz. Sevinclər yenidən artır... Qeyd olunası xəbərdir.

Həmin gecəni aşağıdan gətirtdiyim yeyib-içməklə qeyd edirik. Bir növ səngərdə bu xəbərə əsl qonaqlıq verirəm. Ölüm xəbərinə sağlıqlar deməklə.

Səhv etmirəmsə, Dövlət radiosunun axşam buraxılışıdır. Verilən xəbər sağlıqlarımıza qoşulur. Atəşkəs pozulub, düşmən təxribatının qarşısı alınıb, düşmən hərbi qulluqçusu "..." məhv edilib.

***(Əlbəttə, istəyən şəxslər bu adı, yeri və s. arxiv materialına əsasən əldə edə bilər. Burada bu məlumatı, adı olduğu kimi vermək həm etik, həm də bəzi məsələlərə görə doğru olmadığından hallandırılmır).***

Səngərin bir köşəsinə çəkilirəm. Kimsənin məni görməyəcəyi bir küncünə. Özümdən asılı olmadan ağlayıram. Bütün gecəni.

Həm sevinmək, həm də ağlamaq. Axı mən kimə ağlayıram belə? Məni ağladan kimdir, hansı hisslərdir? Kimə ağlayıram belə? Ölən erməniyə, ölən sevgiyə, yoxsa nəyə? Bəlkə elə özümə? İçimdə qopan fırtınaya cavab tapa bilmirəm...

O gündən sonra yuxularımda kimsə, daha doğrusu, bir qız "alo, alo" deyərək qışqırır. Mənsə təngnəfəs, tər içində oyanır, mətbəxə keçir, su içir, bəzən ağlayır, bəzənsə siqaret yandırırdım... 2020-ci ilin sentyabrına kimi... Məni kölgə kimi izləyən o qız, o səs qeybə çəkilib. Artıq öz əzablarımı görürəm, öz əzablarım yuxudan oyadır məni...

...Yenə belə əmr verə, yenə belə edərdimmi? Mütləq ki, bəli. Yenə öldürərdik, yenə bu ölüm xəbərinə qonaqlıq verərdim, yenə də səhərə kimi ağlayardım...

### III

### *Səngər şəhidi*

Tağım komandiri kimi iki kəndin qarşısındakı mövqeləri qorumaq bizim heyətin üzərinə düşür. İki həftədən bir yerdəyişmə olur. Gah bu iki kənddən birinin, gah da o birinin qarşısındakı səngərlərdə oluruq. Hər kəndin qarşısında üç post var. Hər tağıma üç post düşürdü. Bir postda bir tağım komandiri ilə bir manqa, digərində tağım komandirinin müavini(gizir) ilə digər manqa, üçüncü postdasa MAXE-nin başçılığı üçüncü manqa. Bu üç posta postlar başılıçığı dövründə üç kərə erməni vuruldu. Daha doğrusu təsdiqlənən vurulmuş erməni sayı üç oldu.

Həmişə içimizdə bir qorxu vardı, bunun bir bədəli nə zamansa olacaq...

Təzə tərxis olunmuşdum. Bir neçə gün keçmişdi. Çavuşlarımızdan Məmmədova zəng etdim. Dəfələrlə zəng çatmadı. Zabit yoldaşımız Xantəmirova zəng etdim, Məmmədov şəhid olub cavabıyla qulağım cingildədi...

Bədəl verilmişdi...

Ağdam torpağı bərəkətli və bolsulu idi. Yağışlar vaxtı, qar əriyəndə bütün axıntı səngərə dolurdu. Bəzən səngərdə su dizə çatırdı.

Beləcə, nə hərəkət etmək olurdu, nə də yemək təminatı düzəməlli. Çörək də belə havalarda palçıq qarışıq olurdu. Bir növ peç üstündə palçıqlı çörəyi yenidən bişirərək yeyirdik. Ac vaxtlarımızda restoranda yediyimiz çörəkdən daha dadlı idi o palçıq-çörək.

Hə , onu deyirdim, belə havalar, palçıqlı,yağışlı günlər ermənilər üçün ov vaxtı, qisas günləri olurdu. Çünki yağışdan sonra səngərlər, üstü, bermalar dağılır. Bizsə o səngərləri, bermaları yenidən düzəltməyə çalışırdıq.

Belədə gülləyə tuş gəlməmək şans məsələsi olurdu. Bununçün gecə vaxtları seçirdik. Həmin dövrün texnoloji vasitələri indiki qədər deyildi, amma hər zaman gecə görmə cihazından istifadə etmələri mümkün idi. Necə ki, bəzən istifadə etmişdilər. Ya da təsadüfi səngər boyu səpələmə atəşə tutmaq.

Çavuş Məmmədov da belə günlərin birində boğazından vurularaq şəhid oldu.

### IV

### *Ev yıxan şərab çənləri*

Ağdamda sovet dövründə üzümçülüyün hansı formada inkişaf etdiyini bilirsiniz. Mövqelərin qarşısında iki böyük keçmiş çaxır çəni var idi. Hündürlüyü 10metrdən çox olardı. Gedəndə öyrənmişdim ki, adətən o çənlərin üzərində ermənilər snayper yerləşdirir...

Elə snayper atışları da məhz ordan olurdu çox vaxt.

O çaxır çənləri çox evə od salmışdı...

Bəlkə simvolikdir, şərab müharibəsiz də, mülki həyatda da çox evi yıxıb...

### V

### *Biz qaldırırıq, onlar vurur*

Üzümlük deyilən ərazi vardı. Səngər irəli çəkməklə həmin üzümlük ərazisində mövqemiz ermənilərin bölük dayaq məntəqisinin 26 metliyinə çatmışdı. Gecələr orada "pasinka"lardan müşahidə postu qaldırırdıq. Səhərsə ermənilər oranı qumbaratanlardan atəşə tuturdu. Belə hallar, belə "hərbi oyunlar" dəfələrlə təkrarlanırdı; Biz gecələr qaldırırdıq, onlarsa gündüzlər vururdu...

### VI

### *Ay piri...*

**Gizirimiz, tağım komandirinin müavini Əmirxanovla hərbi münasibətlərdən əlavə səngər dostluğum da vardı. Mənə qısaca olaraq Piri deyirdi. Ya da uzaqdan çağıranda "ay piri" deyə. Bəzən bir-birimizi bərk çağıranda cəmi bir neçə metrlik məsafədə bizim adları yəqin ki, ara-sıra eşidirdilər qarşı tərəfdə...**

**Üzümlük dediyim ərazidən keçəndə qarşı tərəfdən eşitdiyim səs tüklərimi biz-biz etdi. Ay piri, Ay piri; qışqırırdılar erməni valının arxasından.**

**Səngər həyatımdan sonra Piriyev Emin Emin Piri imzasına çevrildi beləcə. Piri adı gizirimizin mənə müariciətindən sonra doğmalaşmışdı. Qarşı tərəfindən səsləməsindən sonrasa "PİRİ" şeirlərimin imzasına çevrildi.**

# "Türk Dövlətləri Təşkilatının qarşısında yeni hədəflər durur"

**Türk Dövlətləri Təşkilatının fəaliyyəti türk dünyasının daha da möhkəmlənməsinə xidmət edəcək. İstanbulda keçirilən 8-ci zirvə toplantısında qəbul edilən "Türk dünyasına baxış - 2040" sənədi isə bu təşkilatın gələcək perspektivini müəyyənləşdirəcək. Türk Şurası bu gün böyük coğrafiyanı əhatə edir, böyük iqtisadi, siyasi, hərbi gücü ehtiva edir. Təşkilatın qarşısında yeni hədəflər durur. Zirvə toplantısında da bəyan olunduğu kimi, ortaq tarixə və mədəniyyətə sahib qardaşları ayıra biləcək heç bir hüdud yoxdur. Türk dünyası artıq ortaq gələcəklərini inşa edirlər. Heç kim Türk Dövlətləri Təşkilatının varlığından narahat olmamalıdır, tam əksinə bu təşkilatın bir üzvü olmağa çalışmalıdırlar - İstanbul zirvəsində verilən əsas mesajlardan biri də bu oldu. Türk dünyasının birliyi dünyaya yalnız sülh və firavanlıq gətirə bilər.**



Azərbaycanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi dövründə də dünya bunun şahidi oldu. Təsadüfi deyil ki, hələ 2009-cu ilin oktyabrında türkdilli dövlət başçılarının Naxçıvan Zirvə görüşündə Prezident İlham Əliyevin də söylədiyi kimi, qədim yurdumuz Zəngəzuru Azərbaycandan ayırıb Ermənistana birləşdirilməsi demək olar ki, böyük türk dünyasını coğrafi baxımdan parçaladı. Yəni, türk dünyasının vahid bir ailə, vahid bir qüvvə kimi fəaliyyəti onilliklər ərzində dayandırılmışdır. Azərbaycanın İkinci Qarabağ müharibəsində qazandığı qələbə bütün türk dünyasının qələbəsidir. İstanbul zirvəsində də qeyd olunduğu kimi, Zəngəzur dəhlizinin yaradılması təkcə iqtisadi deyil, həm də böyük siyasi əhəmiyyət daşıyan hadisədir. Azərbaycan faktiki türkdilli dövlətlər arasında coğrafi bağlılığı bərpa edib.

Türk Şurasının Naxçıvandan başlanan inkişaf yolunda Prezident İlham Əliyev böyük əmək sərf edib. 2019-2021-ci illərdə təşkilata sədrlik edən Azərbaycan qurumun inkişafına, onun coğrafiyasının genişlənməsinə, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsinə, əlaqələrinin artmasına önəmli töhfələr verib.

Türk Şurasının digər mötəbər beynəlxalq təşkilatlarla faydalı əməkdaşlığın qurulmasına da nail olunub. Məlum olduğu kimi, artıq şura rəsmi şəkildə təşkilata çevrildi. Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq. Bunun üçün kifayət qədər perspektivlər var. Prezident İlham Əliyevin də söylədiyi kimi, bizim işbirliyimiz səmimidir, biz hamımız qardaşıq, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk və bu birlik, qardaşlıq gündən-günə möhkəmlənir. Sammitdə ən vacib məqamlardan biri müzəffər Ali Baş Komandan İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması idi. Türkdilli ölkələrin Dövlət Başçıları Şurasının Qərarı ilə belə bir qərarın qəbul olunması Azərbaycan Prezidentinin şəxsiyyətinə, Türk dünyasında liderliyinə, beynəlxalq miqyasda və türkdilli dövlətlər arasında olan yüksək nüfuzuna verilən qiymət idi. Prezident İlham Əliyevin bu ali mükafata layiq görülməsi Azərbaycanın Vətən müharibəsində tarixi qələbəsidir. Eyni zamanda bu, dövlət başçımızın Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən, bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbənin əldə olunmasındakı misilsiz xidmətlərinə verilən qiymətdir.

Azərbaycan bu ali mükafatı sözün həqiqi mənasında haqq edib. Çünki ölkəmiz hər zaman türk dünyasının birliyi istiqamətində mühüm addımlar atıb. Prezident İlham Əliyev türk dünyasında uzaqgörən, məqsədyönlü, prinsipial lider kimi nüfuz qazanıb.

**Könül Nurullayeva**
**Milli Məclisin deputatı**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 88 (2269) 20 noyabr 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# İŞĞALDAN XİLAS OLMUŞ HADRUT

**Bu gün Azərbaycanda bu qəsəbəni demək olar ki, hamı tanıyır. Xüsusilə 27 sentyabr 2020-ci il tarixli Böyük Vətən Müharibəsi başlayandan sonra işğal altındakı ərazilərimiz birmənalı şəkildə gündəmi zəbt etdiyindən böyüklü-kiçikli hər kəs bölgəni bir növü "səyahət" etdi. Kimi xəritədə, kimi xatirələrdə, kimi də dost-tanışdan eşitdiyi söz-söhbətdə. Konkret şahidi olduğum mənzərə bu idi ki, "Ədalət" qəzetinin redaksiyasında divardan asılmış məmləkətin iki fərqli xəritəsinin önündə hər səhər az qala növbə yaranırdı. Hamı döyüş əməliyyatlarını bu xəritədən izləyirdi. Bax onda çoxlarının tanımadığı və yaxud harada yerləşdiyini bilmədiyi Hadrut qəsəbəsi də gündəmə gəldi...**

Mən sovet dönəmində coğrafi ərazi vahidi kimi Dağlıq Qarabağ Muxtar Vilayətinin rayonlarından biri olan Hadrut rayonunda doğuldumdan bu rayonun mərkəzi olan Hadrut qəsəbəsini də çox gözəl tanıyıram. Necə deyərlər, az qala bütün ərazisini qarış-qarış gəzmişəm. Xüsusilə xan çinarın altındakı çay evi hər zaman yuxuma girirdi. Ona görə də Azərbaycan prezidenti cənab İlham Əliyev Hadrut qəsəbəsinin işğaldan azad olunduğunu bəyan edəndə elə bildim ki, orta məktəb illərim, gəncliyim geri qayıtdı. Çünki...

Gözümün önünə gətirirəm... Son dərəcə qəribə mənzərəsi var Hadrutun. Dağların qoynunda yerləşir, bir az da dağların sinəsində. Buranın təbiəti elədir ki, dağlardan üzü aşağı meşə gəlir. Lap gəlib daxil olur Hadrutun içərisinə. Aşağıdan üzü yuxarı üzüm bağları, tut bağları qollarını açır Hadruta tərəf.

Üstəlik, Hadrutun içərisindən axıb gedir Odlu çaya birləşən çay boyu qoz ağacları bir-birinə sarmaşıb. Arasından külək də keçmir. Bu, təbiətin bir möcüzəsidir.

Elə yeri gəlmişkən, bir haşiyə çıxım. Nədənsə Hadrut qəsəbəsinə düşən hər kəs mütləq qəsəbənin mərkəzi sayılan çinarın dibində mütləq çay içməli idi. 30 qəpiyə bir çaynik çay alırdın və az qala indi satışda olan qəndlərin dörddə biri ölçüdə xırda qəndləri çayçı gətirib qoyardı nəzakətlə qarşına.

Biz də hərdən şıltaqlıq edərdik, qəndi üç-üç qoyardıq ağzımıza. Çayçı hay-həşir salardı və guya əzizləyirmiş kimi deyərdi:

- Ay tork, (yəni türk - Ə.M.) bu çay içmək üçündü, yemək üçün deyil...

Təsəvvür edin ki, biz gülürdük və onun bizi türk adlandırmasına o qədər də önəm vermirdik. Sən demə, elə həmin illərdə artıq erməni dəyirmanı öz işində imiş...



*Bəli, Hadrutun coğrafiyası elədir ki, bir damla suyu da tutiyə sayıla bilər. Torpağının barı-bərəkəti yığıb-yığışdırmaqla bitən deyil. Təsəvvür edin ki, burada şərab emalı zavodu, şirə zavodu, dəyirman, böyük və müasir xəstəxana, poçt rabitə mərkəzi, bank, üçmərtəbəli məktəb, eləcə də dövlət qurumlarına aid bütün inzibati binalar çox yüksək zövqlə inşa edilmişdi. Burada sovet sərhəd qoşunlarının zastavası da yerləşdiyindən qəsəbə daha çox müasirlik təsiri bağışlayırdı. Bir tərəfdən rus zabitlərinin ailələri burada yaşayır, övladları təhsil alır, digər tərəfdən rayonun aurası xüsusilə yayda çoxlu qonaq-qara cəlb edir. Və bu da qəsəbənin həmişə diqqətli olmasına, abadlıq-quruculuq işlərinin nəzarətdə saxlanmasına bir ipucu verirdi.*

Bu gün işaldan azad edilmiş Hadrut qəsəbəsini mavi ekrandan izləyən hər kəs bu ərazinin hansı göz-könül



oxşayan üstünlüklərə malik olduğunu artıq yəqin ki təxmin edibdi. Mən Regionların İnkişafına Dair Dövlət Proqramına uyğun olaraq iqtisadi gücünə və coğrafi üstünlüklərinə bələd olduğum Hadrut qəsəbəsi ilə bağlı düşüncələrini yazıya köçürərkən öncə iki məqamı önə çəkdim. Onlardan birincisi Hadrutun böyük turizm potensialına malik olmasıdı. Yəni bir tərəfi Ziyarət dağı, bir tərəfi İlanlı dağ, qarşı tərəfi Ərgünəş olan burada turizm inkişaf etdirilməsi üçün çox böyük imkanlar var. Sadəcə olaraq, Füzuli rayonunun Odlu çay dərəsi boyunca Hadruta doğru uzanan massivdə katejlərin tikilməsi, pansianatların salınması asan başa gələn bir işdir. Sadəcə, bu işin qulpundan yapışmaq lazımdı.

Ikincisi, zənnimcə əgər (çox istərdim ki, bu arzum yerinə yetsin - Ə.M.) Azərbaycan prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Hadrut qəsəbəsinə səfər edərkən bu qəsəbənin ölkəmiz üçün nə qədər önəmli olduğunu birmənalı şəkildə aidiyyəti qurumlara, xüsusilə ölkə iqtisadiyyatı və turizmlə məşğul olanlara göstərmiş olar.

Çünki həmin səfər zamanı xalqımıza təqdim ediləcək geniş informasiya Hadrut qəsəbəsinin bütün tarixini və perspektivlərini ortaya qoymuş olacaq.

Burada quşçuluğun, digər heyvandarlıq təsərrüfatlarının bəslənməsi. Eləcə də Hadrut qəsəbəsinin içərisindən keçən göz yaşından duru sularda balıq yetişdirilməsi bu ərazinin iqtisadi gücünü daha da artırar. Indiki kimi xatırlayıram, Sovet dönəmində Hadrut qəsəbəsinə Bakıdan, Sumqayıtdan, Füzulidən, Xankəndindən, hətta İrəvandan avtobuslar işləyirdi. Kiçik bir qəsəbəyə hər gün gəlib-gedən bu avtobusların sərnişinlərinin əksəriyyəti yay mövsümü turistlər olurdi. Deməli, tarix kitablarında adı hələ osmanlıların Dizak mahalı kimi qeyd etdiyi Hadrut kəndi 1939-cu ildə Hadrut rayon mərkəzi kimi formalaşmışdı. Bu ərazini də 1992-ci ilin oktyabr ayının 2-də ermənilər işğal etmişdilər.

**Tarixi bir xoşbəxtlik və yaxud da tarixin təkrarıdı. Hadrut rayonu oktyabr ayında işğal olunmuşdu. Amma 28 ildən artıq davam edən, tam dürüstlüyü ilə ifadə etsən, 28 il 7 gün davam edən həsrətimiz 2020-ci ilin oktyabr ayının 9-da sona çatdı. Oktyabrda işğal olunmuş Hadrut oktyabrda da öz sahibinə qovuşdu. Bu gün artıq qəsəbədə müəyyən işlər görülməkdədir. Xüsusilə yol, işıq, digər infrastrukturlar. Həmçinin bankların filialları, səhiyyə xidməti artıq burada həyatı sanki oyadır, yaddaşa daş atır və Hadrutu yenidən qurub-yaradanlara xidmət edir. Bu da onu göstərir ki, biz qarşımıza qoyduğumuz məqsədə mütləq qovuşacağıq. Və onda məndə bir inam var ki, Hadrut da Azərbaycanın ikinci bir Şuşası kimi dilimizin əzbərinə çevriləcək, onda hər kəs azad və gözəl bir şəhər kimi gəzib seyr etməyə tələsəcəkdi. O gün uzaqda deyil. Bu qəsəbənin taleyinə şəhər günəşi də doğacaqdı. Mən buna inanıram. Bu inamımı Ali Baş Komandanımız cənab İlham Əliyevin Hadruta edəcəyi səfər yəqin ki, tezləşdirəcək.**

***Əbülfət MƏDƏTOĞLU***


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ




***Tərlan Əbilov***

## GƏLİB

***(Müəşşər)***

**Kim ki sən'ətdən olub var, aləmə varnan gəlib,
Ahuzar onluq olub, yar üstünə zarnan gəlib,**

**Bildiyim; bilmiş nədir ismət, həya, arnan gəlib,
Qəm dağılmış hücrəyə məzmunca xalvarnan gəlib,**

**Əl açıb leysanlara, hər saçda bir qarnan gəlib,
Mizrabın salmış əlindən, sinəsi tarnan gəlib,**

**Tarimar olmuş bağı, göydən yerə barnan gəlib,
Yə'ni tağ olmuş gülə ruhunda yüz xarnan gəlib,**

**Könlünə viranədən çiynində bir sarnan gəlib,
Gəldiyi hər məclisə bir ol Xiridarnan gəlib.**

***

**Keçmişin danmaz, bu üzdən əvvəl olmuş keçmişə,
Get deməzdən çox-çox əvvəl get-gəl olmuş keçmişə,**

**Barmağın çəkmiş mürəkkəbdən, əl olmuş keçmişə,
Əvvəlindən, axırından heykəl olmuş keçmişə,**

**Bir qələmnən can qoyubdur tənbəl olmuş keçmişə,
Yol salıb bir cüt ayaqnan səndəl olmuş keçmişə,**

**Zadəganlıqnan gəlibdir çəngəl olmuş keçmişə,
Xoş məramnan dönmüş ol gün əngəl olmuş keçmişə,**

**Bir cahanlıq od gətirmiş mə'şəl olmuş keçmişə,
mey dağılmış məscidə böyründə zəvvarnan gəlib.**

***

**Əl uzatmış qəlbinin sınmış yerindən güzgüyə,
Bir ətəklik söz açıbdır dilbərindən güzgüyə,**

**Dağ bilib göndərmiş ah çox-çox dərindən güzgüyə,
Göz dolub etmiş əta sevda tərindən güzgüyə,**

**Sanki boylanmış müdam tam yad birindən güzgüyə,
Göz çəkib barmaq toxundurmuş sərindən güzgüyə,**

**Bir hesabtək əl götürmüş dəftərindən güzgüyə,
Bir divartək uçmuş öz kef minbərindən güzgüyə,**

**Bir hasar çəkmiş nəhayət yüz şərindən güzgüyə
Əksi boyda güzgüyə gün vurmuş inkarnan gəlib.**

***

**Tam olub yüz-yüz qalıqla, düşməyib izdən geri,
Çəkməyib əl bir ətəkdən, düşməyib dizdən geri,**

**Salmayıbdır kirpik üstündən nəzər gözdən geri,
Bir ocaqlıq yer salıb oddan qabaq közdən geri,**

**Tən çəkibdir dərdi ruhundan önə üzdən geri,
Dizləriylə saxlamış çiynində göy "döz"dən geri,**

**Qalmıyıbdir qibləyə dil açmamış sözdən geri,
Düşməmiş haldan-hala bizdən qabaq, sizdən geri,**

**Ovcuna basmış dua sizdən qabaq, bizdən geri,
min-min aləmdən səsə bir buğda zünharnan gəlib.**

***

**Təklənəndən çox çoxalmış çox çoxalmışdan təkə,
Təkliyindən bir yol almış çox çoxalmışdan təkə,**

**Bir mücərrəd fikrə dalmış çox çoxalmışdan təkə,
Zər olub viranə qalmış çox çoxalmışdan təkə,**

**Bir könül viranə salmış çox çoxalmışdan təkə,
Sıx düşüb, çox-çox yuxalmış çox çoxalmışdan təkə,**

**Bir qamışlıq nəğmə çalmış çox çoxalmışdan təkə,
Anlamışdır söz də valmış çox çoxalmışdan təkə,**

**Göy də çevrilmiş o dalmış çox çoxalmışdan təkə,
yerdə Tərlan olmağa min qəlbi zinharnan gəlib.**

***

**Sənə dağ çəkmiş ola yar, salasan yol düzə sən,
Sındırılmış ürəyin hər çiliyin düz düzəsən,
dözəsən.
Başı batmış fələyin ahı əritsin o dağı,
Sən də öz ahın ilən yandırasan bir çırağı,
gəzəsən.
Soyuna xatirələr səndəki sahillərəcən,
Alasan hər birin özgəndəki sahillərəcən-
gözə sən.
Bir dəniztək səni çəksin gecə sevdan dərinə,
Əl atıb dan yerinin sübh sökülmüş yerinə,
üzəsən.
Nə qədər yar səni gizlətsə də bir sirr kimi,
Çıxasan bal dilindən bir ovuc dürr kimi
üzə sən.
Eliyə yar sükut sonra əsrlərlə yenə,
Başlayıb bağ salasan zikri əcrlərlə yenə-
sözə sən.
Yoza Tərlan yuxunu xeyrə bu minvalla sənin,
Nə idi fikri xəyalından o gün ol keçənin,
çözəsən.**

## Vətən müharibəsində yaralanmış 160 hərbçi son nəsil protezlə təmin edilib

**Vətən müharibəsində yaralanmış, aşağı və yuxarı ətrafları amputasiya edilmiş 160 hərbçi 168 son nəsil protezlə təmin edilib.**

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Anar Bayramov əlilliyin qiymətləndirilməsi və reabilitasiya sahəsində görülmüş işlərə dair mətbuat konfransında çıxışı zamanı deyib. A.Bayramov bildirib ki, 2021-ci ilin 10 ayı ərzində Agentlik tərəfindən 7615 nəfər əlilliyi olan şəxsə 38670 protez-ortopedik və digər reabilitasiya vasitələri, o cümlədən 908 mühərrikli təkərli oturacaq verilib: "Son iki ildə nazirliyin 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra, müasir avanadlıqlarla təchiz edilmiş şəkildə istifadəyə verilib. Həmin reabilitasiya müəssisələrində bu ilin 10 ayında əlilliyi olan şəxslərdən, habelə müharibə əlillərindən ibarət 6450 nəfərə reabilitasiya xidmətləri, həmçinin Vətən müharibəsinin 1040 nəfər qazisinə sosial-psixoloji dəstək xidmətləri göstərilib. Müharibə əlillərinin yüksək texnologiyalı, elektron protezlərlə təminatı işləri aparılır və Vətən müharibəsində yaralanmış, aşağı və yuxarı ətrafları amputasiya edilmiş 160 hərbçi 168 son nəsil protezlə təmin edilib", - A.Bayramov əlavə edib.



***AZƏR ƏRZİ OSMANLI***

## AĞLAMIR BİR NƏFƏR DİRİ DALIMCA

*Bu dünya təzadlar dünyasıdır da,
Ağla mən gələndə, kiri dalımca.
Ya da sən bu dəfə tək qoyma məni,
Əlimdən tut, gedək, yeri dalımca.*

*Gərək Əzrayılla bu gün görüşüm,
Təxirə salmışam mən o görüşü,
Əcəldən, ölümdən qaçıram, düşüb
Bir kəfən, bir qəbir yeri dalımca.*

*Dizim heydən düşdü, atdım qaçmağı,
Eh... Yaxalandım bu ölümə axır,
İlahi, mən necə ölüyəm axı?!
Ağlamır bir nəfər diri dalımca.*

## YAMANCA ƏCƏLİN GƏLİB

*Yamanca əcəlin gəlib,
Çək torpağı başına, yat.
Torpağın altında səni
Eləməz heç kim narahat.
Qarışma heç nəyə, baxma
Bu səs-küy, bu qovğa nədir.
Durma daha məzarından,
Oyanma, dincəl əbədi.
Qorxma, soyuq dəyməz sənə,
Arxayın yat bütün günü,
Başdaşın başında durub
Arada örtər üstünü.*

## GÖZ YAŞINLA YU DÜNYANI

*Məndən elə get gedəndə,
Qayıtmağa yer saxlama.
Nə etmişəm, vur üzümə,
Səbəbini sirr saxlama.*

*Qənimiyəm öz-özümün,
Asaram, qırpmam gözümü,
İki tel saç qoy özümü
asmağa,
Kəndir saxlama.*

*Ağla, bassın su dünyanı,
Sel götürsün bu dünyanı,
Göz yaşınla yu dünyanı,
Bir zərrə də kir saxlama.*

## DÖYÜR

*Yenə də bir ümid öldü,
Arzular dizini döyür.
Qatil kimdir? Hamı baxıb
Üzümə gözünü döyür.
Sən də getmək istəmirsən,
Gedilmək istəmir yol da;
Yolu döyür ayaqların,
Yol ayaq izini döyür.
Necə çarəsizlikdir bu?
Biri çıxıb gedir,
Biri
"Qal" deyə bilmir gedənə,
Qalıb hey özünü döyür.*

## KAĞIZ

*Uzaqlaşın yanımdan, nəyə gərəksiz axı?!
Məni yalqız buraxın bu bir parça kağızla.
O qədər uzaqlaşın, daha heç rastlaşmayaq,
Nə qədər ki, arası var baharın payızla.
Bu bir parça kağızdır mənim ən yaxın dostum,
Vaxt olub ki, onunla küsmüşəm, barışmışam.
Mənim bir dərdimi də dinləməmisiniz siz,
Hər nə dərdim olubsa, tək ona danışmışam.
Rahatlıqla tək ona hər sözümü demişəm,
Tək odur agah olan ürəyimin sirrinə.
O mənim ən yaxınım, o mənim ən doğmamdır,
Necə qoyum özgəni axı onun yerinə!
İlahi, nə güclüymüş bu bircə parça kağız,
Nə qəm yüklədim ona, daşıdı heç dinmədən.
Hələ də heyrətdəyəm, bu dağ boyda adamlar
Əl boyda kağız qədər dözümlü olmur, nədən?!*

***

*Məsum uşaqların
Bunca göz yaşına rəğmən
Çıxmadı dünyanın kiri.
Deməli, dünyanın kirliliyi
Daha çoxmuş
Uşaqların saflığından.*

***

*Bu gecə də
Dərdlərimi qoydum başımın altına
Yastıq əvəzi,
Yatmadım...*

***

*Elə bilmə, heç nəyim yoxdur,
Tutmağa əlçatmaz arzularım,
Arzularıma çatmağa da
Bir qədər ümidim var -
Belə də yaşamaq olur.*

***

*Məni narahat etməyin!
Vaxtım yoxdur;
Yenə dünya qədər darıxmağım var
bu gecə...*

***

*Nə dumandır, nə də qaranlıq,
Günün günorta çağı
Günəş adam yandırır.
Amma göz gözü görmür:
Mənim gözüm sənin gözünü,
Sənin gözünsə mənim gözümü.*

***

*Bu dünya yekə bir məzardır,
Dünyaya gəldiyimiz gün
bizi bükdükləri ağ parça
Bələk yox, kəfən idi əslində.*

## HAYKU

*Görmədi heç kim,
Gecədə gizlətmişəm
Göz yaşlarımı.*

## *Qarabağda turizmin inkişafı ilə bağlı layihə hazırlanıb*



**Qarabağda turizmin inkişafı ilə bağlı Dövlət Turizm Agentliyi tərəfindən layihə hazırlanıb. İşağaldan azad olunan ərazilərdəki turizm resursları və obyektləri bu layihə əsasında qiymətləndiriləcək.**

Bunu Trend-ə açıqlamasında Dövlət Turizm Agentliyinin Regional turizmin inkişafı sektorunun müdiri Elgün Cavadov deyib.

Onun sözlərinə görə, prosesə Türkiyədən ekspert və mütəxəssislərin dəvət olunması da nəzərdə tutulur.

"Bundan başqa, işğaldan azad olunmuş ərazilərlə bağlı ilk günlərdən etibarən turizm strategiyası hazırlanıb və strategiyaya uyğun olaraq turizm marşrutlarının konsepsiyası hazırlanaraq müvafiq orqanlara təqdim edilib. İlk olaraq, "Yolumuz Ağdama", "Yolumuz Füzuliyə" və "Yolumuz Xocavəndə" adlı turizm marşrutlarının konsepsiyası işlənib. Bunun əsasında gələcəkdə işğaldan azad olunan ərazilərə turist səfərlərinin açılacağı gündən etibarən müəyyən turların təşkili nəzərdə tutulur. Bu da sözsüz ki, gələcəkdə biznes tərəfindən əsas götürülə bilər" - deyə, qurum rəsmisi bildirib.

E.Cavadov onu da əlavə edib ki, Ağdam şəhərində Dövlət Turizm Agentliyinin iştirakı ilə müəyyən infrastruktur işləri aparılıb. "Yolumuz Ağdama" marşrutu çərçivəsində işarələnmələr həyata keçirilib, Şahbulaq Qalası ətrafında turizm infrastrukturunun yaradılması ilə bağlı təkliflər verilib.

"Hər bir rayon üzrə şəhərsalma işçi qrupu tərəfindən nəzərdə tutulan baş planlara rəylər və təkliflər verilir. Burada turizm imkanları ilə bağlı konkret məsələlər qaldırılır. Agentlik tərəfindən ərazilərdə turizm və represiya zonalarının yaradılması ilə bağlı işlər aparılır. Sözsüz ki, burada turizmin inkişafı gələcəkdə ərazilərin təhlükəsizliyinin tam təmin olunması fonunda baş verəcək. Bu vaxta qədər də həmin ərazilərdə zəruri infrastruktur layihələri icra edilir. Bu layihələrin gələcəkdə turizmin daha da inkişaf etdirilməsi ilə əlaqələndirilməsi bizim üçün çox vacibdir və işimizi bu istiqamətdə aparırıq" - deyə, o qeyd edib.

## *Xüsusi şərtlərlə əmək pensiyası alanların sayı artıb*




**2021-ci ilin oktyabr ayı ərzində xüsusi şərtlərlə əmək pensiyası alanların sayı 125,4 min nəfərdən çox olub.**

Bu barədə Dövlət Sosial Müdafiə Fondundan bildirilib.

Məlumata görə, onlardan 97,9 min nəfərdən çoxu yaşa, 14 min nəfərdən çoxu əlilliyə, 13,4 min nəfərdən çoxu isə ailə başçısını itirməyə görə əmək pensiyası alır. Qeyd edək ki, bu gün respublika üzrə pensiyaçıların ümumi sayı 1 milyon 200 min nəfərdən çoxdur.

Bu da respublika üzrə ümumi əhalinin 12%-ni təşkil edir. Yaşa görə pensiyanın orta aylıq məbləği 358 manatdır.

**Pensiyaçıların 55,5%-ni qadınlar, 44,5%-ni isə kişilər təşkil edir.**

# MÜQTƏDİR SƏNƏTKAR: TEATR VƏ KİNO XADİMİ ƏLİABBAS QƏDİROV

**Siyəzən şəhərində orta təhsil alarkən məktəbimizdə və mədəniyyət sarayında fəaliyyət göstərən dram dərnəklərinin tamaşalarına həvəslə baxar, teatra sevgimizlə bəzən özümüz də səhnəciklərdə rol alardıq. Eyni zaman-da, vaxtaşırı Bakıdan gələn dövlət teatr kollektivlərini, peşəkar aktyorları görməyi toy-bayram hesab edərdik. Tələbəlik dövründə də paytaxtda, insti-tutu qurtarandan sonra isə rayonda tez-tez teatra can atardıq, imkan olduqda isə xüsusi olaraq Bakıya -elmi-mədəni tədbirlərə, konsert və teatrlara gedərdik.**

Yadıma gəldiyi qədər Azərbaycanda keçən əsrin 60-70-ci, lap sonralar 80-ci illərindəki insanların bir çoxunu, həmçinin əksər gəncləri teatral he-sab etmək olardı. Yaşlı və orta nəslə mənsub bir sıra görkəmli sənətkarlarla bərabər, o dövrün Səməndər Rzayev, Fuad Poladov, Mikayıl Mirzə, Hamlet Xanızadə, Həsən Əbluc, Əliabbas Qədirov kimi gənc aktyorların oynadıqları tamaşalarda çox vaxt anşlaq olurdu.

Əliabbas Qədirovun klassik və müasir pyeslərdəki rolları sevilə-sevilə baxılırdı. Mən müqtədir sənətkarı - teatr və kino xadimi Əliabbas müəllimi ilk dəfə yaxından 1981-ci ildə "İşarəni dənizdən gözləyin" filminin şəkilişlərində görmüşəm. Mərhum Ceyhun Mirzəyevin bir rejissor kimi qu-ruluş verdiyi bu filmdə o, inqilabçı-bolşevik Həmid Sultanovun rolunu can-landırırdı. Mən isə incəsənəti, kinonu sevən bir şəxs olaraq həvəsimin ardınca gedib mətbuatda verilmiş elana əsasən, kütləvi səhnələrə yazıl-mısdım. Epizodlar Filarmoniyanın bağında və İçərişəhərdə lentə alınırdı...

İkinci dəfə görkəmli sənətkarı yaxından bir də 1990-cı il Respublika Ali Sovetinə deputat seçkilərində görmüşəm. Əliabbas Qədirov şair Ağasə-fa ilə birlikdə rayonumuzdan namizədliyini vermiş qudası, mərhum Xalq şairi Cabir Novruzun vəkili idi. Mən isə mərhum yerli müəllimə, Zarat kənd məktəbinin direktoru, şairə Məryəm Həsənovanın vəkillərindən biri idim. Yeri gəlmişkən, mən Cabir müəllimi hələ tələbəlik illərində, həmçinin 1977-ci ildən sonra Bakıda iştirak etdiyim bir sıra tədbirlərdə, habelə 1981-ci ildə Azərbaycan Yazıçılarının Dzerjinski klubunda - indiki Şəhriyar adına Mədəniyyət mərkəzində keçirilmiş VII qurultayında yaxından görmüşdüm. Mən qurultaya "Gənc tənqidçilər studiyası"nın üzvü kimi dəvət almışdım. 1983-cü ildən isə onunla şəxsən tanış idik. Həmin ilin baharında Mikayıl Müşfiq adına 2 №-li orta məktəbin direktoru İxtiyar Niftəliyevin təşəbbüsü və təşkilatçılığı ilə Siyəzən şəhər mədəniyyət sarayında Cabir Novruzun anadan olmasının 50 illik yubileyi keçirilmişdi. Mənə məktəbin müəllimi və AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun gənc aspirantı olaraq şairin həyat və yaradıcılığı haqqında məruzə etmək tapşırılmışdı. Axşam yubiley tədbirinin ziyafətində görkəmli sənətkarımız Cabir Novruz və onunla birlikdə gələn tanınmış şair Ağasəfa ilə bir süfrədə əyləşib daha yaxından tanış olmuşduq. Elə ona görə də, Siyəzəndəki 1990-cı il seçki kampaniyasında görkəmli şairimiz ilə görüşdük. O vaxtlar da baxmayaraq ki, Cabbir Novruz, Ağasəfa müəllim və Əliabbas Qədirov ilə bir növ bir-birimizlə "rəqib" idik, ancaq təbii ki, bu mehriban, səmimi söhbət etməyimizə mane olmurdu.

Üçüncü dəfə Əliabbas Qədirov ilə 1992-ci ildə Siyəzəndə böyük şair və dramaturq Hüseyn Cavidin anadan olmasının 110 illiyinə həsr edilmiş yubiley tədbirinə Siyəzənə gələn elm, mədəniyyət və incəsənət xadimləri sırasında qonaqları qəbul edərkən görüşmüşdük. Rayon rəhbərlərinin, mə-dəniyyət sarayı işçilərinin istirakı ilə keçirilən həmin tədbirin təşəbbüskarı və təşkilatçısı Ədəbiyyat İnstitutunun direktoru, görkəmli tənqidçi və estetik, Akademiyanın müxbir üzvü mərhum Yaşar Qarayev və Hüseyn Cavid yaradıcılığından dissertasiya yazıb müdafiə etmiş institut əməkdaşı kimi mən idim. Lakin mən həm də Siyəzənli- ev sahibi olaraq qonaqları qarşılamalı olduğuma görə bir gün əvvəl artıq doğma şəhərimizə gəlmişdim. Yaşar Qarayevin, respublikamızın bir sıra başqa elm və sənət xadimlərinin, filologiya elmləri doktoru, tanınmış şair Qasım Qasımzadənin, xalq artisti Əliabbas Qədirovun iştirak etdiyi ədəbi-elmi axşamdan sonra zi-yafət məclisində Əliabbas müəllimlə üzbəüz oturmus, səmimi şəkildə hal-əhval tutub, keçmiş xatirələri də yada salmışdıq. Burada belə məlum olmuşdu ki, o, artıq iki ildi Məkkəyə - Həcc ziyarətinə hazırlaşır. Görkəmli sənətkar 1997-ci ildə arzusunda olduğu müqəddəs ziyarəti yerinə yetirə bilmişdi. Sonralar da mən Əliabbas müəllimin vəfatına qədər Azdramaya gedəndə, fürsət düşən kimi onunla rastlaşarkən, ayaqüstü olsa da, salamlaşıb bir-iki kəlmə kəsərdik.

1993-cü ildə Əliabbas Qədirovun həkim olan böyük qızı Gültəkin xa-nımın həyat yoldaşı-şair, yazıçı, publisist mərhum Müsfiq Cabiroğlu ilə baslanan şəxsi tanıslığımız, 2010-cu ildən möhkəm dostluğa çevriləndə, bir-birimizin evinə gedib-gəlirdik. Müsfiqin qaynı gömrükçü İlham Qədiro-vu da biz onun həmkarı-böyük qardaşım mərhum Raufun oğlu Rəşad ilə yaxından tanış etdik və onlar bir-birinin şəxsində yeni dost tapdılar.

Müsfiq Cabiroğlu atasının vəfatından sonra (2002) "Cabir Novruz" Mədəniyyət Fondu təsis etmisdi (2004). Müşfiq 2016-cı ilin oktyabrından başlayaraq Fondun fəaliyyətini yenidən canlandırmaq üçün təzəcə seçilmiş idarə heyəti və fondun prezidenti- Əməkdar bədən tərbiyəsi və idman xadi-mi, prof. Cavanşir Qurbanov ilə birlikdə çox görkəmli ziyalıları bu ictimai təşkilatın ətrafında toplamışdı.

Əliabbas Qədirovun 70 illiyi də xüsusi olaraq qeyd edilmisdi. Görkəmli sənətkarın İkinci Fəxri Xiyabandakı məzarını ziyarətlə və oradakı çıxıslarla baslanan tədbir yüksək səviyyədə keçmiş, mətbuatda və televiziyada işıq-landırılmışdı.

Əliabbas Gülabbas oğlu Qədirov 13 fevral 1946-cı ildə Bakıda anadan olmuşdur. Əslən Xızı rayonunun Yuxarı Əngəlan kəndindəndir. Bakıda or-ta məktəbdə təhsil almışdır. On birinci sinfi 105 saylı məktəbdə bitirmiş, aktyorluq sənətinə səkkizinci sinifdən baslayaraq maraq göstərmişdir. Də-miryolçular klubunda Xalq artisti Ağadadaş Qurbanovun rəhbərlik etdiyi dram kollektivinin üzvü olmuşdur. Romantik, monumental tamaşalarda rol oynamaq vərdislərinin ibtidai əsaslarını həmin dram dərnəyində öyrə-nmişdir. Aktyor olmağı da elə burada qərara almışdır.

1965-ci ildə Mirzağa Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutu-nun Dram və kino aktyorluğu fakültəsinə qəbul edilmişdir. Sənət müəllimi, ixtisas kurs rəhbəri - mərhum SSRİ xalq artisti, professor Mehdi Məmmə-dov, səhnə danışığı müəllimi isə mərhum Əməkdar ar-



tist, qiraət ustası Müxlis Cənizadə olmuşdur. Tələbəlik illərində institutun tədris teatrının ştatlı aktyoru kimi burada Cəfər Cabbarlının "Aydın", Hüseyn Cavidin "Azər", Afanasi Salinskinin "Təbilçi qız" əsərlərinin tamaşalarında maraqlı rollar oynamışdır. Elə buna görə də Əliabbas Qədirov son kursda oxuyanda M.Məmmədov onu Akademik Dram Teatrında quruluş verdiyi Hüseyn Ca-vidin "Xəyyam" faciəsində Yusif roluna dəvət etmişdir. 1970-ci il aprel ayının 6-dan Əliabbas müəllim Akademik Milli Dram Teatrının gənc aktyoru kimi ilk addımından teatr ictimaiyyətinin nəzər-diq-qətini özünə yönəldə bilmişdir.

Onun oynadığı bəzi rolların natamam siyahısı aşağıdakı kimidir:

Yusif. "Xəyyam", Hüseyn Cavid; Xosrov. "Küləklər", Sabit Rəhman; Vəli. "Xırs quldurbasan", Mirzə Fətəli Axundzadə; Givi. "Darıxma, ana!", Nodar Dumbadze; Leytenant və Nicat. "Mahnı dağlarda qaldı", İlyas Əfən-diyev; İlyas. "Aydın", Cəfər Cabbarlı; Qlumov. "Müdriklər", Aleksandr Ostrovski; Kürd Musa və Vaqif. "Vaqif", Səməd Vurğun; Alman oğlu. "İnsan", Səməd Vurğun; Məğrur. "Əks-səda", Nəbi Xəzri; Cosqun. "Kölgələr pıçıldaşır", Seyfəddin Dağlı; Balaağa. "Vəkil neyləsin...", Ramiz Fə-təliyev; Şərif. "Məhəbbət əfsanəsi", Nazim Hikmət; Balaş. "Sevil", Cəfər Cabbarlı; Bəhram. "Fitnə", Abdulla Şaiq; Vasif. "İblis", Hüseyn Cavid; Rəşad. "Kimdir haqlı?," Bəxtiyar Vahabzadə; Tural. "Qarabağ əfsanəsi", Qeybulla Rəsulov; Diş həkimi. "Biganələr oteli", Rüstəm İbrahimbəyov; Qazan xan. "Torpağa sancılan qılınc", Nəbi Xəzri; Şirzad. "Şeyx Xiyaba-ni", İlyas Əfəndiyev; Mirzə Şəfi. "Mənsiz dünya", Nəbi Xəzri; Mircəfər Bağırov. "Sevgililərin cəhənnəmdə vüsalı", İlyas Əfəndiyev; Tərlan. "Sənsiz", Şıxəli Qurbanov; Misirxanov. "Əcəb işə düsdük", Şıxəli Qurbanov; Qraf Qloster. "Kral Lir", Uilyam Şekspir; İbrahim xan. "Hökmdar və qızı", İlyas Əfəndiyev; Qara xaqan. "Özümüzü kəsən qılınc" ("Göytürk-lər"), Bəxtiyar Vahabzadə; Ənvər. "Ulduz, yaxud Ədirnə fəthi", Cəfər Cabbarlı və b.

Azərbaycanın məşhur qiraət ustalarından biri olduğu üçün Ə.Qədirovun ifasında Füzuli, Vaqif, Nəsimi, Sabir... kimi dahilərin poetik nümunələri, habelə Quranikərimdən ayələr lentə alınmışdır.

Görkəmli aktyor Azərbaycan Dövlət Televiziyasında çoxlu tamaşalar-da oynamış, uzun illər əvvəlcə gənclər üçün "Məşəl", sonralar əyləncə xa-rakterli "Komediyalar aləminə səyahət" verilislərinin aparıcısı olmusdur. Onun oynadığı tamaşaların bir qismi televiziyanın "Oızıl fond"una daxildir. Onlardan Süleyman Sani Axundovun "Laçın yuvası" (Cahangir), Məmməd Muradın "Təkan" (Dilqəm), İlyas Əfəndiyevin "Atayevlər ailəsi" (Cahan-gir), Mirzə Fətəli Axundzadənin "Hacı Qara" (Heydər bəy), Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" (Fərhad), Mar Bayciyevin "Duel" (İs-gəndər), Dazortsevin "Qəbula gələn sonuncu adam" (Kişi) əsərlərinin tele-tamaşasında Əliabbas Qədirovun yaradıcılığı daha parlaq şəkildə öz təcəs-sümünü tapmışdır.

Əliabbas Qədirov kino aktyoru kimi də məşhur idi və bu sahədə böyük uğurlar qazanmısdı. O, kinorejissor, Xalq artisti Eldar Quliyevin çəkdiyi "Sevinc buxtası" iki seriyalı bədii fılmindəki baş qəhrəman Nazim roluna görə 1978-ci ildə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq gö-rülmüsdü. Aktyor bundan əlavə Cəfər Cabbarlı adına "Azərbaycanfilm"in yuxarıda adını çəkdiyim "İşarəni dənizdən gözləyin" (H.Sultanov), həmçinin "Xatirələr sahilində" (İmran), "Nəğmə dərsi" (Ata), "Nə yaxşı ki, Səməd Vurğun var" (Vaqif), "Bizim evin kişisi" (Mansur), "Qızıl uçu-rum" (Cəlil), "Qocalar" (Fəriz), "Babək" (Fəzl) kimi kinolentlərinə çəkil-misdir. Məshur aktyor 26 dekabr 2001-ci ildə teatrın bədii rəhbəri və direktoru təyin edilmişdi.

Əliabbas Qədirovun yaradıcılıq imkanları romantik və realist aktyor məktəblərinin estetik göstəricilərinə, psixoloji mahiyyətinə, fəlsəfi dərinli-yinə uyğun idi.

Daxilən hərarətli və ehtiraslı temperamentə, dinamik plasti-kaya malik aktyor olaraq oynadığı rolları janr xüsusiyyətlərinə görə fərqli, əlvan və bədii cəhətdən bitkin təsir bağıslayırdı. Dəyərli səhnə və ekran ustası Əliabbas Qədirov teatr və kino yaradıcı-lığındakı uğurlarına görə 1 dekabr 1982-ci ildə Azərbaycan SSR Əməkdar artisti və 17 may 1989-cu ildə isə Xalq artisti fəxri adları ilə təltif olunmusdu. Səkkiz mart 2006-ci il tarixdə Xalq artisti, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli, Dram Teatrının bədii rəhbəri Əliabbas Qədirov 60 yaşın-da vəfat etmişdir.

**Müqtədir sənətkar, teatr və kino xadimi mərhum Əliabbas Qədirovun adı mədəniyyət tariximizə əbədi olaraq qızıl hərflərlə yazılmışdır.**

**Ruhu şad olsun!**

**RASİM NƏBİOĞLU**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent, fəxri professor, AYB-nin üzvü**

# “Ömür” filmi

## *Professor Məmməd Məmmədovsuz keçən bir ilin kino lentinə baxış*

Hərdən oturub fikirləşirəm. Və fikirləşə-fikirləşə də öz-özümə deyirəm:

***- Doğrudanmı, zaman bu qədər sürətlidi? Doğrudanmı dünənimizdən bu qədər böyük addımlarla uzaqlaşırıq?..***

Və bu sualların hər ikisi də məni düşündürdüyü qədər də özünə çəkir. Başlayıram o sualların içərisində var-gəl etməyə. Baş sındırıram, fikri-fikrə calayıram, sözü-sözə uyğunlaşdırıram. Bir də baxım görürəm ki, nə qədər zaman itirmişəm, nə qədər zaman ötüb, keçib gedib. Mən eyni nöqtədə, eyni sualların, düşüncələrin içərisində, zaman isə məndən ya irəlidədi, ya da elə irəlidə olduğu qədər də geridə... Bu bir fəlsəfə deyil, bu bir həyat həqiqətidir, yəni, gerçəkliyin özüdür. Çünki...

Düz bir il öncə, yəni 2020-ci ilin noyabr ayının 25-də acı bir xəbər eşitdim. El-obamızın, Qarabağımızın, eləcə də Azərbaycan elminin dəyərli nümayəndələrindən biri həmşə xoş təbəssümü və yumoru ilə yaddaşıma hopmuş Məmməd müəllim Haqqa qovuşmuşdur. Onun ölüm xəbəri elə dayandığım nöqtədə məni uzaqlara apardı. Gözümün önündə professor Məmməd Məmmədovun həyat yolu canlandı. Əslində bu, bir kino lenti idi. Bir alimin, bir ziyalının "Ömür filmi". Mən o filmi səssiz izləməyə başladım...



Füzulidə, dünyanın Sovet dönəminə aid olan zaman kəsiyində 1937-ci ilin may



ayının 9-da dünyaya gəlmşdi Məmməd müəllim. Ona görə 9 Mayı xüsusi vurğulayıram ki, həmin tarix bizim dövrün bütün insanlarının yaddaşına Qələbə günü kimi həkk olunmuşdu! Görünür, Məmməd Məmmədov gələcəyi qələbə ilə tamamlayacaq bir ömür vizası almışdı Tanrıdan. Ona görə də həyatın bütün çətinliklərindən o ancaq qalib kimi, qələbələrlə çıxmışdı. Bax elə doğum günü ilə həyatının bu üst-üstə düşən qələbəsi onun bir növ "Ömür filmi"nin kredosu olmuşdu. Mən həmin filmin ayrı-ayrı məqamlarına diqqət yetirəndə Məmməd müəllimi doğulduğu Qarakollu kəndinin mənzərəsini də xatırlamaya bilmirəm. Bu kəndin coğrafiyası, onun Füzuli rayonunun ümumi mənzərəsindəki yeri o qədər dinamik, o qədər həssasdır ki, burdan keçib gedən hər kəs yolun üst tərəfindəki dağlara, xüsusi ilə Ərgünəşə tərəf mütləq boylanır. Digər tərəfdən, bu gün işğaldan azad olunmuş Hadrutun içərisindən axıb gələn dağ çayının da yaratdığı ovqat, mənzərə və kəndin yaşıllığa bürünməsi zəhmət adamlarının bu yerə olan sevgisinin adi bir detalıdır. Deməli, "Adamlar doğulduqları yerə bənzəyirlər"!- deyənlər yanılmayıblar. Bu mənada Məmməd Məmmədovun kasıb bir ailədə dünyaya gəlib böyük həyata atdığı addımların böyük bəhrəsi məhz o torpaqla, o yurd-yuva ilə bağlıdır. Yeri gəlmişkən, bu məqamda Məmməd müəllimin oğlu Süleymanın atası ilə bağlı söylədiyi bir xatirə yadıma düşür. Süleyman deyir ki, axşam saatları idi, ailəlikcə oturmuşduq. Atam televizoru izləyirdi. Mən də kənardan ona diqqət yetirir və hazırlaşırdım ki, içimdə olan bir suala ondan cavab alım. Bu vaxtı qapının zəngi çalındı. Gedib açdım. Tanımadığım orta yaşlı bir nəfər dayanmışdı qapının ağzında. Üzümə baxıb dedi:

***- Əmim evdədi?***

Doğrusu, bu adamı ilk dəfə idi görürdüm və onun da "əmi" sözünü dilinə gətirməsi məni çox təəccübləndirdi. Ona görə düşündüm ki, bəlkə ünvanı səhv salıb:

***- Sizə kim lazımdır?***

***- Məmməd müəllim, əmimi soruşuram da sizdən - dedim.***

Səsə atam qapıya yaxınlaşdı. Oğlanı görən kimi onlar bir-birilərinə sarıldılar. Mən də təəccüblə baxırdım. Gözləyirdim ki, görüm bu söhbətin axırı nə ilə bitəcək. Atam qonağın qoluna girib onu içəri apardı və üzünü mənə tutub, tez olun, çay-çörək gətirin - dedi. Təbii ki, qonağın qarşısına çay gəldi. Mən də kənardan oturub onların söhbətini dinləməyə başladım. Məlum oldu ki, atam gələn bu qonağın özünü də, ailəsini də çox gözəl tanıyır. Onların hamısını bir-bir soruşdu. Sonra ərklə dedi:

***- Əmin nə yaxşı yadına düşüb, - xeyirdimi?***

Qonaq çox ciddi bir problemdən danışdı və atamdan kömək istədi. Atam bir qədər fikirləşəndən sonra dedi ki, narahat olma, mən lazımi adamlarla danışaram. Sən arxayın ol, elə hesab et ki, bu məsələ düzəlib. Qonaq gedəndən sonra dedim ki, ata, axı o gələn adamın dediyi çox ciddi məsələdi. Bunu həll etmək asan olmayacaq. Atam fikirli-fikirli dedi:

***- Bu gələn oğlanı sən tanımırsan. Mən orta məktəbi bitirib, Bakıya oxumağa gəlirdim. Həyətimizdəki olan bir baş dananı satıb onun pulu ilə atam mənə təzə kostyum və ayaqqabı almışdı. Horadizə, dəmiryol vağzalına gələndə elə bir yağış başladı ki, gölməçələri keçmək mümkün deyildi. Dayanıb fikirləşirdim ki, bu sel-suyun içindən necə keçim vağzalın içərisinə. Bu vaxt bir nəfər mənə yaxınlaşdı. Və soruşdu ki, ay bala, kimsən, niyə dayanmısan yağışın altında. Gölməçəyə tərəf baxa-baxa dedim ki, instituta girmişəm, Bakıya gedirəm. Həmin kişi heç nə demədən gəlib məni qucağına aldı. Özü gölməçənin içindən keçib məni vağzalın içərisinə gətirib qoydu. Mən belə bir adamı, onun oğlunu unuda bilərəmmi? Bu məsələni ən yüksək səviyyədə də olsa, həll edəcəm. Həqiqətən, iki gün sonra atam məsələnin həll olunduğunu dedi...***

Bu xatirə Məmməd müəllimin təkcə böyüklüyünü, ziyalılığını, yaddaşının gücünü göstərmir, həm də onun keçmişinə, həyatındakı insanlara etiramını, sevgisini büruzə verir. Demək, insan hansı mərtəbəyə qalxır qalxsın, dünəninə arxa çevirməməlidi. Necə ki, Məmməd müəllimin onu tanıdığım bütün illər boyu keçmişə ehtiramına, sözün yaxşı mənasında həsəd aparmışdım. Elə bu səbəbdəndir ki, təkcə ailəsində, evinin içərisində deyil, onu tələbə-müəllim kollektivində də, müəyyən dövrdə təmsil olunduğu parlamentdə də o, sevilən insanlardan olubdur. Ümumiyyətlə, Məmməd müəllimi təkcə Qarabağda, Füzulidə deyil, Azərbaycanın bütün coğrafiyasında tanıyıb, sevib dəyərləndiriblər. Ona tələbələrinin sonsuz ehtiramlarının canlı şahidlərindən biri də mənəm. Yaxın qohumlarım o zamanlar Xalq Təsərrüfatı İnstitutu, indi isə İqtisad Universiteti olan ali məktəbdə təhsil alırdılar. İnstitutun ən sayılıb-seçilən, ən nüfüzlu professorlarından biri Məmməd Məmmədov idi. Qohumları söyləyirdilər ki, bəzən Məmməd müəllim bizi evinə dəvət edirdi. Hansısa dərsi, mövzunu müzakirə etmək üçün. Sonra da süfrə açdırırdı. Biz bilirdik ki, o, məhz bizi evdə bişən xörəklərə qonaq etmək üçün dəvət edir. Bəhanə də hansısa bir mövzu olub. Axı tələbə yataqxanasında hazırladığımız yeməklərlə evdə bişən yeməklərin yerdən-göyə qədər fərqi var. Hətta bəzən o, bizi yola salanda cibimizə pul da qoyurdu ki, bazarlıq edin. Tələbənin kəmərinin altı bərk olmalıdı. Yoxsa oxuduğu başına girməz, - deyirdi Məmməd müəllim.

Zaman öz sürətində... Biz öz yaddaşımızın çevrəsində... Bir də qarşımda "Ömür filmi". Mən Məmməd müəllimin dostlarından, doğmalarından onsuz yaşadıqları bu bir ilin ayrılıq nüanslarını, münasibətlərini öyrənirəm. İlk öncə Məmməd müəllimi yaxından tanıyan Aslan Mehdiyevə üz tuturam:

***- Məmməd müəllim mənim həyatımda əsl ziyalı, əsl qarabağlı kimi bir yer sahibi olub. Bu kişi ilə söhbətlərim, zarafatlarım, müəyyən mövzular ətrafında fikir mübadilələri etməyim heç vaxt yadımdan çıxmır. Ona görə ki, hər kəsə açıq adam idi. Heç bir sualdan yayınmırdı. Danışanda da, fikir bildirəndə də elə əsaslandırırdı ki, daha ikinci suala yer qalmırdı. Görünür, həm müəllim, professor kimi, həm də həyatın bütün çətinliklərini görmüş insan kimi o özünü zaman-zaman xoş günlərə, uğurlara hazırlayırmış. Nəticədə də məqsədinə, məramına çata bilmişdi. Necə deyərlər, həyatın həmlələrinə, zərbələrinə öz dözümü və iradə ilə qalib gələn bir alim kimi yadımda qalıb Məmməd Məmmədov. Məkanı Cənnət olsun!***

**Nəbi Muxtarov: -** Həm qohum kimi, həm ziyalı kimi, həm də qonşu kimi Məmməd müəllim bütün parametrləri ilə mənə çox doğma olubdur. Biz bəzən nərd oyununda da ailənin, rayonumuzun elə məsələlərini müzakirə etmişik ki, onu yalnız Məmməd müəllim kimi uzaqgörən, həyatın bütün mahiyyətini bilən kişilərlə etmək mümkündür. Hətta bir-birimizin həyətində hansısa bir ağacı əkəndə də, onun ilk meyvəsini dərəndə də onu məsləhətləşər, bir-birimizə xeyir-dua verərik. Məmməd müəllim həm də öz çevrəsi ilə, münasibətdə olduğu adamlar ilə elə bir təmas xətti yaratmışdı ki, hər kəs öz yerini bilirdi. Bu da mənim dostumun, qohumumun, əzizimin insanları tanımaq və dəyərləndirmək bacarığının bir göstəricisi idi. Ümumiyyətlə, Məmməd müəllim haqqında günlərlə danışmaq mümkündür. Çünki o, həyatının bütün məqamlarında mütləq bir müsbət nələrisə gerçəkləşdirmişdi.

**Mətanət xanım: -** Mən bu ailənin gəlini olsam da, əslində Məmməd müəllim məni öz qızlarından daha çox istəyirdi. O, ailədə elə bir şərait yaratmışdı ki, hər kəs yerini bildiyi kimi, o da hər kəsi layiq olduğu yerdə tuturdu. Ona görə də onun yoxluğunu bütün ailəmiz kimi mən də hiss edirəm. Çünki onun yeri görünür. Bir dəfə mənə dedi ki, sənətlərini hazırla. Maraqla üzünə baxdım. Bir də təkrar etdi ki, sənədlərini hazırlayıb qoyarsan yazı stolumun üstünə, işə gedəndə özümlə götürəcəm. Təbii ki, dediyini etdim. Bir neçə gündən sonra məlum oldu ki, mən artıq öz ixtisasıma uyğun olaraq həkim kimi daha məsuliyyətli sahədə çalışacam. Bu mənə həm də öz elmi işimi tamamlamağa və namizədliyimi uğurla müdafiə etməyə imkan yaratdı. Yadımdadı, tibb elmləri namizədi adını alanda ailəmizdə hamıdan çox sevinənlərdən biri də Məmməd müəllim idi.

Ömrünü başa vuranda Məmməd müəllim artıq nəvə, nəticə sahibi idi. Adını daşıyan nəvəsi Bakı Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olmuşdu. Onun baba sevinci aşıb-daşırdı. Digər nəvələrinə nümunə kimi Məmmədi göstərib demişdi ki, oxumaq, elm sahibi olmaq lazımdır. Həyat, yaşamaq savadlı insanlar üçün daha gözəl olur. Bu mənada Məmməd müəllimin ömür-gün yoldaşı Həqiqət xanım da, qızları da, ümumiyyətlə bütün ailə üzvləri onsuz keçən bu bir ilin hər anını öz-özlərində "Ömür filmi"ni xatırlaya-xatırlaya başa vurublar. Necə ki, mən professor Məmməd Məmmədov haqqında bu yazını qələmə alanda "Ömür filmi"ni izləyirdim. Çünki o film gözlərimin önündə idi. Məkanı Cənnət olsun!

***P.S. Məmməd müəllim ömrünün son iki ayını böyük sevinclə yaşayırdı. Çünki o, Füzulinin, Qarabağın işğaldan azad olunmasının şahidi idi. Və əlini Allaha açaraq dua edirdi ki, bu xoşbəxtlik ona nəsib oldu.***

**Əbülfət MƏDƏTOĞLU**

# Soyuqlamadan, qripdən, koronavirusdan ölmək istəməyənlərə məsləhət: İmmunitetinizi bunlarla möhkəmləndirin!

**Qış artıq payızın ortasından özünü göstərməkdədir və özü ilə xeyli də problem gətirib. Koronavirus təhlükəsini daha geniş yayılmasında əlbəttə ki, qışın "xüsusi xidmətləri" var. Həm immunitetimizi möhkəmləndirən meyvə - tərəvəz möhsümü geridə qalıb, həm də ki, evlərə istilik sistemi qanuna əsasən 15 noyabrda veriləcək. Yəni, soyuqlamamaq, xəstələnməmək əldə deyil. Hazırda bu yazını, evin içində qalın geyinib, odeyala bürünüb hazırlayıram.**

Ümmunitetimizin zəif zamanında, bir də soyuqlayıb dədə-baba qaydasınca burun-boğazın tutulması, qrip olması diqanozu əvəzinə xəstəxanalarda koronavirus diqnozu qoyulub səhv müalicə almaq da var. Xəstəxana, müayinə, müalicə, aptek, tibb bacısı xərclərini də hesabladıqda "ən yaxşısı xəstələnməyim" deyib vurnuxursan.

Əgər bu qədər canına, maddi vəziyyətinə yazığın gəlirsə, sizə təqdim etdiyim bu yazını oxuyun!

### *Xəstələnməmək mümkündürmü?*

Orqanizmin bakteriya və viruslara, eləcə də COVID-19 xəstəliyinə qarşı davamlı olması üçün immun sisteminin güclü olması olduqca vacibdir. Güclü immun sistemi hüceyrələri, orqanizmə daxil olan mikroorqanizmləri asanlıqla fərqləndirir və dərhal müvafiq cavab reaksiyası formalaşdıraraq onları məhv edir. Araşdırmalar göstərir ki, immunitet sisteminin güclü olması əhəmiyyətli dərəcədə qida rasionundakı makro və mikro elementlərin normasından, eləcə də bağırsaq florasının funksiyasından asılıdır. Belə ki, qidadan alınan zülallar, karbohidratlar və yağlar qan, limfa düyünləri və mədə-bağırsaq sisteminin immun hüceyrələrinə təsir göstərir.

Adalet.az xəbər verir ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) və



Qida Təhlükəsizliyi İnstitutunun mütəxəssisləri tərəfindən hazırlanan gündəlik istifadə etdiyimiz qidalarla bağlı məsləhətləri oxucuların diqqətinə çatdırır.

Belə ki, günlük qida rasionunu bu məhsullarla zəngin etməklə immun sistemini gücləndirən qidaları sizə təqdim edirik: C Vitamini: Sitrus meyvələri, yaşıl və qırmızı bibər, qara qarağat, kivi, çiyələk, brokkoli, cəfəri, ananas, Brüssel kələmi, gül kələm, manqo,noxud, pomidor

D Vitamini: Tuna və qızıl balıq kimi yağlı balıqlar, mal qaraciyəri, pendir, yumurta sarısı, bəzi göbələklər

A Vitamini: Treska balığı qaraciyər yağı, yumurta, sarı və narıncı meyvə və tərəvəzlər, brokoli, ispanaq, tünd yaşıl və lifli tərəvəzlər.

E Vitamin: Bitki yağları (buğda toxumu, günəbaxan, zəfəran, qarğıdalı və soya yağları), gərzəkli meyvələr (badam, fıstıq), günəbaxan toxumları, ispanaq və brokoli kimi yaşıl yarpaqlı tərəvəzlər

B6 Vitamini: Tuna balığı, qızıl balıq, banan, paxlalılar, mal əti, gərzəkli meyvələr, quş əti, tam taxıl, noxud

B12 Vitamini: Qaraciyər, az yağlı süd, toyuğun döş əti, yumurta, mal əti, tuna balığı, qızıl balıq, ala balıq

Fol turşusu: Yaşıl yarpaqlı tərəvəzlər, qurudulmuş lobya və noxud, sitrus meyvə və şirələri

Sink: Heyvan mənşəli proteinlər sinklə zəngindir. Mal və quzu əti, balıqla müqayisədə daha çox sink ehtiva edir. Gərzəkli meyvələr, tam taxıl, paxlalılar və maya göbələkləri də sinklə zəngindir.

Dəmir: Qurudulmuş lobya, quru meyvələr, yumurta (xüsusilə sarısı), yulaf, qaraciyər, qabıqlı dəniz məhsulları, quş və mal əti, qızıl balıq, tuna balığı, tam taxıllı bitkilər. Mis: Qabıqlı dəniz məhsulları, taxıllı bitkilər, lobya, gərzəkli meyvələr (badam, fıstıq, qoz), kartof, heyvan içalatı (qaraciyər, böyrək), göyərtilər, qurudulmuş meyvələr (gavalı, qaysı), kakao, qara bibər, maya

Selen: Bitki mənşəli məhsullar, balıq, qabıqlı dəniz məhsulları, qırmızı ət, yumurta, taxıl, toyuq əti, qaraciyər, sarımsaq.

Probiotiklərin və prebiotiklərin insanın qidalanma rasionuna daxil edilməsi bağırsaq florası üçün əhəmiyyətlidir.

Birləşmiş Millətlər Təşkilatının Qida və Kənd Təsərrüfatı Təşkilatı və Ümumdünya Səhiyyə Təşkilatının tərifinə görə probiotiklər "lazımi miqdarda qəbul edildikdə orqanizmin sağlamlığına əhəmiyyətli dərəcədə təsir göstərən canlı mikroorqanizmlərdir". Prebiotiklər isə bağırsaqda mövcud olan bir və ya bir neçə bakteriya növlərinin böyüməsini və ya fəaliyyətini seçici şəkildə stimullaşdıran qida maddələridir. Bunlar çiy tərəvəz və meyvə (pomidor, qulançar, giləmeyvə, sarımsaq, soğan, yaşıl tərəvəzlər, paxlalılar, həmçinin yulaf, kətan toxumu, buğda) turşu, süd və süd məhsulları (qatıq, kefir və s.) şəklində istehlak edilə bilər.

Bitki mənşəli bir çox lifli məhsullar (alma, banan, portağal, çiyələk, moruq, yerkökü, kartof, çuğundur və brokkoli) həzm olunmadan yoğun bağırsağa keçir və bağırsaqda yaşayan mikroorqanizmlər tərəfindən həzm edilir ki, bu da dolayı yolla immun sisteminin güclənməsinə gətirib çıxarır.

***P. S.** Əziz oxucularım, soyuqlamaq, virusa yoluxmaq, yatağa düşmək, naşı həkim əlində ölmək istəmirsinizsə, çalışın bu yazıdan maksimum yararlanın...*

**Əntiqə Rəşid**

## *ABŞ Pekin Olimpiadasını boykot etməyə hazırlaşır*




**ABŞ Pekində keçiriləcək Qış Olimpiya Oyunlarına qarşı diplomatik boykot elan etməyə hazırlaşır.**

Bu iddia ilə ölkə mətbuatı çıxış edib.

Məlumata görə, prezident Co Bayden müvafiq orqanlardan bununla bağlı tövsiyyə alıb və hazırda qərar üzərində texniki iş gedir.

Qeyd edək ki, iddiaların doğrulacağı təqdirdə ABŞ rəsmilərinin Çin paytaxtındakı Olimpiya tədbirlərində iştirakı mümkünsüz olacaq.

**Adalet.az**

Aslan Mehdiyev, Nəbi Muxtarov və Əbülfət Mədətoğlu **Hənifə Quliyevə** oğlu

**Məhəbbətin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Əbülfət Mədətoğlu **Rövşən Quliyevə** qardaşı

**Məhəbbətin**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tofiq Nurəli həkim dostu Abbas Bağırova

**anasının**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 142**
Çapa imzalanmışdır: 19.11.2021